

Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 04 (67) 2020



**REDAKSİYA HEYƏTİ:**

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Məsul katib:** Saleh Aslanov
**Tərcüməçi-redaktor:** Günel Yusifi
**Texniki redaktor:** Raman Dadaşov



**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi, 5.
Telefon: (+99412) 505-78-19
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.


Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.


Jurnal "Universal Poligraf" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA

## RƏSMİ GUŞƏ

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.....5

Dünya azərbaycanlılarına.....14

Mehriban Əliyeva: “Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır”.....16

## CƏMİYYƏT VƏ MƏNƏVİYYAT

***Şölət Zeynalov*** – Pandemiya: böhran dövründə humanizm və mənəviyyat problemi.....17

***Dr. Bahlul Aliyev, Prof. Dr. Zeki Arslantürk*** - Dinin dünya siyasetinde yeniden doğuşu... ...26

***Xəyalə Ağayeva*** – Vətənpərvərliyi formalaşdıran əsas amillər: milli-mənəvi dəyərlər və folklor.....35

## ŞƏXSİYYƏTLƏR

***Arzu Haciyeva*** – Nəriman Nərimanov irsində din fenomen və problem kimi.....42

***Əhməd Niyazov*** – Azərbaycanda XIX əsr maarifçi irfan hərəkatı: Hacı Qurban Əfəndi Meşleşi nümunəsində.....50

***Sakit Hüseynov*** – Əbdülrəhimbəy Haqverdiyevin yaradıcılığında əxlaq məsələləri.....58

## ARAŞDIRMA

***İbrahim Quliyev*** – Hədisi-şəriflərə görə ticarət mədəniyyəti.....65

***Samid Quliyev*** – İslam hüququnda ekshumasiyanın yeri.....73

***Minarə Paşayeva*** – Məhəmməd Füzulinin “Su” qəsidəsində İslam Peyğəmbərinə dərin məhəbbətin ifadəsi.....79

***Bədircahan Məmmədova*** – İlisu, Ağçay və Sarıbaş kəndlərində yeni tədqiqatlar.....86

## İSLAM VƏ İNCƏSƏNƏT

***Səbinə Nemətzadə, Səbirə Nemətzadə*** – İslam xətt sənəti və məşhur xəttatlar.....95

***Rauf Quluzadə*** – Kitabdan ekrana: ədəbiyyatın İran kino sənətində yeri.....105

## TARİXƏ PƏNCƏRƏ

***Тофик Иманов*** - Распространение христианства в Кавказкой Албании.....112



**www.scwra.gov.az**
**e-mail: redaksiya@scwra.gov.az**

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA İŞĞALDAN AZAD EDİLMİŞ AĞDAM ŞƏHƏRİNDƏ OLUBLAR



Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışladı.

Dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz həmvətənlər.

Bildiyiniz kimi, noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır.

Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat vermişdim. Bu gün, müharibə başa çatandan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir. Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar, qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış “Tərəfdaşlıq prioritetləri” sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr var. Bu, bizim böyük uğurumuzdur. Çünki uzun illər ərzində biz buna nail ola bilməmişdik. Bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmirdilər. Bəzi beynəlxalq təşkilatlar işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilər. Hətta BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan işğalçı dövlət kimi göstərilmədi. Orada “erməni qüvvələri” yazılmışdı.

Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq. Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim



deməkolar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Əks təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü, ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir.

Biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. “Xocalıya ədalət!” kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi tanınması demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

Biz - Qoşulmama Hərəkatına sədrlik edən ölkə BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq. Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilmişdir. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi. Çünki İkinci Qarabağ müharibəsi dövründə BMT-də, BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik.

Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır.

Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi



müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır.

Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. İndi buraya gələrkən mən ən azı üç müdafiə xəttini gördüm. Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Eyni zamanda, biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik.

Bax, bütün bu amillər bizim qələbəmizi şərtləndirdi. Mən bir daha qeyd etmək istəyirəm ki, ağdamlılar bu günü uzun illər ərzində - 30 ilə yaxın idi gözləyirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı da gözləyirdilər. Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.

Müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi.

Mən, demək olar ki, müharibənin ilk günlərindən çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə demişdim ki, - bütün bunları qaldırmaq olar, hər şey sənədləşdirilib, - bizə tarix versin. Dedim, Paşinyan, sən özün, sənin xarici işlər nazirin, yaxud müdafiə nazirin yox, hansılar ki, bu məğlubiyyətə görə işdən qovuldular, sən özün, Paşinyan, bizə tarix verməlisən, özün deməlisən və buna nail oldum.

Əgər mənim sözümə qulaq assaydı, indi belə rəzil durumda olmazdı. Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir. Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq.

Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər. Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Ermənilәşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər. Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların tör-töküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!

Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc

versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam.

Bu 44 gün ərzində bizə mənəvi və siyasi dəstək verən Türkiyə Cümhuriyyəti olub, mənim qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan olub və bir neçə digər müsəlman və qeyri-müsəlman ölkələrin rəhbərləri olub. Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dinlərinin liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb.

Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə

rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik.

Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi “Dəmir yumruq” əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 29 dekabr 2020-ci il.*

# MEHRİBAN ƏLİYEVA: "HEYDƏR ƏLİYEV FONDU QƏDİM QARABAĞ TORPAĞINDA DİNİ ABİDƏLƏRİMİZİN, MƏSCİDLƏRİMİZİN BƏRPASI ÜZRƏ LAYİHƏYƏ BAŞLAYIR"

Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır.

Bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirilir. Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir.

Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır.

Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar.

Əziz həmvətənlər,

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!

**Dərin hörmət və sevgilərlə,**
**Sizin MEHRİBAN".**

# PANDEMİYA: BÖHRAN DÖVRÜNDƏ HUMANİZM VƏ MƏNƏVİYYAT PROBLEMİ

**Şölət ZEYNALOV,**
*AMEA-nın Fəlsəfə İnstitutunun Davamlı inkişafın fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi, f. ü. f. d*

***AÇAR SÖZLƏR:*** *pandemiya, ekzistensializm, dialoq, humanizm, insan.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *пандемия, экзистенциализм, диалог, гуманизм, человек.*
***KEY WORDS:*** *pandemic, existentialism, dialogue, humanism, human.*

***Giriş***

Böhran dövründə baş verən prosesdən yazmaq, bəhs etmək artıq zəmanəmizin "dəbinə" çevrilmişdir. Ancaq qəbul etməliyik ki, baş verənlərə – zəmanənin tragizminə biz yalnız lokal hadisə və ya situativ proses kimi deyil, fundamental, mehvər problem toplusu kimi yanaşmalıyıq. Bu, bizi baş verən və verəcək bəlalardan xilas etməsə də, ona qarşı refleksiyalarımızı artırar, təfəkkürümüzdə fəaliyyətimizi yenidən canlandıra bilmək üçün əsaslar yarada bilər.

**1. *Problemə ümumi baxış.*** Hazırda hərbi qüdrətindən, iqtisadi, mədəni və sivilizasion inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir sivilizasiyanın, dövlətin, cəmiyyətin böyük imtahan qarşısında olması faktdır: Elmi-texniki tərəqqinin, səhiyyənin, tibbin, nəqliyyat-kommunikasiya vasitələrinin, bir sözlə, "sivilizasion tərəqqinin" yüksək inkişafına baxmayaraq, COVID-19 pandemiyası insan nəslini "olum və ya ölüm" dilemması ilə üz-üzə qoymuşdur. Qeyd olunmalıdır ki, qısa zaman kəsiyində milyonların ölümcül virusa yoluxduğu, yüz minlərin həyatını itirdiyi belə bir şəraitdə hələ də insanlığın bu bəladan necə və hansı üsullarla daha az itkilərlə çıxacağını proqnozlaşdırmaq və nəticələrin aydın şəkildə təhlilini aparmaq ciddi problematikadır. Bir tərəfdən indiyə qədər milyonlarla insanın yoluxduğu bu virusun vaksininin tapılması mübahisələr yaradır, digər tərəfdən, bu "vaksinin icad olunması uğrunda yarış" siyasi alverə çevrilir, bütün bunlar da, az qala, spekulyativ xarakterli yeni-yeni informasiyaların yaranmasına səbəb olur: virus təbii mənşəlidir, yoxsa süni? Əslində, nəzəri fikir üçün bu sualın cavabı aydındır: sivilizasion böhran hər gün dərinləşməkdədir – proses artıq başlamışdır və sonu bəlli deyildir. Gerçəklik müşahidə edilərkən məlum olur ki, nəzəri fikrin tarixən irəli sürdüyü həyəcan və əndişələr öz təsdiqini tapmışdır: son yüz ildə böyük texniki tərəqqinin gətirdiyi imkanlar fonunda insan total olaraq planetar səviyyədə pandemiya və digər fövqəladə proseslərə, özünün yaratdığı antropogen - qlobal fəlakətlərə hazır deyildir. Pandemiya prosesi və gerçək faktlar təsdiq edir ki, öz fövqəladə gücünə, hərbi qüdrətinə arxalanan supergüclər də bu prosesin qarşısını vaxtında ala bilmədilər. Ən qəribəsi isə budur ki, öz hərbi resursları ilə Yer kürəsini orbitindən çıxarmaq qüdrətində olan dövlətlər və sivilizasiyanın bütün texniki imkanları total ölümlərin qarşısında aciz qaldı. Fakt odur ki, hazırda iqtisadi, maliyyə, sosial, milli, etnik, dini, humanitar, coğrafi problemlərin tam həcmini dəyərləndirərkən bu epidemiyanın yaratdığı fəsadları mütəxəssislər zərərlilik əmsalına görə XX əsrin əvvəllərində planetar səviyyəli dünya böhranı ilə

müqayisə edirlər. Həmin böhran, əslində, İkinci Dünya savaşının da başlanmasına gətirib çıxarmışdı: imperializm bölmək üçün “yeni dünya” axtarırdı. Bu zaman sual yaranır: bəs indi günümüzdə baş verənlər sivilizasiyamızı Üçüncü Dünya müharibəsinə aparmırmı? Yaxud, müasir sivilizasiyamız doğru yoldadırmı? Keçən əsrin əvvəllərindən nəzəri fikrin apogeyinə qaldırılmış “sivilizasiyanın qürubu” və s. kimi məsələlər həqiqətənmi gerçəkləşə bilər? Məqalənin yazılma zərurəti də məhz buradan doğmuşdur.

Nəzəri anlamda yanaşdıqda bu kimi ziddiyyətli proses və faktlar tarixən mövcud olan digər fundamental tezisi yenidən aktuallaşdırır: istər individium, istərsə də planetar səviyyədə sivilizasiya olaraq baş verənlərə – qurduğumuz münasibətlər sisteminə, humanitar, iqtisadi, sosial, mənəvi əlaqələrə, bir sözlə, sivilizasion “atılışa” yenidən baxmalıyıq. Lakin fəlsəfi anlamda yanaşdıqda görürük ki, əslində, problem daha dərindən gəlir. Belə ki, əslində, metodoloji və humanitar kontekstdən yanaşdıqda görürük ki, tarixən fəlsəfənin irəli sürdüyü *“İnsan dəyişməlidir”* fikri indi yenidən sivilizasiyamızın qarşısında aktual olsa da, onun – insanın hansı istiqamətdə dəyişməsi kimi məsələlər, hətta nəzəri olaraq, Qərb filosofu M.Haydeggerin təbirincə desək, yüksək şəkildə təfəkkürümüz üçün aydın deyildir [1]. Bu isə istər elmi, istər fəlsəfi, istər dini və s. anlamda problemdir. Odur ki, bütün bunlar bizə “keçmiş” hesab etdiyimiz bəşəri dəyərlərə, mənəvi-ruhi əsaslara yenidən baxmağı, onları yenidən dəyərləndirməyi, onlara daha aydın təfəkkürlə, mənəvi-ruhi, ekzistensial anlamda yanaşmağı indi, müasir hesab etdiyimiz XXI əsrdə daha israrla tələb etməkdədir. Başqa sözlə, antropogen fəaliyyət planeti və ətraf mühiti məhv etdiyi kimi, insan nəslini də Yer üzündən silə bilər. Hər cür sivilizasion “atılışı”, hərbi, iqtisadi və s. revanşı mənəvi-ruhi məsələlərin, etik problemlərin fövqündə dərk etmək bir tərəfdən yanlış yanaşmadırsa, digər tərəfdən, qəbul etməliyik ki, bu, faciəyə gedən ən qısa yoldur. Qısa ifadə etsək, humanizmi, etik dəyərləri, birgəmövcudluq fəlsəfəsini unutmuş insan özü hər cür “revanşı” ilə bir tərəfdən ifrat israfçılıq yaradır, digər tərəfdən isə ətraf mühiti həm maddi, həm də mənəvi baxımdan, bir növ, “zəhərləyir”. Ona görə də qəbul edirik ki, əgər hətta yer üzündə hər bir sivilizasiya, hər bir cəmiyyət və fərd ən yüksək şəkildə maddi cəhətdən rifah və əmin-əmanlıq şəraitində yaşasa belə, onlar – “ruhaniyyət və mənəvi dəyərlər” [1] insan nəsli üçün mənəvi sərvətlər kimi dəyərlərimizin daimi mənbəyi kimi çıxış edəcəkdir. Səbəb isə fəlsəfi, dini, mədəniyyət və elmi kontekstdən yanaşdıqda təfəkkürümüzün hələ ki bundan böyük imkanlara malik olmamasıdır.

***2. Pandemiya: nəticə, yoxsa səbəb?*** Qeyd edək ki, yuxarıda ən ümumi formada toxunduğumuz problemin bir sıra fundamental sivilizasion, antropoloji, ekoloji, humanitar və s. silsilə səbəbləri vardır. Biz məqalədə onlara geniş şəkildə toxunmaq imkanına malik olmasaq da, burada müasir münasibətlər sisteminin əsas sütunundan biri olan humanizm və insanın ekzistensial aləminə, mənəvi-etik sferasına “ekskurs” etməyə cəhd göstərmişik. Ancaq ilkin olaraq bir şeyi qeyd edək ki, bu və bunun kimi onlarla problem həm tarixən, həm də günümüzdə fəlsəfə, din və elmin həyati əhəmiyyətli məsələsi kimi aktual olmuş və cavabı axtarılan suallardandır. Lakin fakt odur ki, elmin hər cür nailiyyətlərinə baxmayaraq, sivilizasion böhran azalmaq əvəzinə, bütün sferalarda artmış və hazırda bu problem qarşısıalınmaz vəziyyətə düşmüşdür. Nəzəri fikrə müraciət etdikdə görürük ki, bu – “insan dəyişməlidir”, “əsrimiz total fəlakətlər əsridir”, bu gedişatla “sivilizasiyanın qürubu” labüddür və s. kimi qorxunc proseslər barədə tarixən fəlsəfə, xüsusilə ekzistensial fəlsəfə həyəcan

təbili çalmışdır. Hər halda, müasir Qərb nəzəri fikrində bu məsələlər həyat fəlsəfəsinin problemi kimi XX əsrdə ciddi anlamda aktual olmuşdur. Həmçinin, demək olar ki, tarixən Yer üzündə bütün dinlər, xüsusilə monoteist dinlər heç zaman bəşəri tragizmə biganə qalmamış, əksinə, insanlararası münasibətlərdə sülh, ədalət, həmrəylik, halallıq və mənəvi paklığı tərənnüm etmişlər. Və indi texnologiyanın "pik" erasında da bu əsaslardan yola çıxaraq dinlər və onların prinsiplərindən çıxış edənlər insan "Mən"inin formalaşması yolunda böyük işlər görməkdədirlər. Bütün inkişaf və resurslara baxmayaraq, elə bil ki, öz bilik və elmi nailiyyətlərinə arxalanan insan dialoqdan qaçır və bu "qaçış" da onu daima başqalarına qarşı qoyur. Bu tezisdən çıxış edərək yuxarıda işlətdiyimiz fikri təkrarlayaq: təəssüf ki, sivilizasiyamızın yüksək inkişafına baxmayaraq, hər gün "tragizm və bəşəri böhranlar" daha da dərinə enir, üstəlik, hazırkı qorxunc pandemiya və digər böhranların qarşısını dövlətlər vaxtında ala bilməsələr, nəticələr barədə fikir bildirməyin özü belə, insan təfəkkürünü şoka sala bilər. Axı bizim yaratdığımız münasibətlər sistemi müharibələrdən böyük "terapevtik" üsul tanımır?!

Acı da olsa, bu həqiqətdir. Ədalət naminə bir şeyi qeyd edək ki, xüsusilə XX əsrdə elmi-texniki tərəqqinin və sivilizasiyanın görünməmiş həddi kontekstində qeyd edilən problemlər Qərb fəlsəfəsi üçün daha aktual olmuşdur – gedişat "sivilizasiyanı total fəlakətə sürükləyir". Sivilizasiyanın böhran həddinə yaxınlaşdığını hiss edən alman filosofu O.Şpenqler sivilizasiyanın "qürubundan", ekzistensialist filosoflar M.Haydegger və K.Yaspers bu gedişatla "fəlakətin yalnız zaman məsələsi" olmasından, A.Kamyu "tarixin unudulmasından", J.P.Sartr insan varlığının heçliklə münasibətlərindən, heçliyin, əslində, ekzistensial anlamda "var" olmasından bəhs edirdilər. Lakin təəssüf ki, müasirlik ən adi baxışla nəzərdən keçirilərkən aydın olur ki, tarixən dinlərin, fəlsəfənin irəli sürdüyü yüksək prinsiplər – humanizmin təntənəsi dünyada bərqərar deyildir. Bu prinsiplər insanın total "mənimsəmə", "genişlənmə", "gedonist" istəkləri qarşısında, bir növ, planetar səviyyədə aktuallıq qazanmadı. Əksinə, humanizm və insani duyğular əksər məqamlarda söz oyununa, daha üstün mövqelər qazanmaq üçün, bir növ, siyasi, ideoloji alətə çevrildi. Sivilizasiyamızda elm, bilik, texniki tərəqqi, rifah və "malikolma" imkanı artdıqca humanitar, ictimai, mənəvi, etik problemlər azalmaq əvəzinə, daha da genişləndi. Bu isə fəlsəfi təfəkkürdə XX əsrdə diqqət mərkəzində olan problemi – "bilik şər törədir" problemini yenidən gündəmə gətirdi, hər halda bu gün fəlsəfə bu problemə yenidən müraciət etməyi məqbul hesab etməkdədir.

Ona görə də indi etiraf edək ki, nəzəri fikri hətta bir kənara qoysaq belə, praktikada baş verən fəlakətlər, məsələn, elə ötən əsrin əvvəllərində milyonların həyatına son qoymuş "İspan qripi" ("ispanka"), daha sonra insanın qorxunc iddialarının nəticəsi olan İkinci Dünya müharibəsi kimi "olum və ya ölüm" savaşından sonra da planetdə baş verənlər sübut edir ki, bəşəriyyət daima humanizm, yüksək etik təfəkkür, birlik və təhlükəsizlik problemlərindən bəhs etsə də, müəyyən ifrat maraqlar səbəbindən hələ ki təhlükəsiz dünya qurmaq iqtidarında deyildir; bu, iqtisadi, sosial, humanitar, səhiyyə və s. sahələrinə də eyni dərəcədə aiddir. Məhz humanitar fəlakətlərdən və humanitar böhrandan bəhs ediriksə, burada, qısa şəkildə olsa belə, Ermənistan kimi təcavüzkar ölkənin Azərbaycana qarşı apardığı terror siyasətini mütləq qeyd etməliyik. Bu problem də yuxarıda toxunulan böhranların sırasında yer tutur. Fakt odur ki, biz illərdir həmin terror siyasətinin ağır nəticələrini yaşayırıq. Beynəlxalq hüquq və normalar isə qüdrət sahibi hesab edilən dövlətlərin maraq kontekstində dərk edildiyindən, yaxud faktlar yalnız bəsit üsullarla konstatasiya edildiyindən,

bu problem də öz həllini tapmamışdır. Qeyd etdiyimiz kimi, ədalət, humanizm, multikulturalizm və insani dəyərlərin lazımsız statusa zorən çevrildiyi bir epoxada bu kimi fəlakətlərin də baş verməsi, əslində, təəssüf ki, məntiqi sonluqdur: böyük nizam, ədalətli qərarlar, sülh və təhlükəsizlik daima kimlər üçünsə "oyun" meydanında *"oyun materialı"* kimi dərk edilir, dialoq və dialoq mədəniyyətindən gələn birgəyaşayış fəlsəfəsi bu təfəkkür sahibləri tərəfindən fiksiya hesab edilir. Hər halda, günümüzün mənzərəsi belədir. Pandemiya kimi qorxunc fəlakətlərə yanaşmalar da əksər hallarda bunu sübut etdi: bəşəriyyət sülh və təhlükəsizliyə, multikulturalizm və humanitar dəyərlərə böyük anlamda açıq deyildir; mənəvi "aclıq" ekzistensialdır.

***3. Dünyanın gələcəyi mənim gələcəyimdə açılır.*** Konkrekt olaraq indi planetdə baş verən ölüm kabusu – koronovirus pandemiyasına münasibət də yuxarıda qeyd edilən ziddiyyətlərdən biridir. COVID-19-un "hərəkət" trayektoriyası və ilkin şokları sübut etdi ki, heç bir cəmiyyət və dövlət ideal şəkildə bu kimi faciələrdən siğortalanmamışdır. Epidemiyanın yaratdığı qorxu, həyəcan və nəticələr göstərdi ki, iqtisadçılar, siyasətçilər və digər sahənin mütəxəssisləri bəşəriyyətin gələcəyi barədə hətta ən yaxın perspektivdə dünyamızın hansı problemlərlə üzləşə biləcəyini proqnozlaşdıra bilmirlər. Problemin yalnız biri – ancaq ən əhəmiyyətlilərindən biri buradan gəlir – naməlum bir virus proqnozları alt-üst edir: planetar və bəşəri gələcək naməlumluqlardan asılıdır, gələcək elə bil ki, indi öz əhəmiyyətini itirməkdədir. Halbuki vaxtilə fransız ekzistensialist J.P.Sartr izah edirdi ki, *"dünyanın gələcəyi mənim gələcəyimdə açılır"* [1, s.316]. Bu anlamda mənim və deməli, dünyanın gələcəyi hər hansı bir naməlumluqdan asılıdırsa, buradakı "açılım" yaratdığımız texnikanın, elmin, humanizmin mahiyyətinin yenidən dəyərləndirilməsini aktual etmirmi?

Əsl vətəndaş dedikdə, vətənə, dövlətə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi özbaşına, kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlarda vətənpərvərlik tərbiyəsi dedikdə, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, savadlı olmalı,

vətəni sevməlidirlər. Onlar hər bir işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklə barışmamalıdırlar. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə, vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

Vətənpərvərlik hissinin formalaşmasında folklor yaddaşının, xüsusən də özündə bu və ya digər tarixi hadisənin izlərini daşıyan folklor nümunələrinin də xüsusi rolu olduğu heç bir şübhə oyatmır.

***

Azərbaycan folkloru qürur mənbəyimiz olan tariximizin şanlı səhifələri ilə həddən artıq zəngindir və heç bir tərəddüd etmədən deyə bilərik ki, burada ən qədim dövrlərdən başlayaraq günümüzədək baş vermiş bir çox real tarixi hadisənin folklorlaşmış əksini görürük. Ən əski nümunələrdən söz açarkən hələ e.ə. V əsrdə Herodot tərəfindən yazıya köçürülmüş “Astiaq” və “Tomiris” əfsanələrini misal çəkmək olar. Təsadüfi deyil ki, tarixçilər sözügedən əfsanələrin süjetini real tarixi hadisələr [1, s.1], folklorşünaslar isə sırf folklor nümunəsi kimi gözdən keçirmişlər [2, s.280-284; 3, s.31-32].

Eyni fikirləri “Alp Ər Tonqa dastanı”na da şamil etmək mümkündür. Orada haqqında söz açılan, qədim Aşşur mənbələrində adı “Partatua”, yunan mənbələrində “Prototiy”, fars mənbələrində isə “Əfrasiyab” kimi çəkilən [4, s.91-118] Alp Ər Tonqa real tarixi şəxsiyyət kimi Azəbaycan tarixi kursuna daxil edilmişdir [5, s.105]. Tarixi mənbələrdə onun işğuzların (iç oğuzların) başında durduğu [6, s.224; 5, s. 118; 7, s.122-124], e.ə. VII əsrdə yaşadığı, Cənubi Azərbaycandakı Urmiya gölü sahilində qətlə yetirildiyi [8, s.326-329; 9, s.241; 10; 11, s.4363] qeyd edilir.

Xalq arasında ona və qəhrəmanlıqlarına o qədər böyük rəğbət olmuşdur ki, zamanla haqqında dastan qoşulmuş, ölümünə ağılar söylənmişdir.

Məlum olduğu kimi, Mahmud Kaşğarlının “Divan”ında yer alan çoxsaylı şeir nümunələrindən biri də Alp Ər Tonqanın ölümünə həsr edilmiş ağıdır:

*Alp Ər Tonqa öldümü,*
*İsiz ajun kaldımu,*
*Ödlək öcin aldımı?*
*İmdi yürək yırtılır…* [12, s.39-40].

Folklorda yaşayan tarixin izlərindən söhbət açan tədqiqatçılar bu münasibətlərin genişliyinə və mürəkkəbliyinə diqqət çəkərək qeyd edirlər ki, folklorun tarixi gerçəkliklə bağlılığı, tarixi hadisələrin folklorda əks olunması, folklorun tarixi hadisələrə münasibətdə yaddaş rolunu oynaması təkcə folklor mətnləri ilə tarixi hadisələrin münasibətlərini əhatə etmir. Tədqiqatçıların fikrincə, bu münasibətlərin çevrəsi çox geniş olub, ümumiyyətlə, insan yaradılışının, onun şüurunun psixogenetik, etnogenetik, linqvogenetik və s. də daxil olmaqla çox geniş məsələlərini əhatə edir. Qədim tarixin folklorda əks olunması hər hansı tarixi hadisənin, yaxud tarixi şəxsiyyətin folklor obrazının yaradılması ilə məhdudlaşmır. Burada düşünüldüyündən çox geniş məsələlər var. Folklor həm də dünyagörüşüdür. Xalqın öz tarixi boyunca qavrayıb mənəvi təcrübəyə çevirdiyi nə varsa,

folklorda əks olunur. Deməli, folklor ilə tarixin münasibətləri, əslində, daha geniş mənada həm də şüur və gerçəklik münasibətləri deməkdir [13, s.10-11].

Folklorda yaşayan tarixin izlərindən söz açarkən hərbi vətənpəvərlik hisslərinin aşılanması baxımından son dərəcə böyük önəm daşıyan "Dəqə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarından yan keçmək, əlbəttə ki, mümkün deyil.

"Kitabi-Dədə Qorqud"un hər boyunda bir oğuz igidinin qəhrəmanlığından danışılır. Hadisələr yay-qış qarı-buzu əriməyən Qazlıq dağında, alınmaz Əlincə qalasında, Şərurda, Dərbənddə, Gəncədə, Bərdədə, Dərəşamda, Qaraçuqda, Aladağda, Ağcaqalada, Göyçədə, Bayatda baş verir və bütün bunlar onu sübut edir ki, "Kitabi-Dədə Qorqud" məhz Azərbaycan xalqının sənət abidəsi, söz abidəsidir. Əsərdəki bir çox yer, yurd adları günümüzdə də həmin adlarla tanınmaqdadır.

Oğuzlar üçün yurd, Vətən sevgisi, torpaq hər şeydən yüksək və əzizdir. Onlar hər an doğma el-oba uğrunda canlarından keçməyə hazırdırlar. Oğuzlar öz qonşularına qarşı da mərddirlər. Onlar başqasının torpağına hücum etmir, sərhədlərini pozmurlar. Lakin düşmən xəyanət edib, qəfil hücuma keçdikdə oğuz igidləri hamılıqla Vətənin müdafiəsinə qalxır, düşməni tar-mar edirlər. Dar gündə Vətən sevgisi oğuzlara öz aralarındakı incikliyi də unutdurur, onları birləşdirir.

"Kitabi-Dədə Qorqud" oğuzların dastana çevrilmiş tarixidir. Dastanda hər sözün, ifadənin, adın dərin mənası var və bunların hamısının arxasında soy-kökümüz olan oğuzların keçmiş tarixi durur. Y.Mahmudov təsadüfən yazmır ki, "Kitabi-Dədə Qorqud" türklüyün, o cümlədən Azərbaycan tarixinin öyrənilməmiş dünyasıdır [14, s.35]. Bəli, həqiqət budur ki, tariximizin araşdırılması zamanı dastanlarımıza hələ də tarixi qaynaq kimi müraciət edilməsinə təsadüfi hallarda rast gəlirik. N.Dəmir bu mövzuya toxunaraq qeyd edir ki, "dastanlar millətlərin ensiklopediyasıdır. Tarixi ünsürlərin yanında millətlərin keçmişdəki gələnək, görənək və yaşayış tərzləri ilə ilgili olaraq bəlkə də heç bir qaynaqda rast gəlinməyən bilgilər dastanlarda yer almaqdadır" [15, s.355]. Onun bu fikri ilə razılaşan İ.Sadıq bildirir ki, "dastanlardan tarixi qaynaq kimi istifadə etmək üçün, birinci növbədə, onlardakı gerçəklikləri duymağı və görməyi bacarmaq lazımdır. Bu tarixi gerçəklikləri duymağı və görməyi bacarmayanda onlardan istifadə etmək xeyli çətinləşir" [16, s.108].

Tarixi mənbələr Dədə Qorquddan real tarixi şəxsiyyət kimi söhbət açır. Məsələn, Rəşidəddinin "Came-ət-təvarix"inin Türkiyə nüsxəsində Dədə Qorqudun VII əsrdə, Həzrət Məhəmmədin (s) dövründə yaşadığı bildirilir. Salnaməçi qeyd edir ki, "o, Məhəmməd (s) peyğəmbərlə şəxsən görüşmüş, ondan dərs almışdır".

Dədə Qorqudun real tarixi şəxsiyyət olduğu, hətta məzarının Dərbənddə yerləşdiyi məlumdur. Məsələn, Övliya Çələbi Qafqazda olarkən Dərbənddə Dədə Qorqudun müqəddəs qəbri və "40-lar qəbiristanı" barədə indi də öz elmi-tarixi əhəmiyyətini itirməyən rəvayətlər qələmə almışdır. Vaxtilə Azərbaycanda olmuş alman səyyahı Adam Oleari də Dədə Qorqud haqda yerli camaatdan çoxlu rəvayətlər eşidib. O yazır ki, Dədə Qorqudun məzarı Dərbənddə, Qazan xanın qəbri Təbrizdə Acıdərə çayının sahilində, Burla xatunun qəbri isə Urmiya qalasındadır.

Eyni hal "Koroğlu" dastanı üçün də xarakterikdir.

Araşdırmaçıların bir çoxu "Koroğlu" dastanını Cəlalilər hərəkatını öyrənmək baxımından əvəzedilməz mənbə hesab edir. Bu da, təbii ki, XVI–XVII əsrlərdə baş vermiş siyasi olayların dastanda təsvir edilən hadisələrlə bu və ya digər dərəcədə səsləşməsindən qaynaqlanır. Belə hesab edilir ki, "Koroğlu" dastanını ümumi kontekstdən – XVI-XVII əsrlərdəki Osmanlı-Səfəvi

qarşıdurması prizmasından öyrənmək özünü doğruldur [17, s.72].

Bu fikir Azərbaycan tarixşünaslığında geniş yayılmışdır. Qəbul olunmuş yekdil rəyə görə, "Osmanlılar əleyhinə üsyanlar hər yerdə elə səs salmışdı ki, əfsanəyə bənzər epik və qəhrəmanlıq dastanları xalqın dilindən düşmürdü. Bunlardan biri də məşhur "Koroğlu" dastanıdır" [5, s.104].

Həmin fikri folklorçu alimlər də paylaşırlar [18, s.10; 19, s.167].

Hərbi vətənpərvərlik motivli qəhrəmanlıq dastanlarına digər türk xalqlarında da rast gəlinməkdədir. Bu baxımdan qırğızlara aid olan "Manas" dastanını misal çəkə bilərik. Belə hesab edilir ki, onun yaranış dövrü IX-X əsrlərə təsadüf edir. Məsələn, A.Sadıkovun fikrincə, eposun mühiti IX-X əsrlərin mühitinə tam uyğunluq təşkil edir. A.Cəmil də onun fikri ilə razılaşaraq qeyd edir ki, "Manas"dan əvvəlki dövrün ictimai-siyasi ab-havasını, mənəvi iqlimini öyrənməklə eposun hansı tarixi zəmində yarandığını, formalaşdığını öyrənmiş oluruq. Bu baxımdan VII-VIII əsrlərdə Yenisey ətrafında mövcud olmuş qırğız xaqanlığının tarixini nəzərdən qaçırmağa haqqımız yoxdur [20, s.5].

Heç şübhəsiz, "Manas" qəhrəmanlıq dastanıdır. O, qırğızların etnogenezi prosesinə aydınlıq gətirəcək etnoqonik motivlərdən də xali deyildir. Eyni sözləri Manasın paradiqmaları olan Alp Manaş (eyniadlı Altay nağıl-poemasının qəhrəmanı) və Alpamışın (eyniadlı qazax dastanının qəhrəmanı) simasında Altay və qazax türkləri haqqında da söyləmək olar.

"Manas" dastanında da eynən "Kitabi-Dədə Qorqud"da olduğu kimi, "qırx qız" motivinə, eləcə də "qırx ərən", "qırx igid" barədə süjetə rast gəlirik. Bunlardan sonuncusu barədə B.Ögəl yazır: "Dədə Qorqud" kitabındakı Oğuz bəylərinin qırx igidi türk mifologiyasının ölməz və dəyişməz motividir… "Manas" dastanında Dədə Qorqud nağıllarında adı çəkilən qırx igidlə əlaqədar bəzi hadisələrə də rast gəlirik" [21, s.498].

Yeri gəlmişkən, qaraqalpaq türkləri içərisində də qırx qızla bağlı süjet və motivlərə rast gəlinməkdədir. Söhbət "Qırx qız" dastanından gedir. Bu dastanın süjeti ilə Quzey Qafqaz xalqlarının ortaq abidəsi olan və e.ə. I minilliyin ortalarında, iskit-sak mühitində formalaşdığı hesab edilən nart eposunun ümumi süjet və motivlərə sahib olması mütəxəssisləri çoxdan heyrətə salmışdır. "Qırx qız" dastanında öz qırx qadın döyüşçüsü ilə, yəni qırx amazonka ilə birlikdə uzaq bir adada yaşayan və xalqını düşmənlərdən qoruyan Gülayım adlı hökmdar qadından bəhs edilir [22; 23].

Türk qəhrəmanlıq folklor motiv və süjetləri içində müəyyən qədər gözdən kənarda qalan, lakin üzərində durulması vacib olan dastanlar da az deyil. Bu baxımdan Türk-Tatar xanı (padşahı) Puqaçaunun rus işğalçılarına qarşı savaşına həsr olunmuş nəğmələri misal çəkə bilərik. Türk-tatar folklor yaddaşı sözügedən şəxsi türk padşahı kimi təqdim etsə də, rus tarixşünaslığı bu faktı uzun müddət inkar etmiş, onu kəndli üsyanının başçısı və quldur kimi qələmə vermişdir. Rus mənbələrində onun adı "Puqaçov" kimi çəkilməkdədir. Son dövrlərdə bəzi rus tarixçiləri bu saxtakarlığı ifşa edən bir neçə məqalə ilə çıxış etmişlər.

Puqaçauya həsr edilmiş nəğmələrdə həm rus çarı I Pyotr, həm də Puqaçau "patşa" (padşah) kimi yad edilirlər. Bunlardan birincisi mənfi, ikincisi isə müsbət obraz kimi çıxış edir. Nəğmələrdə XVIII əsrin 70-ci illərində cərəyan etmiş real tarixi hadisələrdən bəhs olunur. Onlardan biri "Puqaçau patşa" adlanır:

| | |
|---|---|
| Puqaçau patşanı kürse ideнq, | (Puqaçau padşahı görsəydin, |
| Allarınnan bil böqen uzsa idenq, | Qarşısından keçib təzim etsəydin, |

Arqamak menep, dan totıo,
Caek yaularında yörsə idenq.

Yorğa ata şərəflə minib,
Ural yaylaqlarına yürüsə idin).

Sonuncu Türk-tatar xanına (padşahına) həsr olunmuş başqa bir nəğmə "Puqaçau yavı" (Puqaçaunun ordusu) adlanır:

Olı qına yulnınq tuzanı,
Çanq börketmen qaskər uzqanı,
Puqaçau la patşa üz doşmanın
Kuy-sarıktay iten kırqanı.

(Yol uzunu sıx qara toz dumanı,
Əsgərin yoxdur ucu-bucağı,
Puqaçau padşahın ordusu,
Qırıb keçir düşmanı.) [24, s.16].

Beləliklə, sürətlə dəyişən və qloballaşan dünyada dəyərlərin də bəziləri dəyişikliyə məruz qalır, bəziləri isə unudulur. Bu baxımdan müasir dünyada davam edən qloballaşma prosesi Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkəmizdən də yan keçməyib. Bütün bunlara baxmayaraq, milli-mənəvi dəyərlərimizin qorunması dövlət siyasətimizin ən önəmli və vacib istiqamətlərindən birini təşkil edir. Ona görə də qloballaşma adı altında gedən proseslərdə biz də vətəndaş olaraq milli-mənəvi dəyərlərimizi, onun tərkib hissəsi olan folkloromuzu qorumalıyıq.

Xalqımızın keçmişini özündə əks etdirən folklor nümunələrində biz qəhrəmanların milli-mənəvi dəyərlərinə sadiq qaldıqlarının, o cümlədən vətənlərinə, yurdlarına olan sevgisinin şahidi oluruq. Şübhəsiz ki, dədə-babalarımızdan bizə miras qalmış folklor nümunələri gələcək nəslin öz dəyərlərinə sahib çıxmasında və vətənpərvərlik hissinin güclənməsində mühüm rol oynaycaqdır.

# ƏDƏBİYYAT


1. Xəlilov P. Herodot və biz // Herodot. Tarix (Doqquz kitabda). Birinci hissə. Bakı: 1998.
2. Vəliyev V. Azərbaycan sovet poemalarında əfsanə mövzusu. Bakı: ADU, 1969, 40 s.
3. Zülfüqarlı (Hüseynova) S. Azərbaycan dili. Ali məktəblərin rus bölmələri üçün dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2009, 610 s.
4. Tantəkin H. Dəli Becan surətinin prototiplərinə dair. Məqalələr. Bakı: “Şirvannəşr”, 2006.
5. Azərbaycan tarixi. Bakı: “Azərnəşr”, 1994.
6. Süleymenov O. Az-Ya. Bakı: 1993.
7. Гасанов З. Царские Скифы. New York: “Liberty Publishing House”, 2000.
8. Гейбуллаев Г.А. К Этногенезу азербайджанцев. Б.: “Элм”, 1991.
9. Əlibəyzadə E. Ədəbi şəxsiyyət və dil. Bakı: “Yazıçı”, 1982.
10. Anadol C. Tarihe Hükmeden Millet: Türkler // “Aydınlıq” qəzeti, 1991, 10 avqust.
11. Yeni Türk Ansiklopedisi. 12 c. Ankara: “Ötüken”, 1985.
12. Xudiyev N. Azərbaycan ədəbi dili tarixi. Ankara: 1997.
13. Haşimi A. Oğuznamə epik ənənəsi və tarixilik problemi // AMEA-nın Folklor İnstitutu və A.A.Bakıxanov adına Tarix İnstitutunun “Folklor və tariximiz” mövzusunda elmi konfransının materialları. Bakı: “Elm və təhsil”, 2012, s. 9-14.
14. Mahmudov Y. “Dədə Qorqud kitabı” - xalqın yaratdığı və yaşatdığı tarix // DQD. Bakı: 2004, s. 18- 35.
15. Necati Demir. Ortak Türk Geçmişinden Ortak Türk Geleceğine Destanlar // OTKOTGUFKM. VI kitab. Bakı: 2010, s. 355- 365.
16. Sadıq İ. Azərbaycan folklorunda tariximizin aydın izləri // AMEA-nın Folklor İnstitutu və A.A.Bakıxanov adına Tarix İnstitutunun “Folklor və tariximiz” mövzusunda elmi konfransının materialları. Bakı: “Elm və təhsil”, 2012, s. 107-116.
17. Namazova F. Cəlalilər hərəkatı və “Koroğlu” dastanı // AMEA-nın Folklor İnstitutu və A.A.Bakıxanov adına Tarix İnstitutunun “Folklor və tariximiz” mövzusunda elmi konfransının materialları. Bakı: “Elm və təhsil”, 2012, s. 71-78.
18. Bayat F. Korkut Ata Mitolojiden Gerçekliğe Dede Korkut. Ankara: 2003.
19. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: “Elm”, 1972, 398 s.
20. Cəmil A. Manas: Tarixi varislikdən ədəbi varisliyə // AMEA-nın Folklor İnstitutu və A.A.Bakıxanov adına Tarix İnstitutunun “Folklor və tariximiz” mövzusunda elmi konfransının materialları. Bakı: “Elm və təhsil”, 2012, s. 5-8.
21. Ögəl B. Türk mifologiyası. l c. Bakı: “MBM”, 2006.
22. Сорок девушек. Каракалпакская народная поема, в переложении Арсения Тарковского. М.: 1951.
23. Kırk kız. Karakalpak xalkının kaxarmanlık dastanı. Kurbanbay japaydan jazıp alğan xom baslağa tayarlağan Asan Beqimov. Nökis: 1956.
24. Хакимов Р.Ф. Исторические песни в татарском фолклоре. Автореферат дисс. На соискание уч. степени канн. фил. наук. Казан: 2012.

Хаяла Агаева

## ОСНОВНЫЕ ФАКТОРЫ, ФОРМИРУЮЩИЕ ПАТРИОТИЗМ: НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ И ФОЛЬКЛОР

### РЕЗЮМЕ

Основными факторами формирования у молодежи патриотизма являются близкое и далекое прошлое народа, его достижения в области науки, культуры, государственности, политики, история героизма, а также современные показатели развития государства.

Нет сомнений, что особую роль в формировании патриотического чувства играет фольклорная память, особенно фольклорные образцы, несущие в себе следы того или иного исторического события.

Азербайджанский фольклор чрезвычайно богат славными страницами нашей истории, что является нашим источником гордости, и мы можем без колебаний сказать, что Азербайджанский фольклор чрезвычайно богат славными страницами нашей истории, что является нашим источником гордости, и без колебаний можно сказать, что здесь мы можем увидеть фольклоризованное отражение многих реальных исторических событий, начиная с самых древних времен и до наших дней.

Говоря о древнейших образцах, примерами являются легенды «Астиаг» и «Томирис», которые были записаны Геродотом еще в V веке до н.э. такие героические эпосы как «Альп Эр Тонга», «Книга моего Деда Коркуда» и «Короглу».

Khayala Agayeva

## THE MAIN FACTORS OF PATRIOTISM: THE NATIONAL-MORAL VALUES AND FOLKLORE

### SUMMARY

The recent and distant past of the people, achievements in the field of science, culture, statehood, politics, heroic history, at the same time modern development indicators of the state are the main factors shaping patriotism in youth.

There is no doubt that the memory of folklore, especially the folklore samples bearing traces of certain historical events, plays a special role in the formation of a sense of patriotism.

Azerbaijani folklore is extremely rich with glorious pages of our history, which is a source of our pride and without hesitation we can say that one can see the folklore reflection of many real historical events that have taken place here since ancient times to the present.

Legends such as “Astyages” and “Tomyris” by Herodotus of the 5th century BC and heroic epics such as Alp Er Tonga, “Kitabi Dada Gorgud” and “Koroghlu” are of the oldest examples.

# NƏRİMAN NƏRİMANOV İRSİNDƏ DİN FENOMEN VƏ PROBLEM KİMİ

**Arzu HACIYEVA**,
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Azərbaycan fəlsəfə tarixi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru,*
*arzuhacıyeva@mail.ru*

***AÇAR SÖZLƏR:*** *N.Nərimanov, xalqın tərəqqisi, din, İslam, ateizm konsepti, vicdan azadlığı, vəhdəti-vücud.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Н. Нариманов, прогресс народа, религия, ислам, концепция атеизма, свобода совести, вахдат ал-вуджуд.*
***KEY WORDS:*** *N.Narimanov, people's progress, religion, Islam, the concept of atheism, freedom of conscience, wahdat al-wujud.*

Görkəmli yazıçı, publisist, maarifçi, filosof, ictimai və dövlət xadimi Nəriman Nərimanov bütün həyatını xalqının azadlığı və tərəqqisi işinə həsr etmişdir. Mütəfəkkirin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamında (14 fevral 2020-ci il) deyildiyi kimi: "Onun ömrünün mühüm hissəsi qəlbən inandığı və həyatının başlıca vəzifəsi sayaraq müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizələrdə keçmişdir. Siyasi çarpışmaların daha da gərginləşdirdiyi son dərəcə mürəkkəb şəraitə baxmayaraq, Nəriman Nərimanov milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətdə xalqımızın mənafeyini imkanlarının ən son həddinədək müdafiə etmişdir" [1]. Təsadüfi deyil ki, xalqının savadlanması, maariflənməsi, elmin nailiyyətlərinə yiyələnməsi, dilinin, dininin inkişafı, özünü başqalarından seçib ayıran, xüsusi məsləki olan millət kimi formalaşması, vətənin azadlığı, müstəqilliyi, sosial, iqtisadi, siyasi, mənəvi tərəqqisi onun əsərlərinin daimi mövzusu olmuşdur. Din də diqqət mərkəzində saxladığı həmin problemlərdən biri idi. Bu diqqət və marağın səbəbi onun tez-tez təkrarladığı "müsəlmanın bütün həyatı dinlə bağlıdır" mülahizəsindən irəli gəlirdi. N.Nərimanov ilk dram əsəri "Nadanlıq"dan başlamış, ömrünün sonunda yazdığı, əlyazması arxivdə saxlanılan "Elmi kommunizmi düşünmək üçün yol" fəlsəfi əsərinə qədər, həmçinin publisistikasında din fenomenini ən müxtəlif aspektlərdən işıqlandırmış, onun cəmiyyət həyatına təsirinə, insan, dövlət, millət və elm ilə əlaqəsinə münasibət bildirmişdir. Mütəfəkkirin dinin müsəlman xalqlarının həyat-məişətində tutduğu yer, dindarlara yanaşma üsulları, vicdan və dini etiqad azadlığı, tolerantlıq haqqında dəyərli fəlsəfi fikirləri bu gün də elmi-nəzəri və əməli əhəmiyyət daşıyır.

Sovet dövrü elmi ədəbiyyatında N.Nərimanov "mübariz ateist" kimi təqdim edilərək, dinə münasibəti təhrif olunmuşdu. Ateizm konseptini rəhbər tutan tədqiqatçılar onun baxışlarını süni surətdə rəsmi ideologiyaya uyğunlaşdırır, mövhumat və fanatizm, mürtəce din xadimləri əleyhinə çıxmasını ümumilikdə dinə mənfi münasibəti kimi qələmə verir, həmin konseptə açıq-

aydın uyğun gəlməyən, məsələn, İslam dinini dəyərləndirən fikirlərinin üzərindən sükutla keçir və yaxud bunları barışdırıcı mövqe, maarifçi baxışlarındakı məhdudluq kimi tənqid edirdilər. Belə "məhdud" məqamları "taktiki mülahizələr"lə əsl əqidəsini gizlətməsinə yozanlar da vardı. Halbuki N.Nərimanov dini ümumbəşəri mənəvi dəyər olmaqla yanaşı, milli özünəməxsusluğun, ictimai mənlik şüurunun mühüm tərkib hissəsi hesab edirdi. Onun insanların etiqad və inamına, dini hisslərinə daima həssaslıqla, hörmətlə yanaşması, sovet hakimiyyətinin ilk illərində bu sahədə yol verilən pozuntulara, inzibatçılığa qarşı qətiyyətlə mübarizə aparması, dindarlara havadarlıq etməsinin arxasında, əslində, adi humanizm deyil, həm də möhkəm əqidə, nəzəri-fəlsəfi fikir təməli dururdu.

Bu nöqteyi-nəzərdən materialist, marksist N.Nərimanov və idealist, neokantçı A.İ. Vvedenskinin baxışları arasında bir yaxınlıq görmək olar. 1922-ci ildə, bolşeviklərin din və Kilsə əleyhinə amansız mübarizə apardığı bir vaxtda A.İ.Vvedenskinin "Ateizmlə mübarizədə Allaha inamın taleyi" başlıqlı məqaləsi dövrün rus sovet mətbuatı tərəfindən "top-tüfənglə" qarşılanmışdı. Belə ki, məqalədə din kimi, ateizm də prinsip etibarilə sübut edilə bilməyən inam olaraq səciyyələndirilirdi. Müəllif göstərirdi ki, ateizm də etiqaddır, yəni Allahın yoxluğuna etiqaddır və elmi cəhətdən əsaslandırıla bilməz. Belə ki, "... təbiətdə hər şeyi Allahın köməyi olmadan, yalnız təbiət qanunları ilə izah etmək olar, hər şeyi, yalnız təbiətin və onun qanunlarının mövcudluğundan başqa" [2, s.195]. Elm öz dəlilləri ilə Allahın varlığını sübut etməkdə acizdir. Lakin Allaha inam psixoloji, əxlaqi və estetik amillərlə şərtləndiyindən, həmişə olub, var və olacaq. Filosof buradan belə qənaətə gəlirdi ki, ateizmin insanların dini inamları ilə kəskin mübarizəsi onu həyata keçirənlərin istəyinə rəğmən dini hissləri daha da gücləndirə bilər. Elə bu məqalədə Vvedenski marksist sosializmin bir çox tərəfdarlarının gələcəkdə "elmi sosializmin mübahisə doğuran şərtindən", yəni "ateist şərtindən" azad olmağa çalışacaqlarını [2, s.192, 210] qabaqcadan söyləmişdi.

Maraqlıdır ki, burada söhbət gedən "ateizm" şərti N.Nərimanovun dünyagörüşündə heç vaxt olmamışdır. O, bədii, elmi əsərlərində, publisistikası və nitqlərində nəinki ateist təbliğatı və tərbiyəsi vəzifəsi irəli sürmüş, hətta əsərlərində "ateizm" kəlməsini də işlətməmişdir [3, s.140]. Fəaliyyətinin ilk dövrlərindən başlayaraq bir çox hallarda ictimaiyyətlə məscidlərdə görüşmüşdür. 1920-ci ilin mayında İnqilab Komitəsinə rəhbərlik etmək üçün Azərbaycana qayıdan N.Nərimanovun zəhmətkeşlər qarşısında ilk böyük çıxışı Təzəpir məscidində olmuşdur. Bunlar onun xalqa yaxınlığından, həqiqi demokratizmindən də xəbər verir.

Mütəfəkkirin fəaliyyətinə dinə münasibət cəhətindən nəzər saldıqda burada xalqın yaradıcı qüvvələrini buxovlayan mövhumat və fanatizmin tənqidi ilə dinin humanist mahiyyətinə istinadı, vicdan azadlığı ideya və prinsiplərinin müdafiəsi ilə ictimai şüurun mürəkkəb formalarından biri kimi dinin fəlsəfi dərkini vəhdət halında görürük.

N.Nərimanova görə, din tarixi və fəlsəfi kateqoriyadır, o, cəmiyyətin müəyyən inkişaf mərhələsində yaranıb, bir çox tanrıya, bütə sitayişdən vahid Allaha inama keçid edib, insanları əqidəcə birləşdirməklə, qəbilə-tayfa dağınıqlığını aradan qaldırmaqla müsbət, tərəqqipərvər rol oynayıb. Din banilərini öz dövrlərinin inqilabçıları adlandırması bu səbəbdəndi. O, diqqəti dinlərdəki insan, cəmiyyət həyatı üçün dəyərli, faydalı olan tövsiyələrə yönəldir, bu zaman İslam dinini başqa dinlərdən üstün tuturdu. Bu məqam onun "Tibb və İslam" əsərinə (1910) də xasdır. O, İslamda "hifz-bədən", yəni gigiyena məsələsinə böyük önəm verildiyini göstərərək yazır: "Bizim

təsəvvürümüzcə, təbiətə müvafiq gələn din ancaq İslam hesab olunur. Peyğəmbərimiz insanın bədəninə xüsusi diqqət edibdir. Və insanın əxlaq-ətvarını düzəldirkən, ruhunu təmizlərkən yəqin edibdir ki, yalnız səhhət və afiyət (təmizlik) olan bir bədəndə ruh səhhət üzrə ola bilər" [4, s.18-19]. Kitabda tibb elmi ilə İslam qanunlarının, o cümlədən namaz, oruc və s. kimi göstərişlərinin uyğunluğuna dair maraqlı fikirlər çoxdur. Məsələn, N.Nərimanov insanları cürbəcür bəlalara düçar edən spirtli içkilərə qadağa qoymasını İslamın "insaniyyətə böyük xidməti" kimi qiymətləndirib [4, s.51].

N.Nərimanovun fikrincə, tarix boyu bəşəriyyətin tərəqqisi iki yolla: din və elm, idrak yolu ilə getmişdir. İnsan ağlı hər şeyi qavramaq qabiliyyətinə malikdir, onun üçün hədd-hüdud yoxdur və fikir azad olduğu təqdirdə din yolunda da, elm yolunda da tərəqqi mümkündür. Lakin vaxtilə bəşəriyyətin tərəqqisinə yol göstərən din sonralar ruhanilərin bayağılaşdırma və yanlış təfsirləri ucbatından öz əzəli dəyərlərindən uzaq düşmüş, bir sıra hallarda cəhalət və geriliyin mühafizəçisi, zülm və istismar alətinə çevrilmişdir. Mütəfəkkir İslamı heç bir elmdən qorxmayan "əqli və təbii bir din" kimi xarakterizə edir, Quranda və şəriətdə təsbit olunmuş bir çox həyati məzmunlu, qiymətli mətləbləri təhrifə uğradan ruhaniləri tənqid edirdi. Həştərxan müsəlman kommunistlərinin və məsul işçilərinin yığıncağındakı nitqində (28 dekabr 1918-ci il) keçmişi xatırlayaraq deyirdi: "Ruhanilərin vicdansızlığı və həyasızlığı o yerə çatırdı ki, İslam dini banisinin "elmi oxuyun beşikdən qəbir evinədək" hədisini onlar öz bildikləri kimi təfsir etmişlər və edirlər: onlar deyirlər ki, elm sözü guya ruhani elmlər, şəriət mənasında işlənmişdir" [5, s.208].

N.Nərimanov, bir tərəfdən dini yanlış təfsirlərdən təmizləməyə çağırır, digər tərəfdən ruhanilərin dünyəvi təhsilə cəlb edilməsini vacib sayırdı. Çünki "ruhanilər millətə lazımdır. Fəqət indi ruhanilərimiz yaman haldadır, divarın o tərəfində olan şeyləri görmürlər, millət nə ilə tərəqqi etməyini bilmirlər, ... ona görə vaxtında zəmanəyə müvafiq, millətə lazım olan qulluğu etməyi bacarmırlar" [6, s.258]. O deyirdi ki, din millətin tənəzzülünə səbəb olmamalıdır, çünki onu yaradan da camaatın, xalqın özüdür. Cəmiyyət inkişaf etdiyi kimi İslam dini də inkişaf etməlidir, başqa sözlə, onda müəyyən islahatların aparılması zəruridir. "Bahadır və Sona"da Almaniyada protestantlığın banisi Martin Lüteri xatırlaması əbəs deyildi: "Xristian dinini intişar edənlər bir Lüterin çıxmağına səbəb olan kimi müsəlman aləmi də öz Lüterini gözləyir. Bu Lüter gəlib də deyəcək: insan daima tərəqqi yolunda yaşayarkən onun məişəti və ağlı müəyyən, həmişəlik bir qanuna kifayət edə bilməz" [6, s.175].

Mütəfəkkir, ümumiyyətlə, dinə deyil, dinin inkişaf və tərəqqini ləngidən donmuş ehkamlarına qarşı çıxır, sürətlə dəyişib yeniləşən dünyada onların müasir gerçəkliyə, ictimai münasibətlərə uyğunlaşdırılmasını istəyirdi. Maraqlıdır ki, bu məqamda N.Nərimanovun baxışları məşhur İslam ideoloqu Cəmaləddin Əfqaninin fikirləri ilə qəribə şəkildə səsləşir. Əfqani də müsəlman ülәmalarının elmləri - müsəlman və Avropa elmləri deyə iki yerə bölüb, "camaatı xeyirli elmlərin (yəni dünyəvi elmlərin – A.H.) mənimsənilməsindən çəkindirmələrini" tənqid edir, İslam dininin "elmə və mədəniyyətə ən yaxın və ən doğma din" olub aralarında ziddiyyətin olmadığını göstərirdi [7, s.34]. O, "Quranın həqiqi ruhunun azadxah"lığını, müasirliyə uyğunluğunu vurğulayır, inanırdı ki, tarixi təkamül və inkişaf prosesində İslam dini nadan və cahil təfsirçilərin ona etdikləri əlavələrdən təmizlənəcək: "...bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurələrinə tamam aşina olsa, o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə

bilər. Bu iş isə Lüterin üzləşdiyi maneələrlə üzləşməz” [7, s.44]. Əslində, Nərimanov da Əfqani kimi xalq arasında müəyyən mənada həmin işi görürdü.

“Ümum müsəlmanlar üçün müqəddəs bir məslək həqiqəti-İslam nə olmağını bilməkdir” deyən N.Nərimanov bu məsləyi “insaniyyətə xidmət” adlandırır [6, s.377]. Bunun üçünsə azadlıq və tərəqqi yollarında eyni dinə etiqad edən millətlərdən hər birinin öz Mənini, orijinallığını qoruyub saxlamasının vacibliyini qabardır: xalq özünü dərk etməli, tanımalıdır ki, özünə uyğun inkişaf yolunu müəyyənləşdirə bilsin. Bu yol isə ümumi ideala zidd deyildir.

N.Nərimanov cəmiyyətdə hər hansı bir əqidənin, istər din, istərsə də hər hansı bir başqa, məsələn, bolşevizm ideyasının hegemonluğunda millətin özünəməxsusluğu üçün təhlükə görürdü. Keçən əsrin 30-cu illərində M.S.Ordubadi N.Nərimanovla söhbətlərini xatırlayaraq üstüörtülü şəkildə onun məhz sonuncuya münasibətdə belə bir mühüm müddəasına diqqəti cəlb edərək yazırdı: “O deyirdi: “Dünyada bir əqidənin hakim olması milliyyətin orijinallığını itirmək deməkdir. Çünki əqidənin milli adət və milli mədəniyyət üzərində böyük bir təsiri ola bilər” [8].

N.Nərimanovun humanizmini əks etdirən bu fikirlər onun vicdan azadlığına münasibətinə də xasdır. Onun vicdan azadlığına dair şərhləri 1918-ci ildə Həştərxanda mollaların və tatar məktəbləri müəllimlərinin, həmçinin müsəlman kommunistlərinin və məsul işçilərinin yığıncaqlarındakı nitqlərində, “beşikdən başlamış qəbir evinə kimi başları şəriətə bağlı olan” müsəlmanlara yanaşma üsulları barədə məqalə və məktublarında öz əksini tapmışdır. Burada o, çar zamanında başqa dindən olan xalqların sıxışdırıldığını, Nikolay keşişlərinin və missionerlərin müsəlmanlar arasında Xristianlığı yaymasını və bu mənfur əməldə müsəlman ruhanilərin pula, rütbəyə və vəzifəyə satılaraq çarizmə xidmət göstərmələrini konkret faktlarla tənqid edərək, dinin dövlət işlərinə və dövlətin din işlərinə müdaxiləsinin acı nəticələrindən bəhs edir. Rusiya Xalq Komissarları Sovetinin “Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında” dekreti ilə əlaqədar göstərirdi ki, vətəndaşların dinə etiqad etməsi və ya etiqad etməməsi azad olmalıdır. Dini mənsubiyyətə, etiqada görə insanlar və xalqlar arasında hər cür nifrət və ədavət yolverilməzdir.

“Bəs Kilsəni dövlətdən ayırmaq nə deməkdir?” sualına N.Nərimanovun cavabı qətidir: “Bu ancaq o deməkdir ki, Kilsəni, dini dövlətin təsirindən azad etmək lazımdır. Bu o deməkdir ki, ruhanilər: mollalar, keşişlər kənardan heç bir təsir olmadan dini, şəriəti təbliğ etsinlər. Kilsəni dövlətə tabe etmək mollalara, keşişlərə pul, qızıl, vəzifə, rütbə verib, satılmaz və alınmaz əsl dinin tələblərini deyil, dövlətə lazım olan şeyləri təbliğ etməyə məcbur etmək deməkdir. Din, iman azad olmalıdır. İman şəxsi bir işdir: onu satmaq və almaq olmaz, zorla bir adamı bir dinə gətirmək olmaz” [5, s.199]. Mütəfəkkirin dekret haqqında mülahizələrinə hər bir dində ümumbəşəri dəyərləri nəzərə almaqla onlara hörmətli münasibətin təbliği xasdır, başqa sözlə, o, müasir dillə desək, tolerantlıq, yəni dözümlülük prinsiplərini rəhbər tuturdu.

Lakin vicdan azadlığı elan edən dekretin həyata keçirilməsində yol verilən nöqsanlar N.Nərimanovu ciddi narahat edirdi: “Məsul vəzifələrdə olan bəzi yoldaşlar müsəlman camaatının dini nəzəriyyatındakı və məişətindəki xüsusiyyətləri başa düşmürlər və mən deyərdim, hətta bununla hesablaşmaq istəmirlər...” [5, s.204]. İradı ilə əlaqədar o, 20 il əvvəl yazdığı “Nadir şah” faciəsində “yeritmək” istədiyi fikri yada salır: “Dövlət qanun nəşr etməkdən əqdəm, öz rəiyyəti olan millətlərin məişətini, adətlərini və dinini, gərəkdir, öyrənsin” [5, s.204]. Bu isə açıq-aşkar xalqların psixologiyasını, dinin onların həyatında tutduğu mühüm yeri, mövqeyi nəzərə almayan dekretin

tənqididir. N.Nərimanov dinə qarşı çıxanların nəzərinə çatdırırdı ki, ərzağın çatışmaması, qıtlıq zəhmətkeşləri acıqlandırır, yaranmış vəziyyətdən narazı salır və onlar yeganə təsəllini Allaha, dinə inamda tapırlar. "Müsəlmanların həyatında bu məsələ... incə və ciddidir..." deyə kommunistlərə bir daha xəbərdarlıq edirdi ki, dinə saymazyana və qeyri-ciddi münasibət bəsləmək olmaz. Din barədə hətta hər bir sözə, hər bir kəlməyə diqqət vermək lazımdır. O, Kilsənin dövlətdən və məktəbin Kilsədən ayrılması haqqında dekretin icrasında yol verilmiş keçmiş səhvlərdən ciddi nəticələr çıxarılmasının əhəmiyyətinə toxunur, dekretin həyata keçirilməsində ərzaq məsələsinin qaydaya salınmasını, xırda alverə yol verilməsi ilə yerli xalqların rifahının yüksəldilməsini, eyni zamanda quruculuq işlərinə cəlb edərək onların ictimai vəziyyətinin dəyişdirilməsini vacib sayırdı.

N.Nərimanovun bütün cidd-cəhdlərinə baxmayaraq, sovet Rusiyasında olduğu kimi, Azərbaycanda da vicdan azadlığı prinsipləri kobud şəkildə pozulurdu. Bu pozuntular haqqında onun MK-ya, İ.V.Stalinə "Ucqarlarda inqilabımızın tarixinə dair" adlı məşhur məruzə-məktubunda (1923) da konkret faktlar əksini tapıb. Xatırladım ki, N.Nərimanovun siyasi xadim, dövlət başçısı kimi böyük cəsarətinin, tarix və xalqı qarşısında məsuliyyət və uzaqgörənliyinin ifadəsi olan bu qiymətli tarixi sənəddə Mərkəzin yarıtmaz siyasəti, xüsusilə, Azərbaycandakı əlaltıları vasitəsilə həyata keçirdiyi "... məlum proqram üzrə ... Azərbaycanı simasızlaşdırmaq, öz miskin məqsədləri üçün onu gücdən salmaq" siyasəti dəlillərlə ifşa edilir.

Məruzənin bir yerində N.Nərimanov hiddət və qəzəbini gizlətməyərək 1922-ci ildə onun Bakıda olmamasından istifadə edib, Kirov və Mirzoyanın göstərişi ilə Balaxanıda dindarların İmam Hüseynin matəm yürüşünün silah gücünə dağıdılması haqqında yazırdı: "Burada mərkəzin nümayəndəsi Kirov başını itirdi. Dinə qarşı materialist kimi çıxış etmək bir şeydir, bu mərasimləri qadağan etmək məqsədilə silahlı qüvvə tətbiq etmək başqa şey". Sonra o, fikrini tamamlayaraq xəbərdarlıq edirdi: "Nə qədər ki, bu dindar kütlənin inkişaf səviyyəsini yüksəltmək yolu ilə onun bu matəm günlərinə mömin olan, lakin özünə işgəncələrdə iştirak etməyən hər hansı ziyalı müsəlman kimi yanaşmalarına nail olmamısınız, elə də olacaqdır" [9, s.42-43]. Əslində, N.Nərimanov özü belə bir "ziyalı müsəlman" örnəyi idi. Onun sərəncamı ilə, öz sözləri ilə desək, "insanlar çiy su içib cürbəcür xəstəliklərə mübtəla olmasınlar, çay içsinlər" deyə 1920-ci ildə aclıq zamanı matəm yürüşündə iştirak edən zəif düşmüş dindar fəhlələrə qənd paylanılmışdı.

Məruzədə o, insanların dini hissləri ilə oynamağın, heysiyyətinin təhqir edilməsinin həm insani, həm siyasi cəhətdən yolverilməz olduğunu bəyan edirdi. Fars fəhlələrinin iclaslarından birində İmam Hüseyni qorxaq adlandırıb onların məzəmmətinə tuş gələn Azərbaycan Respublikasının başçısı Ağamalı oğlu və onun timsalında bir çox satqın kommunist rəhbərləri ifşa edərək yazır: " ... Qorxaq o deyil ki, yetmiş nəfər pis silahlanmış adamla on dəfə artıq qüvvətli olan düşmənlə döyüşür, odur ki, sol qrupdan qorxub işin əsl vəziyyətini bildirmir və bununla partiya üzvlərini aldadır, onları fəhlə-kəndli respublikasında qırmızı əsgər güllələrindən qanı tökülən fəhlələrə qarşı silahlandırır. Qorxaq odur ki, vəzifəsindən ötrü alçaqcasına yalan danışır, lakin İmam Hüseyn tabe olsun və vicdanını qızıla satsın deyə, Yezid bütöv bir vilayəti idarə etməyi ona təklif edirdi. O bunu etmədi, həlak oldu" [9, s.43].

Yeri gəlmişkən, məruzənin araşdırılmasını N.Nərimanov üzərində divan kampaniyasına çevirən yoxlama komissiyası yuxarıdakı faktları da diqqətsiz buraxmadı. Daşürəkli fəhlə-kəndli rəhbərləri onun qıtlıq vaxtı məhz "Şaxsey-vaxsey iştirakçılarına" qənd verməsini və bu mərasimi

“tarixi-nəzəri təməl üzərinə keçirib İmam Hüseynin timsalında Azərbaycanda kommunistlərin “sol” qrupu əleyhinə haqq işi uğrunda mübarizə aparan bir şəxsiyyət təsvir etməsini” dini təbliğat, fanatizmə himayə kimi qiymətləndirdilər. Onun din əleyhinə əsərlərdən hesab edilən “Pir” povesti də tənqid hədəfinə tuş gəldi. Komissiyanın iclaslarından birində məruzədə antiazərbaycan fəaliyyəti ifşa edilən Ruhulla Axundov bu əsəri özünü müdafiə etmək üçün, “liberal, liberal müsəlman” N.Nərimanovun “nə kommunizmi, nə də Sovet hakimiyyəti prinsipini həyata keçirmək iqtidarında olduğuna” nümunə kimi yada salmışdı. “Rus yoldaşların” anlaması üçün povestdən bəzi (müəllifin azanın musiqisini, sözlərinin mənasını sevməsi, hər şeyin Allah tərəfindən yaradılması haqqında fikirlərini əks etdirən) hissələri tərcümə edərək göstərir ki, burada N.Nərimanov, əslində, dinə qarşı çıxmır, əksinə, nadan xalq kütlələrinin fanatizmini onların həqiqi Allahdan uzaq düşmələri ilə izah edir və bu fikrində də qalır, çünki din əleyhinə kitabçalar buraxılarkən əsərdə düzəliş etmək təklifindən boyun qaçırıb [10, s.210-211]. Qəribə görünsə də, mənfur niyyətinə və kinayəsinə rəğmən, “şərhçi”nin povesti doğru anladığını demək olar.

N.Nərimanovun dini fəlsəfi mənalandırmasının kökündə müstəsna olaraq Allahın dünyaya immanentliyi məqamına istinad edən vəhdəti-vücud konsepti durur. O, əsərlərində (“Pir”, “Bahadır və Sona”da, bir çox məqalə və çıxışlarında) vəhdəti-vücudu sufi mistisizmi ruhunda təfsir edir: Allah dünyadadır, yaratdıqlarında təzahür edir. Allahı dərk etmək üçün Onun lütfünü, mərhəmətini, sevgisini həmin təzahürlərdə görməyi, düşünməyi, hiss etməyi bacarmalısan və deməli, sevməlisən. Allahı sevmək onun yaratdıqlarını sevmək, qayğısına qalmaq, qorumaqdır [11, s.157-159]. Mərhəmətli, rəhmli Allah qarşısında dinindən, irqindən, milliyyətindən, ictimai mənşəyindən asılı olmayaraq, bütün insanlar, xalqlar bərabərdirlər. Hər bir xalqın öz məsləyi ilə yaşamağa, özünəməxsusluğunu qorumağa haqqı var, lakin bu, xalqların ümumi vəhdətinə, dostluq və əməkdaşlığına xələl gətirməməlidir, zira, divanə Sonanın təkrarladığı sözləri xatırlayaq: “Allah bir… Qanun bir… Məqsəd bir… Yol bir…” Allahı tanımaq yaxşılıq etməkdir, xeyirxahlıqdır, insanları, xalqları birləşdirmək, geriliyi, zülmü, istibdadı, istismarı aradan qaldırmaq, elmə, mədəniyyətə, inkişafa yol açmaq deməkdir.

Bu gün mədəni və sosial fenomen, eyni zamanda insanları, xalqları birləşdirə bilən mürəkkəb sistem olaraq dinin dərkində Nəriman Nərimanovun mənəvi təcrübəsi, onun demokratik və humanist ideyaları çox səmərəli və faydalı ola bilər. Bunun üçünsə, zənnimcə, mütəfəkkirin zəngin nəzəri, bədii və fəlsəfi irsinin hermenevtik yanaşmada, tarix və müasirlik baxımından yenidən və obyektiv oxunuşuna, şərhinə ehtiyac var.

# ƏDƏBİYYAT


1. İlham Əliyev. Nərimanov Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 fevral 2020-ci il)/ http://anl.az/el/emb/N.Nerimanov/pdf/serencam.pdf
2. Введенский А.И. Статьи по философии. СПб.: Изд. С.-Петербургского ун-та, 1996.
3. Hacıyeva Arzu. Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı: Adiloğlu, 1998.
4. Nərimanov N. Tibb və İslam. Həştərxan: 1910.
5. Nərimanov N. Məqalələr və nitqlər. I cild. Bakı: Azərnəşr, 1971.
6. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973.
7. Əfqani C. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1998.
8. Ordubadi M.S. Nərimançılıq // "Azərbaycan" qəzeti, 13 aprel 1990.
9. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: Azərnəşr, 1992.
10. Иванов Р.Н. Нариман Нариманов основатель советского Азербайджана и первый руководитель Союза ССР. М.: ППП «Типография «Наука», 2016.
11. Hacıyeva Arzu. "Ən gözəl sözlər"in hikməti // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, № 2, 2017.

Арзу Гаджиева

# РЕЛИГИЯ КАК ФЕНОМЕН И ПРОБЛЕМА В НАРИМАНОВСКОМ НАСЛЕДИИ

## РЕЗЮМЕ

Религия как феномен и проблема была одной из главных тем в теоретическом и философском наследии Наримана Нариманова, выдающегося писателя-драматурга, просветителя, ученого, публициста-философа, общественного и государственного деятеля Азербайджана. В статье, анализирующей особенности взглядов мыслителя на религию, автор критикует необоснованные мнения о якобы атеизме Н.Нариманова, широко распространенные в советской научной литературе.

Автор считает, что идеи Н.Нариманова, в том числе идеи о необходимости сохранения национальной идентичности, самосознания нации, а также роли религии в жизни мусульманских народов, подхода к верующим, свободы совести, глубоко современны и могут быть полезны при решении существенных проблем в этой области.

Arzu Hajiyeva

# RELIGION AS A PHENOMENON AND A PROBLEM IN THE LEGACY OF NARIMAN NARIMANOV

## SUMMARY

Religion as a phenomenon and a problem was one of the main themes in a theoretical and philosophical heritage of Nariman Narimanov, outstanding writer-playwright, enlightener, scholar, publicist-philosopher, public and state figure of Azerbaijan. In the article analyzing features of the thinker's views about religion, the author criticicizes unfounded opinions about alleged atheism of N.Narimanov, wide spreaded in the soviet scientific literature.

The author considers that ideas of N.Narimanov, including ideas about necessity of preservation of national identity, self-consciousness of nation, and also role of religion in life of muslim peoples, approach to the believers, and freedom of conscience are deeply modern and can be useful in addressing essential problems in this field.

# AZƏRBAYCANDA XIX ƏSR MAARİFÇİ İRFAN HƏRƏKATI: HACI QURBAN ƏFƏNDİ MEŞLEŞİ NÜMUNƏSİNDƏ

**Əhməd NİYAZOV,**
*Azərbaycan İlahiyyat İnstitutunun*
*İslamşünaslıq kafedrasının müdiri*

***AÇAR SÖZLƏR:*** *Qafqaz, təsəvvüf, nəqşibəndilik, məzhəb, mənəviyyat, şeyx, mürid.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Кавказ, суфизм, Накшбандия, секта, духовность, шейх, ученик.*
***KEY WORDS:*** *Caucasus, Sufism, Naqshbandi, sect, spirituality, sheikh, disciple.*

**Giriş**

Faydalı olmaq insanın alın yazısıdır [1, s.7]. Potensial qüvvəyə malik insan təbiəti istehsal edən, quran, hadisələrin axarını lehinə çevirən xüsusiyyətə malikdir. Digər canlılardan fərqli olaraq, insan yaşamaq, qurmaq və yaratmaq üçün ağlın verdiyi imkanları bilmək məcburiyyətindədir. Bunun üçün də onun öyrənməsi və öyrətməsi zəruri təmələ əsaslanır.

Müsəlman cəmiyyətlərində elmə verilən dəyər tarix boyu öz yüksək keyfiyyətlərini qorumuş, İslam elm əldə etmə yollarını həmişə dəstəkləmişdir. İstər şəxsiyyət kimi Həzrət Peyğəmbər (s), istərsə də ona endirilən müqəddəs Qurani-Kərim elmin inkişafını dəstəkləyən referanslarla gəlmişdir. Kilsənin müəyyən dövrlərdə kitabxanaları yandıraraq[1] [2, s.76] bütpərəstliyə qarşı mübarizəni həm də elmi fəaliyyətə qarşı apardığı dəhşətverici tarixinin əksinə, İslam dini alimin mürəkkəbini şəhidin qanına bərabər tutmuş, hikməti müsəlmanın itmiş malı hesab etmişdir. İlk növbədə vurğulamalıyıq ki, İslamın müqəddəs kitabı Qurani-Kərimin elmə baxışı birmənalı olaraq müsbətdir. Quranın ilk ayəsi **“Oxu!”** əmri ilə gəlmiş [3, “Ələq”, 1], oxumaq, öyrənmək fəzilət hesab edilmişdir. Müqəddəs Kitabımız **“De: “Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!”** [3, “Zumər”, 9], - deyərək elm xadimlərinin üstünlüyünə diqqət çəkmişdir. Qurani-Kərim elmi və elm xadimlərini üstün tutarkən onun məqsədi ictimai təşəkkülü elmi zəmində qurmaq olmuşdur. Həmçinin İslamın elçisi Həzrət Məhəmməd də “*Elm tələb etmək hər müsəlmana vacibdir*” buyurmuşdur [4, 10/195]. Deməк olar ki, Həzrət Məhəmmədin (s) ilk işi elmi qaranlıq zindanlardan gün işığına çıxarmaq və bəşər övladının gələcəyini aydınlatmaq olmuşdur [5, s.104].

İslam dininin bu xüsusiyyəti sufi düşüncədə özünəməxsus tərzdə inkişaf etmişdir. Məlumdur ki, irfan hərəkatında sufilərin elm sahibi olması prinsipi – “Bəqa” mühüm praktik təlimdir [6, s.161]. Həmçinin mürşid olmağın müəyyən şərtləri mövcuddur. Bu şərtlərin hər biri Quran və

1 Tədqiqatlar göstərir ki, Xristianlığın tarixi keçmişində, xüsusilə də Kilisənin elmə və elm adamlarına qarşı apardığı siyasət amansız olmuşdur. Tarixdə bunun nümunələri çoxdur [2, s.76]. Qaynaqlara görə, xalq arasında Xristianlığın nüfuzu artdıqca elmə və elmi fəaliyyətlərə qarşı Kilisənin mövqeyi daha şiddətli olmuşdur. Məsələn, astronomiya elmi ilə məşğul olan Theonun qızı, riyaziyyatçı Hipatia baş rahib Kirilin göstərişi ilə İskəndəriyyədə xalq tərəfindən qətlə yetirilmişdir. Hətta bu sahədə geniş tədqiqatları olan A.Adıvar onu elmin ilk şəhidlərindən adlandırmışdır [2, s.77]. Bununla yanaşı, Kopernik, Cordano Bruno kimi elm adamlarının Kilsə tərəfindən yandırılaraq cəzalandırılması, həmçinin Qalileo Qaliley kimi elm adamlarına da divan tutulması hələ də tənqid edilən məsələlərdəndir.

sünnəyə müvafiq olmaqla yanaşı, onlardan biri də mürşidin hər şeydən əvvəl elmi və əsərləri ilə tanınan biri olmasıdır [6, s.227]. Qeyd edək ki, Azərbaycanda mövcud olmuş irfan məktəblərindən biri də nəqşibəndilik məktəbidir. Bu irfan ənənəsi İsmail Siracəddin Şirvani Kürdəmiri ilə 1817-ci ildən etibarən bölgədə yayılmışdır.[2] Şirvaninin düşüncə sisteminin ən əsas təsiri dövrün mədəni maarifçilik sahəsində olmuşdur. O, mədrəsələrdə tədrisi ərəb dili əsas olmaqla, fars və türk dillərində qurmuşdur. Qərb mütəfəkkirlərindən qafqazşünas, dilçi alim Pyotr Karloviç Uslar özünəməxsus maarifçilik prinsipləri olan bu ənənənin ictimai təsirləri haqqında yazırdı: "*Əgər xalqın savadlılıq dərəcəsi dini məktəb nisbətində götürülərsə, onda Qafqazın bu hissəsi Avropanın maariflənmiş xalqlarını çoxdan arxada qoymuş olar*" [7, s.24].

Azərbaycanda meydana gəldikdən sonra nəqşibəndiliyin mücəddidi mahmudilik qolu da Qafqazın əksər hissəsinə yayılaraq maarifçilik hərəkatı ilə ictimai təsir dairəsini genişləndirmişdir. Bu irfan hərəkatının elmə və maarifçiliyə verdiyi töhfələr bir çox Avropa tədqiqatçısının diqqətini çəkmişdir[3]. Hərəkatın başında duran İsmayıl Siracəddin Şirvaninin (ö. 1848) nəsihət və tövsiyələrini qeyd edən Şüeyb b. İdris Əfəndi (ö. 1909) onun məktubunu qələmə alarkən bir təriqət şeyxinin ən mühüm xüsusiyyəti haqqında məlumat verir: "Allaha and olsun ki, yol göstərəcək mürşidin həm alim, həm də bildiyi ilə əməl edən olmasını şərt qoşan Allah Rəsulu (s) və onun sadiq dostu övliyalar doğru sözlüdür. Allahdan başqa heç bir güc və qüvvət yoxdur!" [11, s.145].

Müqəddəs ayənin təfsiri onu göstərir ki, İslam ticarətin əleyhinə deyil, əksinə, insanları ticarətə təşviq edir. İmam Əlinin (ə) *"Ticarətə üz tutun! Çünki onda sizin üçün zənginlik vardır..."* buyurması İslamda ticarətin əhəmiyyətinə işarə edir [2, s.149]. Ancaq bu işlə məşğul olarkən qoyulan qaydalara, halal-harama diqqət yetirmək lazımdır. Alver edərkən nəyin bahasına olur-olsun pul qazanma hərisliyinə qapılmamaq, dürüst və etibarlı olmaq lazımdır. Yalnız bu halda maddi olaraq əldə etdiklərimiz bizə həm də mənəvi gəlir qazandırar. Dürüst və əmanətdar tacir şeytanın tələ və hiylələrinə aldanmır. Onun tərəzisi heç vaxt haram çəkmir, o, bir qram belə əskik verməmək üçün tərəzisində çox həssas olur. İnsanların sadəlövhlüyündən istifadə etmir, Allahdan qorxduğu üçün kimsəni aldatmır, malın yaxşısını göstərib pisini satmır. Yalan yerə and içmir, boşuna vəd vermir, müştərilərin xoş niyyətlərindən öz məqsədləri üçün faydalanmır. Belə satıcılar var-dövlətin çoxlu pulda deyil, bərəkətdə olduğuna inanır. Onlara "qazancım az olsun, amma halal olsun, Allah da bərəkətini verər, bərəkətli pul çox puldan daha xeyirlidir" anlayışı hakimdir. Belə düşünən tacirlərimiz çox olarsa, market və bazarlarımız əməl dəftərimizə xeyir işlərin yazıldığı məkanlara çevrilər.

Ticarət dedikdə ağıla ilk gələn tərəzidə doğru olmaqdır. Bu, o qədər önəmli məsələdir ki, Qurani-Kərimdə Şüeyb peyğəmbərin (ə) qövmünün məhz tərəzidə aldatdıqları üçün həlak edildiyi vurğulanmışdır. Uca Yaradan "Şüəra" surəsinin 181-183-cü ayələrində belə buyurmuşdur: **"Ölçüdə düz olun, (onu) əksildənlərdən olmayın! Düz tərəzi ilə çəkin! İnsanların haqqını azaltmayın!**

**(Camaatın malını əskiltməyin. Kimin haqqı nədirsə, onu da verin!) Yer üzündə fitnə-fəsad törətməyin”** [1].

**2. Ölçü və çəkidə aldatmağın günahı**

Tərəzidə aldadanlar ilk baxışdan çoxlu pul qazanmış kimi görünə bilərlər. Ancaq belə insanların malı artmaz, haram yolla əldə etdikləri qazancı rahat-rahat yeyə bilməzlər. Çox vaxt belə insanların başından müsibətlər əksik olmur. Təbii ki, bütün cəzaları da bu dünyada gözləmək düzgün deyil. Ya bu dünyada, yaxud da axirətdə Allah-Təala mütləq haqqı yerinə çatdıracaq. Bədəndə ruh nədirsə, ticarətdə dürüstlük odur. Ticarətdə doğru və dürüstlüyü qorumaq dinimizin zəruri məsələlərindən olduğu üçün Uca Yaradan bununla bağlı xüsusi surə nazil etmişdir. Həmin surənin adı – “əl-Mütəffifin” tərcümədə “ölçü və çəkidə aldadanlar” deməkdir. Surədə ölçü və çəkidə aldadanlara, mömin və əxlaqlı insanlara istehza edənlərə veriləcək cəzalardan bəhs edilir. Belə ki, sözügedən surənin ilk ayəsində Allah-Təala buyurur: **“Vay halına çəkidə və ölçüdə aldadanların!”** [1].

Surənin Mədinədə nazil olduğunu yazan bəzi təfsirşünaslar, o cümlədən Məhəmməd ibn Cərir ət-Təbəri (838-923), Carullah əz-Zəməxşəri (1074-1143) və Fəxrəddin ər-Razi (1149-1210) İbn Abbasdan belə nəql edirlər: “Peyğəmbər (s) Mədinəyə gəldikdə mədinəlilər tərəzidə aldadırdılar. O zaman bu ayələr nazil oldu və bundan sonra Mədinə tacirləri özlərini düzəltdilər” [3, s.58; 4, s.229; 5; 6; 7].

Surədə işlənmiş **“veyl”** sözü haqqında görkəmli təfsirşünas Cərir ət-Təbəri (838-923) yazır: “Ölçü və çəkidə aldadanlar qan və irinlərin axdığı Veyl dərəsinə atılacaqlar. Onlar insanlardan bir şey aldıqda dəqiq ölçü ilə ölçür və onlardan haqlarını tam olaraq alırlar. Ancaq insanlara vermək üçün bir şey ölçsələr və ya çəksələr, onların haqlarını əskik verirlər. Yoxsa onlar qiyamət günü yenidən diriləcəklərini düşünmürlərmi? Bu onların qorxuları üçün çox böyük bir gündür” [8, s.33].

“Veyl” sözü haqqında lüğətşünas alimlər yazırlar: “Veyl: Cəhənnəmdə qan və irin axınları, Cəhənnəm dərəsi və ya cəzanın şiddəti, pis, təəssüf, həlak olmaq, vay halınıza deməkdir. Qurani-Kərimdə də bu mənalarda işlədilib: **“Məgər Allahın köksünü (qəlbini) İslam üçün açmaqla Rəbbindən nur üzərində olan kəs (qəlbi möhürlənmiş kimsə kimi ola bilərmi)?! [Və ya: Məgər Allahın köksünü (qəlbini) İslam üçün açdığı kəs Rəbbindən bir nur üzərində deyilmi?!] Elə isə vay qəlbləri Allahın zikrinə (Qurana) qarşı sərt olanların halına! Onlar (haqq-yoldan) açıq-aydın azmışlar”** [1, “Zümər”, 22].

Qeyd etmək lazımdır ki, Qurani-Kərimdə **“veyl”** sözü çox böyük günah törətmiş şəxslər haqqında işlədilir. Məsələn, Allaha şərik qoşmaq ən böyük günah hesab edildiyindən Uca Yaradan müşriklər haqqında belə buyurur: **“(Ya Rəsulum!) De: “Mən də ancaq sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız bir olan Allahdır. Ona tərəf yönəlin və Ondan bağışlanmağınızı diləyin. Vay müşriklərin halına!”** [1, “Füssilət”, 6].

Bir gün Peyğəmbər (s) bazarda qida satan bir adama yaxınlaşaraq: “Alış-veriş necə gedir?”, - deyə soruşur. Sonra da əlini həmin adamın satdığı buğda çuvalının içinə salır. Çuvalın altındakı buğdalar nəm, üst tərəfdəkilər isə quru idi. Peyğəmbər (s) bunun səbəbini soruşur. Satıcı: “Yağış yağdı, bu səbədən belə oldu”, - cavabını verir. Bu cavabı eşidən Peyğəmbər (s) buyurur: “Müştərilərin görə bilməsi üçün nəm olan hissəni üzə çıxarsaydın, daha yaxşı olardı. Aldadan məndən deyil”. Bu xəbərdarlıq Allahı və Rəsulunu (s) sevən, axirətdə də mərhəmət görmək və şəfaətə nail olmaq

istəyən hər bir mömin üçün kifayət qədər təsirlidir. Müsəlman yalnız səccadə üzərində deyil, bazarda da, insanlarla məişət ünsiyyətində də İslamın gözəlliklərini nümayiş etdirməlidir, aldatmamalı və aldanmamalıdır.

Müştəri ilə xoş davranmaq da Peyğəmbərin (s) hədislərinin birində göstərilmişdir. Həmin hədisdə deyilir: *"Kim müştərinin geri qətirdiyi malı qəbul edərsə, Allah da qiyamət günü onun günahlarını bağışlayar".* Onun bu hədisi İmam Əlinin (ə) rəftarında da özünü göstərmişdir. Belə ki, o həzrət bazarda gedərkən ət alan bir müştərinin qəssaba "bir az artıq ver" dediyini eşitmiş və "onun payını artır, çünki bu bərəkətli olmağa səbəb olar", - deyə buyurmuşdur.

Ticarətdə dürüstlük bir tərəfdən malı yalandan tərifləyərək alıcıya sırımamaqdırsa, digər tərəfdən də malın qüsurlarını gizlətməməkdir. Peyğəmbər (s) belə buyurmuşdur: *"Tacirlər günahkardırlar. Deyildi: "Ey Allahın rəsulu!* Məgər Allah alış-verişi halal etməmişdirmi?*" Peyğəmbər (s) buyurdu: "Bəli, halal etmişdir. Amma yalan danışan və yalan and içənlər günahkardırlar"* [9].

Digər hədisində isə belə demişdir: ***"Dürüst və əmanətdar tacir peyğəmbərlər, siddiqlər və şəhidlərlə birlikdədir"*** [6].

Ticarət qaydalarının başında şəriəti bilmək dayanır. Bunu izah edən İmam Əli (ə) hədislərinin birində belə bəyan edir: *"Ey ticarət əhli, əvvəl fiqh, sonra ticarət (bunu üç dəfə təkrar edir). And olsun Allaha, sələm bu ümmətin içində qarışqanın öz ağzında apardığı ruzidən də gizlidir. Andlarınıza əməl edin, tacirlər günahkardır, günahkar isə cəhənnəmlikdir, yalnız haqqı alıb, haqqı verənlərdən başqa"* [2].

Peyğəmbərimiz (s) tacirin aşağıdakı xüsusiyyətləri yerinə yetirməsini belə tövsiyə edir: *"Hər kəs alış-verişlə məşğul olursa, gərək beş xüsusiyyətə əməl etsin, əks halda, gərək ticarətdən əl çəkə. Bunlar: sələm, and içmək, eybi gizlətmək, satanda malı tərifləmək, alanda isə malı pisləməkdir".*

Ticarətə təşviq Əhli-beyt imamlarının (ə) hədislərində də özünü göstərməkdədir. Belə ki, İmam Cəfər Sadiq (ə) belə buyurur: *"Ticarət ağılı artırar. Ticarəti tərk etmək ağılın aradan getməsinə səbəb olar"* [2].

Füzeyl ibn Yəsar deyir: *"Bir gün İmam Sadiqin (ə) yanına gəlib dedim: "Mən ticarəti tərk etmişəm".* İmam (ə) buyurdu: *"Bunu etmə, dükanının qapısını aç, ətəyini genişləndir və Allahdan ruzi dilə!" [*10, s.170]. Həmçinin İmam Sadiq (ə) halal yolla var-dövlət toplamağa da təşviq edərək buyurmuşdur: *"Halaldan var-dövlət toplamayan adamda heç bir xeyir yoxdur. İnsan onunla üzünü ağ edir, borclarını ödəyir və qohum-əqrəbasını ziyarət edir"* [10, s.102].

Deməli, dinimiz ticarəti, alış-verişi heç vaxt qadağan etməmiş, əksinə, onu halal bilmiş və bunun üçün də müəyyən qayda-qanunlar qoymuşdur. Əgər qeyd edilmiş ayə və hədislərə diqqət yetirsək, məlum olacaqdır ki, ticarətlə məşğul olan şəxs gərək yalandan and içmək, eybi gizlətmək, satanda malı tərifləmək, alanda isə malı pisləmək kimi mənfi xüsusiyyətləri özündən uzaqlaşdırsın.

### 3. Alış-veriş ədəbi

Ticarət deyildikdə, ağıla yalnız satıcılar gəlməməlidir. Hər birimiz satıcı olmasaq da, alıcı kimi alış-veriş prosesində iştirak edirik. Alıcı kimi də qeyd olunan qaydalara uyğun olaraq alış-veriş etsək, savab qazanarıq. Bəzən nisyə mal alırıq, bəzən də nəyisə alanda xırda pulumuz çatmır, "sonra verərəm" deyərək dükandan ayrılırıq. Ancaq söz verdiyimiz vaxt başa çatsa da, borcumuzu ödəmirik. Əslində, alış-veriş qarşılıqlı dürüstlükdür. Bəzən də ola bilər ki, satıcının başı qarışar və

sizə qalıq olaraq artıq pul qaytarar. Alıcı kimi bunu aşkar etsək, mütləq geri qaytarmalıyıq. Bu, həm də satıcının alıcılara olan etimadını artırar.

Dinimizdəki ticarət mədəniyyətinə diqqət etdikdə məlum olur ki, müsəlmanın hər davranışı dürüst olmalıdır, heç kimin zərərə uğramasını istəməməlidir. Etdiyimiz iş kiçik bir alış-veriş kimi görünə bilər, ancaq unutmayaq ki, Yaradan bizim hər davranışımıza dəyər verir.

İslam iqtisadi sistemi ticarətin əsasını doğruluq və dürüstlüklə hər bir fərdə və ümumilikdə cəmiyyətə xidmət anlayışı üzərində qurmuşdur. Digər tərəfdən, İslamda vacib əməllərdən hesab olunan həcc və zəkat da zəngin olan möminin üzərinə düşür ki, bunlar da halal və qanuni yolla zəngin olmağa təşviq kimi göstərilə bilər.

Amma təəssüf hissi ilə qeyd edirik ki, müasir dövrümüzdə bəzi insanların ticarətdə qurduqları hiylə və fırıldaqların həddi-hüdudu yoxdur. O cümlədən sonsuz sərvət toplamaq həvəsi ilə infaq, zəkat və müxtəlif xeyir işlər görməkdən uzaqlaşmaq, kasıb, qərib, kimsəsiz, dul, yetim və ehtiyacı olanlara yardım etməmək də onların hüquqlarını tapdalamaq anlamındadır və böyük günahlardandır.

Ölçü və çəkidə aldatmağın böyük günahlardan olması haqda Məhəmməd ibn Əhməd əz-Zəhəbi (1274-1348) yazır: “Bu əməl oğurluğun, xəyanətin və haqsız mal yeməyin bir növüdür” [11, s.155]. Ona görə də alver edən şəxs, gərək alverin, gündəlik qarşıya çıxan halların hökmlərini öyrənsin. İmam Sadiqdən (ə) rəvayət olunur: “Alver etmək istəyən şəxs gərək onun hökmlərini öyrənsin. Əgər onun hökmlərini öyrənməzdən əvvəl alver etsə, batil və şübhəli müamilələrin vasitəsilə həlak olar” [12, s.270].

Həmçinin insan bir məsələni bilmədiyi üçün etdiyi alverin düzgün, yaxud batil olduğunu bilməsə, nə aldığı, nə də təhvil verdiyi maldan istifadə edə bilər. Üstəlik, məsələni öyrənməli, ya da hətta razılaşma yolu ilə olsa belə, ehtiyat etməlidir. Habelə malı olmayan və vacib xərcləri olan şəxs (ailə və uşağının xərcləri kimi) işləyib qazanc əldə etməlidir. Ailənin yaşayışını daha da firavan etmək, fəqirlərə əl tutmaq və bu kimi savab işlər üçün qazanc əldə etmək müstəhəbdir [12, s.270].

## Nəticə

Qeyd etdiyimiz ayə və hədislər ticarət mədəniyyətinin sağlam şəkildə həyata keçirilməsini, alıcı və satıcının hüquqlarının bərabər olduğunu bildirməklə yanaşı, həm də bu anlayışda olmayanların dünya və axirət cəzasına layiq olduqlarını bildirir. Həmçinin ayə və hədislər ticarət dövriyyəsini əlində saxlayanların ictimaiyyətə istədikləri kimi təzyiq etdiklərini və bununla da, böyük sərvətə sahib olmaq istədiklərini izah edir. Ona görə də Uca Allah bu sosial və iqtisadi sahənin mühüm tərkib hissəsi olan ticarətin, alış-verişin həyata keçirilməsində halallığın vacibliyini önə çəkir, digər tərəfdən ticarət zamanı əxlaqi göstərişlərə riayət edilməsinin zəruri olduğunu bəyan edir.

“Əl-Mütəffifin” surəsi ilə yanaşı, digər ayələr və hədisi-şəriflərin təhlili həm də onu göstərir ki, inanclı və əxlaqlı insanların mövqeyinə, xalqın kasıb və yoxsul təbəqəsinə qarşı xor, üstdən aşağı baxan, yalnız öz mövqeyinə güvənən, əllərindəki mal-mülkü Allah-Təala yolunda xərcləməyi özlərinə ar bilən mal-dövlət sahibi olan insanlar şiddətli əzaba düçar olacaqlar.

# ƏDƏBİYYAT


1. Bünyadov Ziya və Məmmədəliyev Vasim, (1991). Qurani-Kərim. Bakı: Azərnəşr.
2. əl-Küleyni, Məhəmməd bin Yaqub. əl-Üsul minəl-kafi. 8 cilddə. V c. Təhqiq: Əli Əkbər əl-Ğiffari. Tehran Heydəri.
3. ət-Təbəri, Məhəmməd bin Cərir. Camiül-bəyan an təvili ayil-Quran. 30 cilddə. XXX c. Misir: Mətbəətül-meyməniyə.
4. əz-Zəməxşəri, Carullah. Təfsirül-kəşşaf. Beyrut: Darül-mərifə.
5. ər-Razi, Fəxruddin. Təfsirül-Kəbir (Məfatihül-ğeyb). 32 cilddə. XXXI c. Darül-fikir.
6. ət-Tirmizi (1996), Əbu İsa. Sünənüt-Tirmizi. 6 cilddə. Mühəqqiq: Başir Əvvad Məruf. Darül-ğərbil-islam.
7. el-Kazvini (tarixsiz), İbn Mace. Süneni-İbn Mace tercemesi ve şerhi. 10 cilddə. Mütercim: Haydar Hatipoğlu. İstanbul: Kahraman neşriyat.
8. et-Taberi (tarixsiz), Ebu Cafer Muhammed bin Cerir. Taberi tefsiri. 9 cilddə. IX c. Terc: Aytekin Kerim ve Karakaya Hasan. İstanbul: Hisar Yayınevi.
9. əş-Şeybani, Əhməd bin Hənbəl. əl-Müsnəd. Mühəqqiq: Məhəmməd bin Əbdülqadir Əta. Beyrut: Darül-kutubil-ilmiyyə.
10. əl-Qummi, İbn Babaveyh. Mən la yəhzuruhül-fəqih. 4 cilddə. III c. Qum.
11. əz-Zəhəbi, Məhəmməd bin Əhməd. Böyük günahlar. Təxric və təhqiq edənlər: əl-Arnavut Şeyx Əbdülqadir, Abdullah Əmmar Əhməd. Azərbaycan dilinə tərcümə edən: Aydın Salehli.
12. Sistani, Seyid Əli. İzahlı şəriət məsələləri. Tərc: Məhəmməd Əli Mosuli. Bakı: I çap.
13. ən-Nəcəfi, əş-Şeyx Hadi. Movsuətu əhadisi-Əhlil-beyt (ə). 12 cilddə. VIII c. Beyrut: Daru ihyait-türasil-ərəbi, I çap.
14. https://www.almaany.com

Ибрагим Кулиев

# ТОРГОВАЯ КУЛЬТУРА ПО ХАДИСАМ

## АННОТАЦИЯ

Наша священная религия, как и во всех сферах человеческого общества, также принесла прекрасные и ценные правила в области торговли и сочла необходимым отразить их в жизни общества. Верные сподвижники Пророка (с.г.в.) и его Ахль аль-Байта (а) всегда придерживались этих законов, принесенных исламом в их повседневную жизнь, независимо от того, были они продавцами или покупателями. Чтобы все это знать, достаточно обратиться к достоверным источникам хадисов. Таким образом, когда Пророк (с.г.в.) торговал со своей будущей женой Хадиджой (р.а.), он продемонстрировал свою деловую культуру самым высоким способом и благодаря этой честности завоевал её симпатию и любовь. В одном из авторитетных источников рассказывается, что еврейский торговец наблюдал за Пророком (с.г.в.) издалека, когда он продавал некоторые из своих товаров на рынке в Дамаске. Купец-еврей видел, что он никогда не беспокоил других во время покупок, не клялся и никогда не давал своему покупателю возможности клясться.

Торговец-еврей, наблюдавший за Пророком (с.г.в.) издалека, подошел к нему, чтобы лучше узнать его, посмотреть на товары, которые он продавал, и узнать их цены. Он начал спрашивать у Пророка (с.г.в.) цену на товары, которые он продавал, и вести переговоры. После сделки еврейский купец узнал, что Пророк (с.г.в.) был из Мекки. Он попросил Пророка (с.г.в.) присягнуть Лату и Уззе, самым известным идолам Мекки. Услышав это, улыбающееся лицо Пророка (с.г.в.) внезапно изменилось. Он поднял брови, повысил голос и сказал: «Вы хотите, чтобы я поклялся неодушевленным предметам, которые я не верю и не ценю? Я никогда не буду клясться тем идолам, которых я не люблю», - сказал он.

Ibrahim Guliyev

# TRADE CULTURE ACCORDING TO HADITH

## ABSTRACT

Our sacred religion, as in all spheres of human society, also brought in wonderful and valuable rules in the field of commerce and considered it necessary to reflect them in the life of society. The faithful companions of the Prophet (s) and his Ahl al-Bayta (a) have always adhered to these laws brought by Islam into their daily lives, regardless of whether they were sellers or buyers. For evidence, it is enough to refer to the reliable sources of hadiths. Thus, when the Prophet (s) traded with his future wife Khadija (r), he demonstrated his business culture in the highest possible way and through this honesty won her sympathy and love. One of the authoritative sources tells that a Jewish merchant watched the Prophet (s) from afar as he sold some of his wares in a market in Damascus. The Jewish merchant saw that he never bothered others while shopping, did not swear, and never gave his buyer the opportunity to swear.

A Jewish merchant who watched the Prophet (s) from afar approached him to get to know him better, to look at the goods he was selling, and to find out their prices. He began asking the Prophet (s) the price of the goods he was selling and negotiating. After the deal, the Jewish merchant learned that the Prophet (s) was from Mecca. He asked the Prophet (s) to take an oath by Lat and Uzza, the most famous idols of Mecca. Upon hearing this, the smiling face of the Prophet (s) suddenly changed. He raised his eyebrows, raised his voice, and said, "Do you want me to swear to inanimate objects that I don't believe or value? I will never swear to those idols that I do not love" - he said.

# İSLAM HÜQUQUNDA EKSHUMASİYANIN YERİ

**Samid QULİYEV**,
*AMEA-nın Əlyazmalar İnstitutunun doktorantı,*
*axundsamid@gmail.com*

***AÇAR SÖZLƏR:****İslam, müsəlman, hüquq, cəsəd, ekshumasiya.*
***КЛЮЧЕВЫЕ СЛОВА:****Ислам, мусульманин, закон, труп, эксгумация.*
***KEY WORDS:*** *Islam, muslim, law, corpse, exhumation.*

Əsrlərdir ki, mədəniyyətimizin bir parçası olan İslam təfəkkürü ilə yaşayan xalqımızın uzun illər dindən uzaq düşməsi, müstəqillik əldə etdikdən sonra isə milli-mənəvi dəyərlərimizə qayıdışı dini-elmi mövzuları aktuallaşdırmışdır. Bu cür aktual mövzulardan biri də insan öldükdən sonra onun digərləri üzərində olan haqqı–nəşinin toxunulmazlığıdır. İslam hüququnda belə bir cümlə keçir: "Müsəlmanların məzarının açılması (uşaq, ruhi xəstə olsa belə) istisna olunmuş hallardan başqa qadağandır" [1, s.369].

Məzarın açılması hüquq terminologiyasında "ekshumasiya" adlanır. "Ekshumasiya" latın dilindən hərfi tərcümədə "torpaqdan çıxarılma" (exhumatio: ex – çıxarılma, humus – torpaq) anlamına gəlir [2]. Ümumi mənada isə meyitin dəfn olunan yerdən çıxarılmasına "ekshumasiya" deyilir.

Ekshumasiya işinin şəri-hüquqi və Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsi (CPM) ilə tənzimlənən tərəfləri vardır. Bu məqalədə biz həm İslam dinində, həm də qanunvericilikdə nəzərdə tutulan qaydalar əsasında "ekshumasiya" işini araşdırmağa çalışacağıq.

**İslamda insan haqları**

İslam qanunlar toplusuna nəzər yetirdikdə insan haqlarının qorunması aydın şəkildə nəzərə çarpır. Bu dinin qanunvericilik əsasını təşkil edən Qurani-Kərimdə 247 yerdə işlənən "haqq" (hüquq ərəb dilində "haqq" sözünün cəmidir) kəlməsi insanları dinindən, irqindən, cinsiyyətindən, milliyyətindən, sosial statusundan asılı olmayaraq, bərabərliyə və "batilə" qarşı çıxmağa çağırmışdır.

Qurani-Kərimə görə, bütün insanlar bərabərdir və qanun qarşısında eyni cavabdehliyi daşımaqdadırlar: **"Hamının (möminlərin və kafirlərin) etdiyi əməllərə görə (Cənnətdə və Cəhənnəmdə) dərəcələri vardır ki, (qiyamət günü) Allah onlara (dünyadakı) əməllərinin əvəzini (layiqincə) versin. Onlara əsla haqsızlıq edilməz"** [3, "Əhqaf", 19].

İslam hüququ bu dini qəbul edən və iman gətirən bütün müsəlmanlar üçün qanunvericilik əsasıdır. İslam hüququna görə, insan öldükdən sonra müsəlmanların üzərinə bir sıra məsuliyyət düşür. Bunlar: meyitə sidir (cedrus) ağacından hazırlanmış toz), kafur (unnamomums) ağacının yarpağından hazırlanmış toz) və adi su ilə qüsl vermək, meyitin yeddi əzasını (alın, iki əlin içi, dizlər, ayaq baş barmaqlarının ucları) hənutlamaq (qoxusunu itirməmiş kafur pudrası sürtmək), kəfənə bükmək, cənazə namazını qılmaq və dəfn etməkdən ibarətdir [1, s.321; 4, s.491-492].

Hər bir bəşər övladı dəfn edildikdən sonra şəriətə əsasən, sağlığında ona şamil edilən hüquqlar onun nəşinə də şamil edilir. Hər bir şəriət hökmündə ilahi iradə və istək vardır [5, s.3]. Deməli,

İslam hüququnda ölüyə hörmət etmək diriyə hörmət kimidir. Ciddi zərurət yaranmadığı halda bütün İslam alimləri insanın qəbrinin açılmasının qadağan olduğu haqqında hökm verərək bu işi insanın "muslə" (bədən üzvünü kəsib götürərək eybəcər hala salma) olmasına bərabər tutmuşlar. "Muslə" əməlinin ağır olması haqqında Həzrət Əlinin (ə) vəsiyyətində oxuyuruq: *"Ey Əbdülmüttəlib oğulları, sizi "Əmirəl-möminin öldürüldü, Əmirəl-möminin öldürüldü"deyib, bu bəhanə ilə müsəlmanların qanlarına batmış halda görmək istəmirəm. (Mənim öldürülməyimi müharibə və qan axıdılması üçün əsas etməyin.) Bilin ki, mənim əvəzimə ancaq qatilim öldürülməlidir. Baxın, əgər mən onun bu zərbəsi nəticəsində ölsəm, onun əvəzində ona bir zərbə vurun. Onu muslə etməyin, çünki mən Allah Peyğəmbərinin (səllallahu əleyhi və alih) belə buyurduğunu eşitmişəm ki: "Ölmüş heyvanları belə muslə etməkdən uzaq olub çəkinin"* [6].

"Təhzib əl-Əhkam" kitabında isə İmam Cəfər Sadiqdən (ə) bu haqda bir çox hədis nəql olunmuşdur. Bunlardan biri də *"Ölmüş şəxsin başını kəsmək, diri şəxsin başını kəsməkdən də* böyük *günahdır"* hədisidir [7, s.421].

Bu qəbildən olan hədislərə diqqət etdikdə məlum olur ki, müqəddəs dinimiz həyatda olan şəxs ilə dünyasını dəyişmiş şəxsin hüquqlarının bərabər olduğunu, bəzi hallarda isə ölmüş şəxsin ehtiramının onun diriliyindəki ehtiramından daha üstün olduğunu bildirir.

İslam hüququnda ekshumasiya

Ekshumasiya məsələsində İslam alimlərinin ittifaqı vardır. Məzhəb alimləri bir neçə hal istisna olmaqla, qəbrin açılmasını qadağan etmişlər.

Hənəfilərin nəzərinə görə, zərurət olmadan qəbri açmaq icazəli deyildir. Hənəfi alimi imam Məhəmməd Amin ibn Abidin bu haqda deyir: *"Əgər meyit* qüslsüz, *namazsız və qibləsiz dəfn olunsa,onun üstünə torpaq tökülübsə,* qəbrin *açılması haramdır"* [8, s.246].

İmam Nəvəvi isə bu haqda belə yazır: *"Şəri səbəb olmadan qəbri açmaq, səhabələrdən gələn hədislərə görə, haramdır. Qəbri* şəri *səbəb olmadan açmaq, səhabələrdən rəvayət olunan səhih hədislərə görə, haram sayılır,istisna hallarda isə icazəlidir"* [9, s.144].

İmam Şafei nəql edir ki, *"Cəsəd qəbirdə üzü qibləyə qoyulmayıbsa və bədən çürüyüb aradan getməyibsə, meyitin qəbrini açmaq olar"*. Qəbri açıb cəsədi üzü qibləyə qoymaq sünnətdir və bu iş ilk dəfə Fura ibn Mərur üçün icra edilmiş, qəbr açılaraq cəsəd üzü qibləyə qoyulmuşdur [10, s.62].

Maliki məzhəb alimləri də ruhla cisim arasında mənəvi bir əlaqə olduğunuqeyd edərək, qəbrin dəlilsiz açılmasını meyitə ehtiramsızlıq kimi göstərmişlər [11; 12].

Hənbəli məzhəbinə gəlincə, meyitin cəsədi çürüdükdən sonra qəbrin açılması icazəlidir. İstisna hallar isə zərurətdə hər hansısa bir malın haqqı və ya meyitin öz hüququndan ötrü (meyit dəfn olunarkən hər hansısa bir əşya qəbrə düşərsə və ya Məhkəmə-tibbi ekspertizasını həyata keçirmək üçün) olur [13, s.366; 14, s.366].

Cəfəri məzhəbinin böyük alimlərindən Həsən ibn Yusif ibn Əli ibn Mütəhhər Hilli (Əllamə Hilli) bu haqda yazır: *"Ölünün qəbrini açmaq və onun cəsədini intiqal eləmək (bir yerdən digər yerə köçürtmək)caiz deyil"* [15, s.14].

Şeyx Tusi, Fəzl ibn Həsən Təbərsi və digər Cəfəri məzhəbinin alimləri də eyni fikirlərlə çıxış etmişlər [16, s.93].

Qeyd olunan hədislərdən və alimlərin rəylərindən bizə məlum olur ki, sağlığında insana verilən dəyər öldükdən sonra da hər bir bəşər övladına şamil edilərək, cəsədi - qəbri toxunmaz hala

gətirir, yalnız istisna hallarda ekshumasiyaya icazə verilir. İstisna olan hallarda ekshumasiyanın əleyhinə getmək isə məzəmmət olunmuşdur. İcazəli hallar aşağıdakılardır:

1. Meyitin dəfn olunduğu yer qəsbi (başqasına məxsus) olduqda, yerin sahibiisə bu işə icazə vermədikdə ekshumasiya edilir, cəsəd digər bir yerə (icazəli) köçürülür.

2. Kəfən, yaxud meyitlə birgə dəfn olunan başqa bir şey qəsbi olsa, sahibi də onun qəbirdə qalmasına razı olmadıqda ekshumasiya edilir, kəfən (və ya dəfn olunan başqa bir şey) meyitə məxsus vəsaitlə alınaraq yenidən icra olunur.

3. Ekshumasiya hallarından biri də şəri təyinatlı işlərin düzgün olmaması zamanı baş verir. Bu halda meyit qüslsüz, kəfənsiz, yaxud da qüslünün batil olduğunu sonradan bildikdə ekshumasiya şəri vəzifələrin icrası üçün görülür.

Dəfn etmə - bədənin (onun qalıqlarının) torpağa verilməsi (qəbirdə basdırılma), suya verilməsi (suda basdırılma) yolu ilə həyata keçirilə bilər.

Dəfn etmə yerləri mənsubiyyətinə görə dövlət, bələdiyyə, adətə görə ictimai, etiqad üzrə, hərbi, tarixi-mədəni əhəmiyyətli, tarixi-memorial ola bilər. İctimai qəbiristanda ölənin öz vəsiyyəti əsasında, dəfn işlərini təşkil edən xüsusi xidməti qurumun qərarı ilə (əgər meyit qohumları tərəfindən tələb olunmursa) meyitlər basdırılır. İctimai qəbiristan yerli icra hakimiyyəti və yerli özünü idarəetmə orqanlarının nəzdində ola bilər.

Dəfn və basdırma barəsində qanunda sanitar-ekoloji tədbirlər nəzərdə tutulmuşdur. Qəbiristanda yer seçdikdə torpağın xüsusiyyəti nəzərə alınır. Torpaq 2 metr dərinlikdən az olmayaraq quru, yüngül və hava keçirən olmalıdır. Qrunt suları səthdən 2 metrdən yuxarı olduqda, həmçinin bataqlıq və torpaq sürüşən sahələrdə qəbiristan salmaq olmaz. Zəruri hidrogeoloji şərait olmadıqda salınacaq məzarlıq üçün yerin mühəndis işləri görülür.

Bütün hallarda dəfn mərasimlərinin təşkilində, meyitə bükülən kəfən və dəfn üçün hazırlanan torpağın başqasına məxsus olması kimi İslam qaydaları gözlənilir.

4. Meyitə ehtiramdan da əhəmiyyətli bir haqqı sübut etmək məqsədilə meyitin bədənini görməyə ehtiyac duyulduqda ekshumasiya aparılır və bu proses Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir. Dinlə hüquqi proseduru bir-birinə qarışdırmaq olmaz və bu işlərin icrası tam ayrı mənaları özündə əks etdirir. Hətta işi icra edən (müstəntiq) öz qərarında prosesdə din xadiminin də iştirak etməsinin zəruriliyi haqqında heç nə yaza bilməz. Cəsədin müayinə olunması hüquq-mühafizə orqanları tərəfindən aparılır. Din xadimləri isə dini ayinləri icra edirlər [17; 18].

Cinayət-Prosessual Məcəlləsində (CPM) (maddə 237) ekshumasiyaya müstəqil prosessual hərəkət kimi baxılır. İstintaq hərəkəti kimi ekshumasiyanın 3 fərqləndirici cəhətlərinin olduğu göstərilir.

*I. CPM-də yalnız meyitlərin ekshumasiyasından söhbət gedir. Digər əşyaların torpaqdan çıxarılması isə başqa prosessual hərəkətlərin dairəsinə aid hesab olunur.*

*II. CPM əvvəllər basdırılmış meyitlərin ekshumasiyası hallarını tənzimləyir. Burada meyitin qəbul olunmuş qaydalara müvafiq basdırılıb-basdırılmamasından asılı olmayaraq, cinayət izini açmaq üçün onun basdırıldığı yerdən çıxarılması nəzərdə tutulur. Bu zaman basdırılma yeri yalnız qəbir deyil, digər yerlər – mavzoley tipli məzarlar, divarlar, boşluqlar, sərdabələr, yandırılmış meyitlərin külü olan yerlər, su hövzələri və digər yerlər ola bilər.*

*III. CPM-də qaldırılmış və istintaq olunan cinayət işinin aparılması çərçivəsində istintaq hərəkətlərindən söhbət gedir.*

Meyitlərin ekshumasiya olunmasının əsasları və hadisələrin təsnifatı aşağıdakı kimi xarakterizə olunur:

1.Meyitin rəsmi qaydada icazəli ekshumasiyası;

Məhkəmə-tibbi məqsədlərlə;

Qəbiristanlığın bir yerdən digər yerə köçürülməsi;

Meyitin bir qəbiristandan başqa bir qəbiristana köçürülməsi;

Basdırılanın şəxsiyyətinin müəyyən edilməsi məqsədilə (şəxsiyyətin cinayət istintaqı axtarışı ilə bağlı olmayan hallarda);

Elmi-tarixi məqsədlərlə;

2. Meyitlərin təsadüfi ekshumasiyası;

Torpaq işləri görülən və köhnə binaların sökülməsi zamanı təsadüfən basdırılmış meyitlərin aşkar olunması;

3. Meyitlərin cinayət xarakterli ekshumasiyası;

Soyğunçuluq məqsədilə;

Cinsi həvəsi təmin etmək məqsədilə (nekrofiliya);

Təhqir etmək məqsədilə [19; 20, s.104].

Cəsəd torpaqdan çıxarıldıqdan sonra iş icraçısının (müstəntiq və ya məhkəmə) qərarına uyğun olaraq cəsədin tam müayinəsi, yaxud da hansısa hissələrin şəkillərinin çəkilməsi, müəyyən nümunələrin götürülməsi (saç, sümük) ola bilər.

4. Meyiti ona hörmətsizlik olan yerdə (əqidəsinə uyğun olmayan qəbiristanda) dəfn etdikdə ekshumasiya işini icra etmək olar.

Etiqad üzrə olan qəbiristanda eyni dinə etiqad edən şəxslər dəfn edilir. Onlar yerli idarə orqanları nəzdində ola bilər və buna əsasən, müvafiq dini birliklər onların fəaliyyətini tənzimləyirlər. Hər bir insanın şərəf və ləyaqəti qanunlarda qorunduğu kimi, İslam hökmlərində də öz əksini tapmışdır. Digər dinlərdə olduğu kimi, müsəlmanı da yalnız müsəlmanlara məxsus qəbirstanda dəfn etmək lazımdır.

5. Dəfn olunmuş qadının bətnindən diri uşağı çıxarmaq üçün də qəbri açmaq icazəlidir [17].

İslamın yeni yayıldığı vaxtlarda dünyanın "qara üzü" daha çox idi. İnsanlar cəhalət içində çabalamaqla yanaşı, hüquqları tapdalanır, öz qız övladlarını diri-diri torpağa dəfn edirdilər. Bu məsələ İslamın əsas qanunvericilik kitabı olan Qurani-Kərimin "İsra" surəsinin 31-ci ayəsində də öz əksini tapmış və Uca Yaradan bununla bağlı "Yoxsulluqdan qorxub (Cahiliyyət dövründə olduğu kimi)övladlarınızı(xüsusilə, qız uşaqlarını)öldürməyin. Biz onların da, sizin də ruzinizi veririk. Onları öldürmək, həqiqətən, böyük günahdır!" buyurmuşdur [3].

Bu gün də müasir dünyada insan qətliamının başqa forması icra olunmaqdadır. Bir çox ailə doğulacaq qız uşaqlarını qəbul etməyərək gələcək övladlarını "diri-diri öldürür". Statistika göstərir ki, boşanmanın əsas səbəblərindən biri də ailədə qız övladının dünyaya gəlməsidir.

6. Yırtıcı heyvanın qəbri qazaraq cəsədi parçalayacağından, sel aparacağından, yaxud düşmənin onu çıxaracağından qorxu olduqda cəsəd ekshumasiya edilərək digər yerə köçürülür.

7. Meyit dəfn olunduqdan sonra aşkarlanan bədən üzvlərindən ötrü də ekshumasiya edilir.

Bu zaman ekshumasiya işi natamam icra olunur. Yəni, aşkarlanan bədən əzası qəbrə elə tərzdə qoyulmalıdır ki, meyitin bədəni görünməsin.

Nəticə etibarilə qeyd etməliyik ki, ekshumasiya İslam qanunlarından olduğu üçün bu məsələ daha dərindən araşdırılaraq cəmiyyətdə maarifləndirmə işləri aparılmalıdır. Çünki bu gün ən böyük problemlərdən biri cəmiyyətin bu işin əleyhinə getməsidir ki, səbəb kimi də şəriətə zidd əməl olduğunu göstərirlər. Yuxarıda göstərilənlərdən bəlli olur ki, İslama görə, qəbri açmaq müəyyən şərtlər daxilində icazəlidir. Bu hallara qarşı çıxmaq isə İslam şəriətinə qarşı çıxmaq deməkdir.

# ƏDƏBİYYAT


**1.** Tozihül-məsaile mərace. Qum: 1377 h.ş.C. 1.

**2.** https://www.azleks.az/az/online-dictionary/ekshumasiya

**3.** https://quran.az/

**4.** Dəlilləriylə İslam Elmihalı.Bakı: 2010.

**5.** Mehmet Akif Aydın, Cəlal Erbay, Fəxrəddin Atar, Rahmi Yaran, Saffet Köşe, Bilal Aybakan, Abdullah Kahraman, Mübariz Camalov. İslam hüququ. Bakı: 2013, s. 3.

**6.** Nəhcül-bəlağə, 47-ci məktub.

**7.** Şeyx Tusi. Təhzib əl-Əhkam. C. 1.

**8.** İbn Abidin. Radd al-muxtar ələ dur əl-Muxtar. C.1.

**9.** İmam Nəvəvi. Ravdatut-talibin. C. 2.

**10.** Əbul Həsən Əli.Əl-Haviyəl kəbir. C. 3.

**11.** Malik ibn Ənəs. Mudəvvənətul-kubra / “Cənazə” bəhsi.

**12.** Şihəbud-Din ən-Nəfravi. Əl-Məcmu Şərh əl-Muhəzzəb / “Cənazə” babı.

**13.** İbn Muflih. Əl-Furu fil fiqhil hənbəli / “Cənazə” bəhsi.

**14.** Şəmsuddin İbn Qudəmə. Əş-Şərhül Kəbir (Məal Muğni). C. 1.

**15.** Əllamə Hilli.Əl-Muxtəsərun nafii fi fiqhul imamiyyə. C. 1.

**16.** Şeyx Tusi. Əl-Məbsut fi fiqhil imamiyyə. C. 1.

**17.** http://lankarani.com/azr/res/res1/031.php.

**18.** https://www.sistani.org/azari/book/24199/

**19.** http://www.e-qanun.az/code/14

**20.** Şakir Musayev. Cinayət mühakimə icraatının məhkəmə-tibbi təminatı. Bakı: 2008.

**21.** Şəriət hökmlərinin izahı. Ayətullah əl-üzma Vəhid Xorasani.

Самид Гулиев

## МЕСТО ЭКСГУМАЦИИ В ИСЛАМСКОМ ЗАКОНЕ


### РЕЗЮМЕ

Эксгумация захороненных людей не приветствуется однозначно в обществе. Иногда это рассматривается как действие, противоречащее религии и религиозным ценностям. Это в некотором смысле мешает работе правоохранительных органов. Когда возникает необходимость в эксгумации, наряду с защитой прав трупа, раскрываются остальные преступления. Фактически эксгумация трупа является одним из допустимых случаев как в исламском праве, так и в действующем законодательстве Азербайджанской Республики. В связи с этим каждый гражданин должен знать, что вскрытие могилы осуществляется как законно, так и религиозно.


Samid Guliyev

## PLACE OF EXHUMATION IN ISLAMIC LAW


### SUMMARY

Exhumation of buried people is not unequivocally welcomed in society. Sometimes this is seen as an action that contradicts religion and religious values. This in some sense hinders the work of law enforcement agencies. When there is a need for exhumation, along with the protection of the right of the dead person, unsolved crimes are revealed. In fact, the exhumation of the corpse is one of the permissible cases in Islamic law, as well as in the legislation of the Republic of Azerbaijan. In connection with this, every citizen should know that the opening of graves is conducted both legally and religiously.

# MƏHƏMMƏD FÜZULİNİN "SU" QƏSİDƏSİNDƏ İSLAM PEYĞƏMBƏRİNƏ DƏRİN MƏHƏBBƏTİN İFADƏSİ

**Minarə PAŞAYEVA,**
*Şirvan şəhər 13№li tam orta məktəbin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi,*
*"Təhsildə inkişaf və innovasiyalar üzrə"*
*III qrant müsabiqəsinin qalibi,*
*mp_13@mail.ru*

***AÇAR SÖZLƏR:*** *qəsidə, "Su" qəsidəsi, Məhəmməd Füzuli, İslam Peyğəmbəri.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *касыда, "касыда су (вода)", Мухаммед Физули, пророк ислама.*
***KEY WORDS****: qasıda, Qasida of Water, Muhammad Fuzuli, the prophet of Islam.*

"Qəm karvanı" və "zülmətdə nur" [1] olan Füzuli təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün türk dünyasının söz xiridarı, misilsiz klassikidir. Zamanların sınağından uğurla çıxmış Füzuli şeiri, Füzuli sözü hikmətdir, fəzilətdir; mövlanə Füzulinin şair qəlbinin çırpıntıları, Məcnunun nakam eşqinin göz yaşları, hüquqsuz Leylinin səssiz, pıçıltılı hıçqırtılarıdır.

Özünü məhəbbət şairi adlandıraraq:

*Məndən, Füzuli, istəmə əşari-mədhü zəm,*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir"* -

desə də, klassik şeirin əsas janrlarında şeir və poemalar yaratmaqla yanaşı, "mədh və zəm" xarakterli əsərlər - qəsidələr də yazmışdır.

Qəsidə Şərqdə çox geniş yayılmış lirik şeir formalarından biridir. Ərəb sözü olan "qəsidə" tərcümədə "böyük bir şəxsi və ya hadisəni mədh və tərif edən, adətən, təntənəli, uzun lirik şeir" kimi izah edilir [2, s.488]. "Xəbər və ya məktub aparıb gətirən adam" mənasını verən "qasid" sözü ilə eyniköklüdür [2, s.447].

Ərəb filoloqu, şeirşünas Tələbin (815-904) "Qəvaidəş-şeir" ("Şeir qanun-qaydaları") əsərində deyildiyi kimi, qədim ərəb poeziyasının əsas mənzum forması olan qəsidə quruluş və məzmun ***nisbətinə*** (kursiv mənimdir-M.P.) görə üç hissəyə bölünürdü:

I. giriş (nəsib);

II. səhra səyahətinin təsviri (rahib);

III. mədhdən ibarət sonluq (madih) [3, s.41].

Ərəb və fars sözləri lüğətində isə "qəsidə" kəlməsi ***"****bir hadisəni və ya onun qəhrəmanını mədh edən mənzumə"* kimi səciyyələndirilir, onun *"qəsidei-qərra"* (gözəl qəsidə, bədii cəhətdən yaxşı yazılmış qəsidə) və *"qəsidei-tarixi"* (tarixi qəsidə) kimi növləri xatırladılır [4, s.385].

Məzmununa görə qəsidələrin *fəxriyyə, minacat, nət, mədhiyyə* və s. növləri də var; **fəxriyyə -** şairin özünü tərifi, **minacat -** Allahın tərifi, **nət -** peyğəmbərin tərifi, **mədhiyyə** - tərifnamədir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Klassik Şərq şeirinin əsas janrlarında sənət nümunələri yaratmış Füzuli hər bir janra müraciət edərkən öz məqsədini, janrın xüsusiyyətlərini dərindən açıqlamaqla fikirlərini aydın şəkildə əsaslandırmışdır. Qəzəl janrına müraciətinin əsas səbəbini

*Qəzəl de ki, məşhuri-dövran ola,*
*Oxumaq da, yazmaq da asan ola!*

fikri ilə ifadə edən Füzuli qəsidələrinə yazdığı dibaçədə (müqəddimə) janrın üstünlüklərini, bu janra müraciətinin səbəblərini geniş şəkildə izah etmişdir. O, qəsidə janrına daha yüksək qiymət verərək bu janrı özü üçün, ilk növbədə, mənalı söz demək, dəyərli fikir söyləmək üçün hünər meydanı kimi dəyərləndirmişdir. Çünki qəsidə həm bütövlükdə, həm də ayrı-ayrı misralarda sərbəst, müstəqil fikir, hikmət xəzinəsidir.

Füzuli qəsidələrinə dibaçə yazmaqda məqsədinin müxtəlif dillərdə qələmə aldığı qəsidələrini bir yerə toplayaraq gələcək nəsillərə ötürmək olduğunu belə ifadə edir: "*Bu müqəddiməni tərtib etməkdə və bu sözləri yazmaqda məqsəd budur ki, bu lətif fənn və qiymətli sənətlə məşğul olduğum zaman müxtəlif illərdə, həm də müxtəlif dillərdə bir neçə qəsidə, tövhid, nət, mənqəbət və padşahlara mədh yazmışdım, Allahın köməyi ilə bunların çoxu məşhur olmuşdu. Bir çoxu qayğısızlıq nəticəsində ortadan çıxmış və bəziləri isə namünasib olduqlarından gizlində, pərdədə qalmışdı.*

*Bu qəflətdən oyanıb belə məsləhət gördüm ki, pərişan olan bu dediklərimin qalanını bir yerə cəm edim. Bu dövrandan sitəm görmüşləri bir yerə toplayım ki, zaye olmaq təhlükəsindən qurtarıb məşhur və müəyyən olsunlar. Madam ki qəsidə nəzmin yaxşı növüdür, heyfdir ki, fövt olub gələcək nəsillərə zövq verməsinlər"* [5, s.18].

Qəsidə janrına xüsusi məhəbbətlə müraciət edən Füzuli üç dildə: türk, fars və ərəb dillərində mükəmməl qəsidələr yaradaraq onları toplu halında bir yerə cəmləyə bilmişdir.

Klassik şeirin əksər janrlarına müraciət etsə də, şair qəsidə janrını daha yüksək tutmuş, məsnəvi və qəzəl üsulunun ifrat və səhlənkarlıq nəticəsində "dad və ləzzətini itirdiyi" qənaətinə gəlmiş, yalnız qəsidəni həqiqi sənət kimi dəyərləndirmişdir:

*Məsnəvi üsulu*, *qəzəl sənəti*
*Qazanmış olsa da aləmdə* şöhrət,
*Lakin bir eybi var: ifratla, təfrit,*
*Nə onda dad qoymuş, nə bunda ləzzət.*
*Təkcə qəsidədir hər xeyir işdə*
*Cilvələr saçaraq sayılır sənət* [5, s.18]

Şair qəsidə janrının daha böyük imkanlara malik olduğuna diqqət çəkərək demişdir: *"Həqiqətdə qəsidə mübhəm ifadələr meydanı və mətin mənalar məkanıdır. Onun sətirlərinin səfləri padşahlara xütbə mənbəridir"* [5, s.18].

Dibaçəni *"fəsahət əhlinə"* və *"bəlağət sahiblərinə"* müraciətlə bitirən şair onları qəsidə zövqündən faydalanmağa, ona layiq olan qiyməti verməyə çağırmışdır: *"Qəsidə zövqündən binəsib olanların varlığını ağıl yox hesab edir. Kərəmli fəsahət əhlindən və mərhəmətli bəlağət sahiblərindən təvəqqe edirəm ki, bu qiymətsiz daş qırıqlarına və dəyərsiz dağınıq muncuqlara nəzər saldıqda, onun nöqsanlarını bağışlasınlar. Buradakı yaxşı cəhətləri öz zəmanələrinin şərəfi kimi qiymətləndirsinlər. Əgər xətaları islah etməsələr, yersiz etiraz da etməsinlər"* [5, s.18].

Füzuli qəsidələri ali varlıq olan insana, onu zinətləndirən sözə verilən çox yüksək qiymət,

dəyərdir. Bu həqiqəti şair belə etiraf edir: *"Elə ki, mən əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözümü açdım, hikmət əsərlərinin tamaşası çölünə təfəkkür qədəmi qoydum; aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli cövhər tapmadım"* [5, s.15-16].

Füzulinin qəsidə yaradıcılığında "Su" rədifli qəsidəsi özünün dərin fəlsəfi məzmunu, bədii sözün qüdrəti, ilahi eşqin silqəti, məcazlar sisteminin mükəmməlliyi baxımından xüsusi yer tutur. Rədifi "su" olduğu üçün bu şəkildə adlandırılır. Füzuli bu qəsidəni İslam peyğəmbəri Məhəmmədi öymək üçün yazmışdır. Burada su rəmzdir -hökmlərin təməl nöqtəsidir; belə ki, burada şair bütün deyimlərini suyun xüsusiyyətlərinə bağlayır.

Bu qəsidə əruz vezninin rəməl bəhrinin "fAilAtün fAilAtün fAilAtün fAilün" qəlibində yazılmışdır. "Rəməl" sözü tərcümədə "ləngərlənmək, dalğalanmaq, ağır-ağır, yəni ləngərlənə-ləngərlənə yerimək" mənasını verir. Bu bəhrdə yazılan şeirlərdə bir əzəmət, vüqar, dalğalılıq özünü göstərir [6, s.60-61].

Şair bu məşhur qəsidəsində təbiətin möcüzəsi olan suyun fəlsəfi mahiyyətini açır, suyun bədii obrazını yaradır. Digər klassiklər kimi, Füzuli də təbiət elmlərinin bilicisidir. Görünür, o da təbiətin möcüzəsi olan suyun canlı olduğunu qəbul edir. Yanan (hidrogen) və yandıran (oksigen) maddələrin birləşməsindən əmələ gələn su odu söndürür. Folklorda qəhrəmanlar yuxularını suya danışırlar, su ilə dərdləşirlər. Bütün canlılar başlanğıcını sudan götürür və s.

Füzulinin "su" anlayışı olduqca genişdir; o, həm cansız maddi aləmdir, həm də möcüzələr yaradan canlı materiyadır, bədii-romantik obrazdır. Hələ qədim dövrlərdən suya qəribə münasibət vardır: insan yuxusunu suya danışır, su ilə dərdləşir. Elm suyun yaddaşı olduğunu sübut etməkdədir. Makedoniyalı İskəndərin dəlləyi suya sirrini danışır, həmin suda göyərən qamışlar bu sirri aləmə yayır: "İskəndərin buynuzu var, buynuzu..."

"Kitabi-Dədə Qorqud" dastanlarında evi yağmalanmış, ailəsi əsir alınmış Qazan xan *"Su Haqq didarın görmüşdür, bən bu su ilə xəbərləşəyim",* - deyə suya müraciət edir:

*Çağnam-çağnam qayalardan çıqan su,*
*Ağac kəmiləri oynadan su,*
*...Qızıl dəvələr gəlib keçdiyi su,*
*Ağ qoyunlar gəlib çevrəsində yatdığı su,*
*Ordumun xəbərin bilirmisən, degil mana!*
*Qara başım qurban olsun, suyum, sana! – dedi* [7, s.41].

Füzulinin su obrazı romantik silqətə malikdir; o, atəşləri söndürən sudur, qəlblərə axan göz yaşıdır, təşnələrə dərman olan həyat mənbəyidir. Ancaq Füzulinin qəhrəmanı eşq atəşindən elə yanır ki, alovları ram edən su onu söndürməkdə acizdir, çünki bu eşq ilahi eşqdir, onu su ilə söndürmək müşkül işdir:

*Saçma, ey göz, əşkdən könlümdəki odlara su*
*Kim, bu dəklü tutuşan odlarə qılmaz çarə su.*

Təbiətdə suyun dövranına bədii don geyindirən şair suyu göy qübbəsinin mavi rəngi ilə müqayisə edir, maraqlı mübaliğə yaradaraq göy qübbəsinin göz yaşları ilə örtüldüyü qənaətinə gəlir:

*Abgüundur günbədi-dəvvar rəngi, bilməzəm,*
*Ya mühit olmuş gözümdən günbədi-dəvvarə su.*

Qəsidəni məzmunca iki hissəyə bölmək olar. 16-cı beytə qədər su aşiq iztirablarının şahidi və iştirakçısıdır. Buradakı beytlərdə su göz yaşıdır, gözə gələn qara sudur:

*Oxşada bilməz qübarini mühərrir xəttinə,*

*Xamətək baxmaqdan ensə gözlərinə qarə su.*

Bu təbiət möcüzəsi xəstəyə şəfadır, qaranlıq gecədə onun ümidi, arzusudur:

*Qəm günü etmə dili-bimardən tiğin diriğ,*

*Xeyirdir vermək qaranqu gecədə bimarə su.*

Su aşiqdir, su rəqibdir:..

*Rövzeyi-kuyinə hər dəm durmayıb eylər güzar,*

*Aşiq olmuş qaliba, ol sərvi-xoşrəftarə su.*

*Su yolun ol kuydən topraq olub dutsam gərək,*

*Çün rəqibimdir, dəxi ol kuyə qoymam varə su.*

13-cü beyt istihalələrin ifadəsidir. Belə bir fəlsəfi fikir mövcuddur ki, insan torpaqdan yaranıb öləndə də torpağa çevrilir. Bu fikir Məhsəti Gəncəvinin məşhur rübaisində belə ifadə olunur:

*Dün kaşı kuzəmi daşlara çaldım***,**

*Sərxoşdum, bilmədim, əlimdən saldım.*

*Kuzə dilə gəlib dedi ki, mən də*

*Sənin kimi idim, bu günə qaldım*

Bu beytdə şair dostlarına müraciətlə deyir ki, onun əlini öpmək arzusu ilə ölsəm, torpağımdan kuzə düzəldib onunla yarə su verin:

*Dəstbusi arizusindən gər ölsəm, dustlər,*

*Kuzə eylin torpağım,* sunun *onunla yarə su.*

14-cü beytdə su yalvaran insan obrazına çevrilir:

*Sərv sərgəşlik qılır qümri niyazından, məgər*

*Damənin duta, əyağinə düşə, yalvarə su.*

Sonrakı beytlərin təhlili bu qəsidənin dini mövzuda yazıldığını təsdiqləyir. Mövlanə Füzulinin “Su” qəsidəsinin fəlsəfi mahiyyəti suyun təmizlik, paklıq timsalı olduğunu göstərməkdir. Burada Kərbəla müsibətinə də işarə var, çünki bu hadisə bəşər övladının su ilə imtahana çəkilməsidir. 28-ci beytdə ilahi nemət olan suyun göylərdən enməsinə işarə edilir:

*Çeşmeyi-xurşiddən hər dəm zülali-feyz enər,*

*Hacət olsa, mərqədin təcdid edər memarə su.*

Suyun göylərdən enməsi və endirilməsi Qurani-Kərimdə də keçir. Bu fikir müxtəlif forma və məzmunda ifadə edilsə də, mahiyyət eynidir - müqəddəs nemət olan su həyat mənbəyi kimi göylərdən endirilib:

**“Göydən su (yağış) endirən Odur...”** [8, “Ənam”, 99];

**“Göydən sizin üçün yağmur endirən Odur...”** [8, “Nəhl”, 10];

**“Allah göydən bir yağış endirər, onunla yer üzünü öldükdən (quruduqdan) sonra dirildər...”** [8, “Nəhl”, 65] və s. [8; 9, s.33-34]

Qəsidənin təhlili göstərir ki, rəmzlərlə zəngin olan bu qəsidəni Füzuli İslam peyğəmbəri Həzrət Məhəmmədi (s) öymək məqsədilə yazmışdır. Şairin ərəbcə qəsidələrini araşdıran məşhur şərqşünas Y.E.Bertels də qəsidələrin dini məzmun daşıdığını vurğulayaraq yazır:

*"Məzmununa görə bütün on bir qəsidə (ərəbcə qəsidələr nəzərdə tutulur-M.P.) eyni bir tipə aid olub Məhəmməd və ya imam Əlinin mədhiyyə, tərifinə (nə`t) həsr olunub. Bununla belə, bu qəsidələrdən heç biri birbaşa mədhiyyə ilə başlamır, əksinə, müqayisədə tərif, öymə çox az yer tutur, əsas diqqət girişə-nəsibə yönəlib" [10, s.507].*

Bu xüsusiyyətlər "Su" qəsidəsində də, əsasən, öz əksini tapır. Qəsidənin 26-30-cu beytlərində şair **"Ey Allahın sevimlisi! Ey insanların ən xeyirlisi!, -** deyə Məhəmməd peyğəmbərə müraciət edir, onu Merac gecəsində (Məhəmməd peyğəmbərin göyə getməsi və Allahla danışması) ulduzlu kəhkəşana səhər şehi kimi su səpmiş kəramət dənizi adlandırır, ulduzlu səmanı şeh damcılarına bənzədir:

*Ya Həbibullah! Ya Xeyrəl-bəşər! Müştaqinəm,*
*Eylə kim, ləbtəşnələr yanıb dilər həmvarə su.*
*Sənsən ol bəhri-kəramət kim, şəbi-meracdə,*
*Şəbnəmi-feyzin yetirmiş sabitü səyyarə su.*

Qəsidənin son iki beytində qiyamət günündən bəhs edilir. Məzmunca bir-birini tamamlayan bu beytlərdə qiyamət günündə qəflət yuxusundan oyanaraq vüsalı üçün göz yaşı tökdüyü Peyğəmbərin (s) gözəl camalını görməyə susamış şair bu ilahi arzusunun məhşər günü həyata keçəcəyinə ümid edir:

*Xabi-qəflətdə olan, bidar olanda ruzi-həşr,*
*Əşki-həsrətdən dolanda dideyi bidarə su.*
*Umduğum oldur ki, məhrum olmayam didardən,*
*Çeşmeyi vəslin verə, bu təşneyi-didarə su.*

"Su" Füzuli yaradıcılığında qəsidə janrının ən gözəl, mükəmməl nümunəsi, Füzuli sözünün, Füzuli hikmətinin ən zərif, ən qiymətli incisidir. Şair etiraf edir ki, məhz Peyğəmbəri (s) öydüyü üçün onun sözləri yağış buludundan düşən su damlası kimi saf, parlaq, qiymətli inci olmuşdur:

*Yumni-nətindən gühər olmuş Füzulu sözləri,*
*Əbri-nisandan dönən tək lö-löi-şəhvarə su***.**

Füzuli söz sərrafıdır, sözdən məharətlə istifadə edən misilsiz sənətkardır. O, sözə ehtiyatla yanaşır, sözü məharətlə seçir, cilalayır, mənalandırır, yeni don geydirir:

*Söz mənadan asılıdır, məna sözdən hər zaman,*
*Bir-birindən asılıdır necə ki, cism ilə can* [11, s.5] -

deyən Füzuli "Su" qəsidəsində "su" məfhumunu bədii sözün meyarına çevirir, müxtəlif mənaları "su" sözündə birləşdirərək, mükəmməl sənət nümunəsi yaradır.

Nəticə etibarilə deyə bilərik ki, Füzuli qəsidələrinin müqəddiməsində yazdıqlarına sadiq qalmış, qəsidə janrını da Füzuli zirvəsinə qaldırmışdır.

***Qeyd:*** *"Su" qəsidəsindən verilən nümunələr Məhəmməd Füzuli, "Əsərləri", IV cild,* "Şərq-Qərb" *nəşriyyatı, Bakı, 2005 nəşrindən götürülmüşdür (səh. 30-33).*

# ƏDƏBİYYAT


1. Fuad Qasımzadə. “Qəm karvanı”, yaxud zülmətdə nur. Bakı: Azərnəşr, 1968.
2. Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1966.
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: “Maarif” nəşriyyatı, 1978.
4. Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1960.
5. Məhəmməd Füzuli. Əsərləri. IV cild. Bakı: “Şərq-Qərb”nəşriyyatı, 2005.
6. Ş.A.Mikayılov. Ədəbiyyat nəzəriyyəsi. VIII-X siniflər üçün dərs vəsaiti. Bakı: “Maarif” nəşriyyatı, 1988.
7. Kitabi-Dədə Qorqud əsil və sadələşdirilmiş mətnlər. Bakı: “Öndər” nəşriyyatı, 2004.
8. Qurani-Kərim (Azərbaycan dilinə tərcüməsi ilə). Ərəb dilindən tərcümə edənlər: Məmmədhəsən Qəni oğlu, Tariyel Bilal oğlu. Bakı: Göytürk, 2000.
9. Kur’an-i Kerim Meali. Ankara: 2008.
10. Э.Бертельс. Избранное труды “Низами и Физули”. Москва: 1962.
11. Məhəmməd Füzuli. Əsərləri. III cild. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1958.
12. Ə.Səfərli, X.Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: “Maarif” nəşriyyatı, 1982.
13. Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. Bakı: 1958.
14. Məhəmməd Füzuli, Əsərləri, IV cild, Bakı: “Şərq-Qərb”nəşriyyatı, 2005.

Минара Пашаева

# ОПИСАНИЕ ПРОРОКА ИСЛАМА И ВЫРАЖЕНИЕ ГЛУБОКОЙ ЛЮБВИ К НЕМ В КАСЫДЕ «СУ» («Вода») МУХАММЕДА ФИЗУЛИ

## РЕЗЮМЕ

В статье исследуется значение жанра касыда в творчестве классика азербайджанской литературы Мухаммеда Физули, творчество касыда поета и художественно-философская сущность знаменитого касыда «СУ» («Вода» ) в этом контексте.

В статье на примерах анализируется художественно философская сущность слова «вода», акцентируется внимание на роли понятия «вода» в глубинных пластах нашей литературы-фольклора. В анализе автор обращает внимание на выражение поетом глубокой любви к Пророку Мухаммеду (с.г.в.) желание поета встретиться с ним в Судный день.

Minara Pashaeva

# EXPRESSION OF DEEP LOVE TO THE PROPHET OF ISLAM IN THE QASIDA OF WATER BY MUHAMMAD FUZULI

## SUMMARY

The article examines the significance of the qasida genre in the works of the classic of Azerbaijani literature Muhammad Fuzuli, qasida poems of the poet and artistic and philosophical points of the famous qasida of Water in this context.

The article analyzes the artistic philosophical essence of the word «water» using examples, focuses on the role of the concept «water» in the deep layers of our literature-folklore. In the analysis, the author draws attention to the expression of the poet's deep love for the Prophet Muhammad (s), the poet's desire to meet him on the Day of Judgment.

# İLİSU, AĞÇAY VƏ SARIBAŞ KƏNDLƏRİNDƏ YENİ TƏDQİQATLAR

**Bədircahan MƏMMƏDOVA,**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun*
*Antik dövr arxeologiyası şöbəsinin elmi işçisi,*
*bcahan@gmail.com*

***AÇAR SÖZLƏR:*** *İlisu, Ağçay, Sarıbaş, abidə, arxeologiya, mezolit, skiflər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Илису, Агчай, Сарыбаш, памятник, археология, мезолит, скифы.*
***KEY WORDS:*** *Ilisu, Aghchay, Saribash, monument, archeology, Mesolith, Scythians.*

**Aktuallığı.** Şimaldan Rusiya, şimal-qərbdən Zaqatala, qərbdən Gürcüstan, cənubdan Yevlax və Samux, şərqdən Şəki rayonu ilə həmsərhəd olan Azərbaycan Respublikasının Qax rayonunun İlisu, Ağçay və Sarıbaş kəndləri bəşər tarixinin bütün dövrlərinə aid tarixi-arxeoloji abidələrlə zəngindir.

Müasir dövrümüzədək qeyd edilən kəndlərdə bir sıra tədqiqatlar aparılsa da, yeni tapıntılar mövcud qənaətlərə yenidən nəzər salmağı tələb edir.

**İşlənilmə dərəcəsi.** Qax rayonunun İlisu, Ağçay və Sarıbaş kəndlərinin tarixi, arxeologiyası və epiqrafikası ötən əsrin və müasir dövrün bir sıra tarixi, filoloji, arxeoloji və d. tədqiqatlarında araşdırılmışdır.

**Elmi yeniliyi.** Məqalədə İlisu, Ağçay və Sarıbaş kəndlərinin adlarının mənasına bir daha nəzər salınmış, yeni fikirlər əlavə edilmişdir.

İlisu kəndində (Kəndtala qədim yaşayış yeri) yerli sakinin 2018-ci ildə aşkarladığı qaya parçası (qənaətimizə əsasən, başdaşı) ilk dəfə olaraq məqalədə tədqiqata cəlb edilmiş, tarixi dövrü müəyyənləşdirilmişdir (Mezolit - Orta Daş dövrü; 15 000 il əvvəl). Həmçinin İlisu kəndindəki Qaradolaq məhəlləsinin adının digər tarixi Azərbaycan bölgə əhalisi – (Qarabağ; Naxçıvan MR; İrəvan) ilə eyniadlı etnik mənşəyə malik olması mövcud tədqiqatlara və müəllifin qənaətinə əsasən qeyd edilmişdir.

"Qafqaz qaş səhləbi" və ya "Xarı bülbül" çiçəyinin İlisu kəndinin Qarabulaq, Ağtala, Orta Könə yaşayış məskənlərində yayıldığı faktı da müəllif tərəfindən qədim türk tayfalarının yerdəyişmə prosesi ilə izah edilmişdir.

Ağçay kəndində olan abidələrin (Oğuz qəbirləri, "Oğlan qala, qız qala" mağaraları) ölçülərini qeyd edən müəllif kəndin tanınmış şəxsiyyətləri (İsmayıl Qullari, Setav bəyin nəticəsi Nüşabə) barədə məlumatları ilk dəfə təqdim etmiş, kənddəki şəxs adlarında tolerantlıq fikrinin qorunduğunu bildirmişdir.

Sarıbaş kəndində tapılmış arxeoloji tapıntılar (Ulu baldırğan talasında divar daşı, Qax Tarix

Diyarşünaslıq Muzeyində qorunan ilk orta əsrlərə aid saxsı bardaq) barədə ilk dəfə məlumat verən müəllif yerli əhalinin sufi təriqəti – Nəqşbəndiyyəyə (XIV əsr) etiqad etdiyini bildirmişdir.

**Praktiki əhəmiyyəti.** Məqalə tarixçilər, arxeoloqlar və şimal-qərbi Azərbaycan regionu ilə maraqlananlar üçün əhəmiyyət kəsb edir.

***

Qax rayonu mərkəzindən 12 km məsafədə, dəniz səviyyəsindən 1585 m yüksəklikdə yerləşən İlisu kəndi zəngin təbii ehtiyatlara malikdir. Tədqiqatlara əsasən, kəndin dağ süxurları Yura (Mezozoy erasının II dövrü - 201 milyon il əvvəl) və təbaşir (Mezozoy erasının III dövrü - 145 milyon il əvvəl) dövrlərinə aid edilmiş, Kürmükçay dərəsində uran, Hamamçayın yuxarı axarlarında təbii qaz yataqlarının olduğu müəyyən edilmişdir [1, s.179, 181].

Kürmükçay və Hamamçay çaylarının birləşdiyi yerdə yerləşən, sərt iqlimli bu kənd ilə eyniadlı (İlisu) məntəqələr hazırda Türkiyə Cümhuriyyətinin vilayətlərində – Aksaray (Güzelyurt), Amasya (Göynüçiçek) və Mersindədir (Gülnar). Alimlər (professor Səyyarə Mollazadə və professor Yəhya Kərimov) "ilisu" sözünün "yuxarıdan aşağı enən çay" mənasını ifadə etdiyini bildirmişlər.



*Şəkil 1. 2018-ci ildə İlisu kəndi yaxınlığındakı Kəndtala yaşayış məskənindən aşkarlanan qaya parçası (qəbir daşı) və fraqmenti.*



İlisu kəndinin qədim yaşayış ərazisi olan Kəndtalada yerli sakinin 2018-ci ildə aşkarladığı qaya parçası (qənaətimizə əsasən, başdaşı) son illərin nadir və maraqlı tapıntısı kimi diqqəti cəlb edir (şəkil 1). Hazırda İlisu kəndinin imamı Elman Xəliloğlunun evinin həyətində qorunan bu qaya parçasının aşkarlandığı sıx meşəlikdən ibarət ərazidə buna bənzər çoxsaylı tapıntıların olduğu tərəfimizdən müşahidə edilmişdir.

Uzunluğu 80-85 sm, eni 30 sm, hündürlüyü 11 sm olan bu qaya parçası üzərində gözəçarpan insanabənzər 4 təsvir vardır. Hər iki əllərini yana açmış, üç ayağı aralı formada olan insanabənzər təsvirlərdə (uzunluğu: 60-70 sm) əl barmaqları (4 və ya 6 barmaq) aydın sezilir. Bu qəbir daşındakı bir əlində dartılmış yay, digər əlində isə ox tutmuş insanabənzər varlıqlar yerli əhalinin ovçuluq məşğuliyyətini büruzə verir. Bu tapıntıya bənzər qaya parçaları Naxçıvan MR-in Gəmiqaya, Abşeronun Dübəndi, Qobustan abidələrində aşkar edilmişdir. Arxeoloji tədqiqatlara əsasən, iki kəsişən xətlə yaradılan insanabənzər təsvirlər həm dünyanın yaranmasının əsasında duran dörd ünsürü (od, su, hava, torpaq), həm ilin 4 fəslini (bahar, yay, payız, qış), həm də həyatın sonunu ifadə edir [2, s.95].

Tərəfimizdən tədqiqata cəlb edilən bu qaya parçasını Mezolit dövrünə (Orta Daş dövrü adlandırılan bu dövrün təyinatı regionlara əsasən, fərqlidir. Yaxın Şərqdə belə abidələrin yaşı 15 min il əvvəldir) aid etmək mümkündür. Məhz bu dövrdə daş alətlər, mikrolitlər, obsidian daşından ülgüc, sümükdən ov ucluqları düzəltmə, ovçuluq geniş yayılmış, Yer kürəsində buzlaşma dövrü bitərək insanlar üçün əlverişli yaşayış mühiti, heyvan və bitki aləmi formalaşmışdır [2, s.95].

Ruhlar aləminə inanan mezolit dövrü insanları ilk piktoqrafik nümunələr (işarələr və ya təsvirlərlə obyekti həkk etmə) yaratmış və köç edərək şimal ölkələrinə (Şotlandiya, Baltikyanı, Şimal Buzlu okeanı sahilləri) doğru yönəlmişlər [3, s.256].

Qaya parçasının aşkarlandığı Kəndtala ərazisində həm də ərəb yazıları olan qəbirlər və müəyyən qədim tikili qalıqları (yerli sakinlərin söylədiyinə görə, qədim ibadət yeri) vardır.

Beləliklə, Kəndtala yaşayış yerinin tarixi yaşının Bakı şəhərindən 55 km aralıda, Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən ilkin insan məskəni - Qobustan abidələri ilə həmyaşıd olduğunu, yəni Mezolit (Orta Daş dövrü, 15 000 il əvvəl) dövründən başladığı və sonrakı tarixi mərhələlərdə davam etdiyini söyləyə bilərik.

Qaradolaq elatı ilə əlaqədar aşağıda təqdim etdiyimiz yeni məlumat İlisu kəndinin tarixi-etnoqrafik tədqiqatlarını zənginləşdirməyə yardım edəcəkdir.

Məlumdur ki, İlisu kəndində məşhur məhəllələrdən biri də kəndin yuxarı hissəsindəki Qaradolaq məhəlləsidir. Tarixi məlumatlara əsasən, məşhur Kəngərlilər boyunun Ustaclı tayfasına mənsub olan Qaradolaqlar Səfəvilər dövlətinin (1501 - 1736) yüksək təbəqəli tayfa əyanları qismində süvari ordusunda hərbi xidmət etmiş, qollarına fərqlənmə nişanı kimi “bəlgə” adlanan qol sarığı, qara rəngli dolaq bağlamışlar.

Xocavənd rayonu yaxınlığındakı Kuropatkin ərazisində, Ağcabədi rayonundakı Qaradolaq kəndində, Naxçıvan MR-in Şərur düzünün Araz boyu maili düzəngahında, İrəvan ərazisindəki Zəngibasar rayonunun Çobankərə kəndində və Qax rayonunun İlisu kəndində məskunlaşan, əsasən maldarlıqla məşğul olan, türkdilli tayfa ittifaqı olan Qaradolaqların Roma və Bizansla əlaqələri də tədqiqatlarla sübut edilmişdir [4, s.6].

İlisu kəndinin Qarabulaq, Ağtala, Orta Könə yaşayış məskənlərində bitən, xalq arasında “Xarı bülbül”, elmi ədəbiyyatda isə “Qafqaz qaş səhləbi” adlandırılan, İlisu Dövlət Təbiət Qoruğunun təcrübəli əməkdaşı, ekoloq Azərçin Muradovun “bülbül çiçək” adlandırdığı çiçək kəndin təbiətini zənginləşdirir (şəkil 2). Qədim türk tayfalarının yerdəyişmə prosesi nəticəsində bu çiçək də Azərbaycanın bioloji müxtəlifliyini büruzə verir.



*Şəkil 2. “Qafqaz qaş səhləbi” və ya “Xarı bülbül” çiçəyi.*

İlisu kəndindəki “Səngər yeri”, Sumuqqala, Uludağ dağı ərazisindəki yaşayış yerləri, Tovlatala məhəlləsindəki İlisu sultanlarının məzarları, həmçinin bir sıra qəbiristanlıqlarda (Bucaq məhəlləsindəki “Obalar”, Ulu

məscid ətrafında, Qaradolaq məhəlləsindəki "Füzuli bağı", İlisu məktəbi yaxınlığında) kəşfiyyat səciyyəli arxeoloji, etnoqrafik müşahidələr aparılsa da, arxeoloji qazıntıların aparılmasına böyük zərurət vardır.

Ağçay kəndi Qax rayonu mərkəzindən 9 km uzaqlıqda, Üçtəpə ərazisindən başlayaraq, Qaradağ, Xəznə, Qaltaq, Ağcaqayın, Musa yaylağı, Əltürgən (Ertürkan) dağının arxa tərəfindən başlayan Ağçay çayı (Ağçay dərəsinin uzunluğu 17 km; çayın uzunluğu 11 km, sahəsi 46 kv km, hövzənin orta yüksəkliyi 1990 m) sahilində yerləşir.

Kəndin adı tədqiqatlara əsasən, hidronimik oronimdir və "içməli su" mənasını bildirir [5, s.57].

Ağçay kəndində qeydiyyata alınmış abidələrdən biri arxeoloji baxımdan maraq yaradan Oğlan qala, qız qala mağaralarıdır (hündürlüyü 25-40 m). Müdafiə tipli bu abidədən yerli sakinlər sığınacaq məqsədilə istifadə etmişlər.

Ağçay dərəsinin Xəznə dağı (hündürlüyü 2000 m, ən yüksək zirvəsi Dünyadik, şəkil 3), Qax, Şəki, Yevlax və Samux rayonlarını əhatə edən Axarbaxar dağ silsiləsi (hündürlüyü 500 metrdən artıq) və yaxınlığındakı kəndlərdən (Xırsa, Kiçik və Böyük Dəhnə, Suçma və d.) tapılmış arxeoloji materiallar ərazidə qədim yaşayış məskənlərinin olduğunu sübut edir və turizm layihələri üçün maraqlıdır.

2011-ci ildə Dağıstanın Mahaçqala şəhərində çap edilmiş "XII-XIX əsrlərdə İlisu və dağ mahalı" [6] adlı kitabın "İlisu sultanlığının Ağçay kəndində bir kitabın köçürülməsi" bölməsində İsmayıl Qullarinin adı və təxəllüsü qeyd edilmişdir.

İsmayıl Qullari 1809-cu ildə Ağçay kəndindəki Hacı Şəmsəddin məscidində zəvvar Hacı Əbdəllah Əfəndi Nuxəvinin tələbəsi qismində təhsil alaraq xəttatlığa yiyələnmiş və qeyd edilən kitabın üzünü nəsx xətti ilə köçürmüşdür. Tədqiqatçı A.Albanvi İsmayıl Qullarinin etnik kimliyini araşdıraraq, Cənubi Dağıstanın Dərbənd şəhərində və Qusar rayonunda Qullar adlı kəndlərin olduğunu bildirmişdir [7].



*Şəkil 3. Qax rayonu, Ağçay kəndi, Xəznə dağının Dünyadik zirvəsi. Fotoqraf: Namiq Mantaşov*

Qənaətimizə əsasən, Balakən rayonunun Qullar kəndində dünyaya gəlmiş İsmayıl Qullari təhsil almaq məqsədilə Qax rayonunun Ağçay kəndinə gəlmiş və özünün də qeydinə əsaslansaq, doğma kəndinin adını təxəllüs kimi qəbul etmişdir.

XIX əsrin əvvəllərində Ağçay kəndində vəba xəstəliyi ucbatından çox sayda sakin vəfat etmiş, digər dağ mahalları sakinləri bu əraziyə köçürülmüşdür. İlisu sultanı Əhmədxan (1805-1830) general Rtişevə (1754-1835) məktubunda bu faktı belə qeyd edir: "Dörd kəndimizdə - Muslax, Sekut, Ağçay və Qaxbaşda vəba qeydə alınıb" [8].

Ağçay kəndində tolerantlıq ənənələrinə riayət

olunduğu həm də yerli sakinlərin adlarında (Misidik, Huripəri, Ruqiyət, Qazımuhəmməd, Pəri, Umaxan və d.) müşahidə olunmaqdadır. Müasir dövrümüzdə bu kənddə etnik türklər - muğallar, ləzgilər, saxurlar, avarlar yaşayırlar.

Tədqiqatçı İ.Lineviçin fikrincə, Ağçayda 9 bəy ailəsi yaşamışdır. Hacıağa İlisulunun nəslindən olan bu ailələr "Nəcəfuşağı" soyadı daşımış və İlisu sultanlığının Almalı, Şıxlar, Baxtala məskənlərində torpaq sahələrinə malik olmuşlar. Bu nəslin təməlini qoyan Nəcəf bəyin nəsil davamçıları - oğlu Məhəmməd, daha sonralar isə - Kiçi xan, İbax, Paşa bəy, Ziyad adlı şəxsiyyətlər olmuşlar [8].

Epiqraf alim, akademik Məşədixanım Nemətin tədqiqatlarında (qəbir daşındakı yazıya əsasən, vəfat tarixi hicri 1322 = 1904-05 il) adı keçən Nüşabə xanım "zəvvar ... bəyin qızının nəticəsi" kimi qeyd olunsa da, sonrakı tədqiqatlar sayəsində bu xanımın XIX əsrin sonunda Ağçay kəndindəki 10 taqar (taqar – torpaqla əlaqədar ölçü vahidi) biçin sahəsi sahibi, yerli bəy ailələlərinin rəhbəri, imkanlı şəxs Setavbəyin nəticəsi olduğu müəyyən edilmişdir [8].

İlisu kəndindən 18 km şimal-qərbdə, Kürmükçayın yuxarı səthində, dəniz səviyyəsindən 1800 m yüksəklikdə yerləşən Sarıbaş kəndi zəngin təbiəti və qədim abidələri ilə maraq kəsb edir.



*Şəkil 4. Qax rayonunun Sarıbaş kəndində 2019-cu ildə bərpa və təmir edilmiş məscid*

Türk tədqiqatçıların qənaətlərinə əsasən, "sarıbaş" sözünün mənası ("sarı", "sari" türk sözləri olub, rəng mənasını bildirir) həm də "tərəf", "istiqamət" deməkdir. Bu məzmunda "sarıbaş" sözü "başa tərəf", "baş tərəf" anlamları ilə də uyğun gəlir. Türk xalqlarında "sarı başlı" ifadəsi ilə həm də igid, qəhrəman kəs nəzərdə tutulmuşdur [9, s.303]. Bu adla Şəki rayonu ərazisində Sarıqaya, Kəlbəcər rayonunda Sarıyer oronimləri işlənilir [5, s.58-59]. Ukraynanın Krım Muxtar Vilayətində eyniadlı kənd vardır.

Qax rayonunun Tarix-Diyarşünaslıq Muzeyində Sarıbaş kəndində aşkarlanmış saxsı qab – bardaq qorunur (QTDM 200; h – 30 sm; d – 5,5 sm). Təyinatımıza əsasən, bu tapıntı ilk orta əsrlər dövrünə aiddir.

Kəşfiyyat xarakterli tədqiqatımız zamanı Sarıbaş kəndindən 3-4 km aralıda, şimal-qərb istiqamətində olan Ges dərəsindəki "Ulu baldırğan" adlı talada (qədim yaşayış yerində) üzərində maral və ovçu təsvirləri olan divar daşı (ölçüsü: 50x30 sm) tapılmışdır. Bu tapıntı ərazidə vaxtilə abidənin və yaşayış yerinin olduğunu təsdiq edir.

"Kitabi-Dədə Qorqud" dastanında Sarıbaşın günbatan tərəfində yerləşən "Qarsu" dağının adı çəkilir. Dastanda adı keçən Ağcaqala, Sürməli, Torpaqqala yaşayış məskənləri Sarıbaşdan 30-40 km aralıda olan Qanıq çayı ətrafındakı yer adlarıdır. Dastanda təsvir olunan yerli mətbəx mədəniyyəti, xalq təbabəti və digər adət-ənənələr (adqoydu və s.) müasir dövrümüzdə də yaşadılır.

Dəniz səviyyəsindən 2500-3000 m yüksəklikdəki dağ yaylaqlarının mərkəzi hissəsində “Qaburlu arxac” adlı yaşayış məntəqəsi hazırda acınacaqlı vəziyyətdədir.

Monogen səciyyəli kənd olaraq Azərbaycan Milli Ensiklopediyasına daxil edilmiş bu kənddəki “Oğuz qəbirləri” (hər qəbrin uzunluğu - 2 m) və fədakar kənd sakinlərinin dəfn edildiyi “Şəhidlik” adlı qəbiristanlıqlar kəndin şərəfli tarixini büruzə verir.

1936-1938-ci illərin repressiya hadisələri dövründə Sarıbaş kəndində üstüyazılı abidələrin dağıdılması və kəndin görkəmli şəxslərinin məhv edilməsi tarixin acınacaqlı faktlarıdır.

Sarıbaş kəndindəki “Hacı Tapdıq” məscidi (XVI-XVII əsrlər) ilə əlaqədar tədqiqatlar, adından da göründüyü kimi, yerli əhalinin Azərbaycanın şimal-qərb regionunda məşhur olan sufi təriqətlərinə (Nəqşbəndiyyə şeyxi Hacı Tapdığın qəbri – Qax rayonunun Oncallı kəndindədir) ehtiram bəslədiyini ortaya qoyur. Qeyd etmək istərdik ki, 2019-cu ildə Sarıbaş kəndindəki məscid bərpa və təmir edilmişdir (şəkil 4).

Hündür ərazidə yerləşən bu kəndin maraqlı tarixi-arxeoloji abidələrini tədqiqata cəlb etmək zəruridir.

2012-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, Paleolit arxeoloji ekspedisiyası Ceyrançöl dəstəsinin rəhbəri Mənsur Mənsurovun başçılığı ilə İlisu, Sarıbaş, Ağçay, Ləkit - Kötüklü kəndlərində arxeoloji axtarış və kəşfiyyat işləri aparılmışdır. 2500 m yüksəklikdəki dolomit qaya zolaqlarından ibarət qayalarda olan mağara və zağaları aşkarlayaraq tədqiq edən arxeoloqların ehtimalına görə, bu qayaaltı qövsvari boşluqlarda ibtidai insanların yaşaması üçün münbit şərait olmuşdur.

Yerli əhalinin “skolotlar” (Herodotun fikrincə, e.ə. VII – e. III əsrində Avrasiyanın düzənlik və meşələrində, Qaradənizdən Sayan-Altaya qədər olan ərazidə həyat keçirən skiflər özlərini həm də “skolotlor” adlandırırmış) və “Xorqaya” adlandırdığı belə mağara tipli ilkin insan məskənləri (450-500 min il əvvələ aid) [10] gələcəkdə ərazidə aparılacaq arxeoloji tədqiqatlar üçün maraqlı obyektlərdir.

Müxtəlif tarixi mərhələlərdə etnik qrup və xalqların qaynayıb qarışması nəticəsində formalaşan Qax rayon mərkəzindən şərqdə yerləşən - İlisu, Ağçay və Sarıbaş kəndləri gələcək turistik layihələr üçün maraqlı məkanlardır. Qeyd edilən kəndlərdə arxeoloji qazıntıların aparılması tariximizin yeni faktlarla zənginləşməsinə səbəb olacaqdır.

# ƏDƏBİYYAT


1. İlisu. Tərtibçi: Murtuzayev S.N. Bakı: Vətən, 2012.
2. Müseyibli N. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004.
3. Мезолит и неолит Восточной Европы: хронология и культурное взаимодействие. Отв. Ред. Васильев С.А., Шумкин В.Я. Спб., ИИМК, 2012.
4. Məmmədov M. Qaradolaq elatı haqqında bilgilər // "Tərəkəmə" qəzeti, 28 fevral 2011.
5. Məmmədov N. Azərbaycanın yer adları (oronimiya). Bakı: ADN, 1993.
6. Айтберов Т.М., Хапизов Ш.М. Елису и горный магал в XII–XIX вв. (очерки истории и ономастики). Махачкала: 2011.
7. http://qax.org.az/?p=4029
8. http://nkaa.ru/92-agchay-kahaor.html
9. Sarı A. Türkülerin doğuşu. Antalya: Nokta E-Book Publishing, 2016.
10. Şimal Qərbi Azərbaycan. Layihə rəhbəri: Mahmudov Y.M. Bakı: Şərq-Qərb, 2011.
11. Azərbaycanda arxeoloji tədqiqatlar: nailiyyətlər və perspektivlər // https: //muallim.edu.az/news.php?id=6390
12. Abbasov N. Qədim Azəri yurdu – Qax. Bakı: Ağrıdağ, 2000.
13. Əzimov H., Əhmədov Ş. Qax abidələri. Bakı: Səda, 1998.
14. Xəlilov M. Kosmos elçiləri qədim Qobustanda // Azərbaycan arxeologiyası. № 3-4, Bakı: Khazar University, 2000, s. 63-65.
15. İsmayılov Q., Aslanov Q. Torpaqqalada arxeoloji axtarışlar //AzSSR EA-nın xəbərləri. Bakı: 1961, s. 29-43.
16. Nemət M. Azərbaycanda pirlər (sosial-ideoloji iqtisadi-siyasi mərkəzlər). Bakı: ADNPB, 1992.
17. Карахмедова А. Исследования монастыря Катук-Лякит Кахского района в 1982 г.: Археологические раскопки // Археологические и этнографические изыскания в Азербайджане (1982). Баку: 1990, с. 36-39.
18. Летифова Э. Илисуйское султанство. Баку: Шарг – Гарб, 2010.
19. Албанви А. Переписчик Исмаил Куллари // https: //proza.ru/2017/02/03/157

Бадирджахан Мамедова

# НОВЫЕ ИССЛЕДОВАНИЯ В ПОСЕЛЕНИЯХ ИЛИСУ, АГЧАЙ И САРЫБАШ

## АННОТАЦИЯ

В статье основываясь на археологические наблюдения, отчеты, а также др. исторические сообщения предоставлена информация о этимологии названий, новых археологических находках, исторических памятниках и личностях селений Илису, Агчай и Сарыбаш Кахского района.

Основываясь на историческо-этнографические сведения согласно автору статьи, название переулка Гарадолаглар села Илису основывается на одноименный тюркский род, последователи которого также ныне проживают на территории Нахичеванской Автономной Республики, Иревана и районов Карабаха (Ходжавенд, Агджабеди).

Нововыявленная находка – кусок скалы (или надгробный камень), выявленный на территории Кендтала в поблизости села Илису привлекает внимание своим своеобразием. Согласно изображениям на данном камне, а также археологическим исследованиям подобного типа находок, данную находку можно отнести к периоду Мезолита (т.е. 15 тысяч лет назад).

Согласно исследованиям название села Сарыбаш у тюркских народов, сходится с понятиями «воин» или «герой». В древнем тюркском эпосе «Китаби Деде Горгуд» отмечены название горы «Гарсу», а также древних поселений (Агчала, Сюрмели, Торпаггала) данного села. Древние обычаи, кухонная культура, способы исцеления народными способами села Сарыбаш, сохраняют свою актуальность и по сей день.

Село Агчай прославлено историческими личностями, а также памятниками разных периодов, отражающих толерантность. Природные богатства данного села привлекают туристов.

Артефакты данных поселений предоставляют ценные сведения о жителях, хозяйстве, обычаях, верованиях и культуре на протяжении многих исторических периодов. Проведение археологических раскопок на территории этих сёл, способствовало бы выявлению новых результатов.

Badirjahan Mammadova

# NEW RESEARCH IN ILISU, AGHCHAY AND SARIBASH SETTLEMENTS

## SUMMARY

Based on archeological observations, reports, as well as other historical accounts, this article gives information of etymology of names, new archeological findings, historical monuments and figures of Ilisu, Aghchay and Saribash settlements of Gakh region.

Referring to historical-ethnographic data, the author of the article notes that the name of Garadolaglar lane of Ilisu village is based on the eponymous Turkic clan whose adherents also reside in the territory of Nakhchivan Autonomous Republic, Irevan and Karabakh regions (Khojavend, Aghjabedi).

The newly discovered finding is a piece of rock (or gravestone) found within the territory of Kendtala near Ilisu village, attracts attention with its originality. According to the images on this stone, as well as to archeological investigations, this finding can be attributed to the Mesolithic period (i.e. 15 thousand years ago).

According to research, the name of Saribash village among the Turkic peoples coincides with the concepts of "warrior" or "hero". The name of Garsu mount, as well as ancient settlements (Aghchala, Surmeli, Torpaggala) of this village are mentioned in the ancient Turkic epic "Kitabi Dede Gorgud". Ancient customs, kitchen culture, folk healing methods of Saribash village remain relevant to this day.

The village of Agchay is famous for its historical figures, as well as monuments from different periods that reflect tolerance. The natural resources of this village attract tourists.

The artifacts of these settlements provide valuable information of the inhabitants, economy, customs, beliefs and culture for many historical periods. Archaeological excavations on the territory of these villages would contribute to the identification of new results.

# İSLAM XƏTT SƏNƏTİ VƏ MƏŞHUR XƏTTATLAR

**Səbinə NEMƏTZADƏ,**
*AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Şərq-Qərb şöbəsinin aparıcı elmi işçisi, ilahiyyat elmləri üzrə fəlsəfə doktoru, dosent,*
*nematzadesabina@yahoo.com*

**Səbirə NEMƏTZADƏ,**
*BDU-nun Sosial elmlər və psixologiya fakültəsi, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*sabiranematzade@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *İslam, xətt sənəti, xəttat, İbn Müqlə, İbn Bəvvab, Yaqut əl-Müstəsimi, Şeyx Həmdullah Əfəndi, Mir Əli Təbrizi.*

***КЛЮЧЕВЫЕ СЛОВА*:** *Ислам, каллиграфия, каллиграф, Ибн Мукла, Ибн Бавваб, Якут аль-Мустасими, Шейх Хамдулла Эфенди, Мир Али Тебризи.*

***KEY WORDS:*** *Islam, calligraphy, calligrapher, Ibn Mugla, Ibn Bawwab, Yakut al-Mustasimi, Sheikh Hamdullah Efendi, Mir Ali Tabrizi.*

Xəttatlıq İslam düşüncəsini, zövqünü, təmkinini, Allaha sevgini, imanı özündə əks etdirir. Bəzi araşdırmalarda yazı sənətinin yüksəldiyi şəkil və xətt zənginliyi hədislərdə canlı varlıqların təsvirini qadağan edən hökmlərlə əsaslandırılmışdır. Bu əsaslandırmalarda yaradıcılığı qadağan qarşısında məhdudlaşan sənətkarın bütün bədii güc və qabiliyyətini yazı və naxış sənətinə verdiyi ifadə edilmişdir. Bu fikirləri qismən qəbul etməklə yanaşı, bildirmək lazımdır ki, müsəlman sənətkarların xətt sənətində nail olduqları ifadə, güc və forma zənginliyi İslamın təlqinlərində, tövhid inancında və anlayışında, sənətkarın imanında axtarılmalıdır. Yalnız xətt deyil, digər İslam sənətləri də Allaha iman və pak duyğuların ətrafında formalaşmışdır. Bir mərkəz ətrafında hörülən naxışda, memarlıq, musiqi və xətt sənətinin təfərrüatında və ərsəyə gəlmiş əsərdə birlik, yekparəlik, təmkin və məntiqli üslub müşahidə olunur.

İslam coğrafiyasında siyasi, iqtisadi, memarlıq və mədəniyyət sahəsində gedən inkişafa paralel olaraq xətt və İslama xas digər sənətlər də Quran və hədislər ətrafında formalaşmış, yüz illər ərzində fərqli üslublar və çox zəngin şəkillər qazanmışdır. Bu mücərrəd cizgilər fövqəladə musiqili ifadə gücünə çatmış, dini təsir gücünə malik olması ilə yanaşı, bəzi Qərb modernist rəssamları da öz ağuşuna ala bilmişdir.

Ərəb xəttatlığı Allah-Təalanın nizamına hörmət və sevgi ilə ağıllı və şüurlu şəkildə işlənirdi. Zaman keçdikcə bu xəttatlıq təbiətin və canlıların, quşların, həmçinin müxtəlif həndəsi fiqurların istifadəsi ilə təsvir olunmağa başladı. Bütün xəttatlıq növləri həndəsi nizam, ağıl, diqqət və tam

təbiiliklə təsvir olunmuş, öz zərifliyi və incəliyi ilə seçilməkdədir. Onlar arasında dini-ictimai məzmunlu əsərlər də yer alır [1, s.23].

İslam düşüncəsinin ən diqqətə çarpan xüsusiyyətlərindən biri varlığın mütləq və obyektiv mənada gözəl forma və görünüşə sahib olması anlayışıdır. Gözəllik varlığın özündə olan bir şeydir. Çünki Allah "... yaratdığı hər şeyi gözəl yaratmışdır" ("Səcdə", 7). Qısaca, varlıq bu mümkün quruluşun hüdudlarında həm mükəmməl, həm də gözəldir. Bu gözəllik insanın mütləq cəlal və camal sahibi olan Yaradana qovuşmasına vəsilə ola biləcək xüsusiyyətdədir. Bunun ən mühüm şərti də surət və məna gözəlliyini bütünlük içində görməkdir [2, s.98]. İslam xəttatlığında məna gözəlliyinin surət gözəlliyində əksini tapması, məna və surətin estetik bütünlük təşkil etməsi xəttatın vüsala çatması üçün bir "yol"dur.

Dini-əxlaqi prinsiplərə əsaslanan ərəb yazısında yüksək dəyərlər cəm olunmuşdur. Bu dəyərlər İslam dininin fəlsəfəsini əks etdirir.

İslam xətt sənətinin inkişafına təsir edən ən önəmli xüsusiyyətlərdən biri bu yazını meydana gətirən hərflərin plastik imkanlar baxımından zəngin olmasıdır. Bu plastik imkanlar xəttatlar üçün geniş diapazonlu ifadə zəmini yaradır.

Xətt İslam sənətidir. Onun daxili ahəngində (dəruni ahəng) İslam düşüncəsi, iman və həyəcanı hakimdir. Bu düşüncə əsalətini, xarakterini, estetikasını millətlərin zövqləri ilə bərabər İslam dinindən alır. İlahi bilgilər, hikmətli, gözəl və təsirli sözlər yazı ilə ortaya çıxır, görülən və qəlbən hiss edilən mərhələyə çatır. Hərf və sözlərdən ibarət geniş bir məna aləmi açılır. Daimi qaynaqdan su kimi axan, Allahın, Rəsulunun və vəlilərinin insanlığa çatdırmaq istədiyi mənalar, yüksək həqiqətlər ortaya çıxır. Məna forma alır, hərflər və onu tamamlayan ünsürlər ilahi örtüyə bürünür, yazı ilahi mesaj ilə çulğalaşır, bütünləşir, müqəddəsləşir və onları sətirlərə düzən hünərli katibin (xəttatın) gözəllik həsrəti, ruhu yazıda öz əksini tapır, yazı büllurlaşır. Gözəl şəkil, söz və məna ahəngi içində axıb gedən bu sətirlərə xüşu* ilə dalır, könüllər xaşyət** ilə Allaha yönəlir [3, s.85-86].

Ərəb yazısının ədəb və əxlaqa əsaslandığını irəli sürənlərdən biri, "Mədəniyyət aləmində yazı və İslam mədəniyyətində qələm gözəli" əsərinin müəllifi Mahmud Bədrəddin Yazır gözəl yazıda fitrətdəki kimi bir təmizliyin olduğunu söyləyir. Daha sonra qeyd edir ki, bu təmizliyə təkəbbürlü vicdanlar, pis ruhlar toxuna bilməz, yalnız uzaqdan baxmaqla kifayətlənərlər [4, s.149].

Yazı sənəti öz ənənə və üslublarının qəti qaydaları çərçivəsində qalmaqla yanaşı, xəttatın şəxsiyyətinə də bağlı məqamları olan məsələdir. Sənətkarın daxili dünyası yazıda öz əksini tapır. Xəttatın ruhi halı, iztirabları, keçirdiyi böhranları və malik olduğu kamalı yazıda sezilir. Yazıdakı camal, yumşaqlıq və ya sərtlik, rahatlıq və ya narahatlıq, kəskinlik, nizam, təmizlik, səliqə, əzəmət və təmkin kimi insanda heyranlıq hissi oyadan dəyərlər sənətkarın özüdür. Sənətkarın (xəttatın) ruhi halına görə yazı estetik dəyər qazanır [3, s.88]. İslam tarixi boyunca ali mənəvi dəyərləri, ruhani eşqi, yüksək estetik zövqi ilə xətt sənətini yaşadan, onu inkişaf etdirən məşhur xəttatlar vardır ki, onlar yazını İslam sənətinin tacı etməyə müəssər olmuşlar.

Məşhur xəttat İbn Müqlə ilk dəfə hər bir xəttin nisbi ölçüsünü hesablamaqla nisbi yazının (əl-xətt əl-mənsub) standartlaşdırılmış sisteminin izahını vermişdir. Hər bir hərfin ölçüsü əlifbanın ilk hərfi olan əlifin ölçüsünə əsaslanırdı, o özü isə şaquli xətt formalaşdırırdı. Əlifin uzunluğu qələmin diaqonal şəkildə bərkidilməsi yolu ilə almaz şəkilli rombun bucaqlarının sayı ilə müəyyənləşirdi.

İbn əl-Bəvvab İbn Müqlənin romb sistemini daha da genişləndirərək, əlifi yuvarlaq (dairəvi) yazmış və əlif özündən sonrakı hərflərin ölçüsünü təyin etmək üçün əsas meyar hesab olunmuşdur. Bununla da, dairənin radiusu nisbi uzunluğu təmin etmişdir. X əsrdən bu günə kimi istifadə olunan bu nisbi yazı sistemi getdikcə dəyişmiş və maili (kursiv) yazı ustadları tərəfindən təkmilləşdirilmişdir [5, s.11].

Xətt ustadları tərəfindən yazıdakı tənasüb formalaşdırılaraq qorunmuşdur. Tənasüb qələm qalınlığına görə hərf strukturlarının en və boyları ilə incəlik və qalınlıqları arasındakı uyğunluqdur.

Xətt sənətindəki hərflərin şəkilləri, tənasüb, kəşidələrindəki sükunət, dik xətlərdəki tarazlıq və ahəng, yazının ifadə etdiyi məna insanda müxtəlif duyğular oyandıra biləcək qədər zəngindir. Lakin yazı üslublarının estetik qanun və nizamlarını bilmədən, oxuyub anlamadan yazı gözəlliyinin zövqünə varmaq qeyri-mümkündür. Yazı gözəlliyi yalnız xətlərin, cizgilərin ahəng və tənasübü deyildir. Xətlərə hökm edən gizli bir məna ilə sənətkarın ruhi və fikri gözəllikləri çulğalaşaraq yazının mənəvi ahəngini meydana gətirir. Beləliklə də, İslam yazılarında gözəllik şəkil və mənanın tövhidi ilə təcəlli edir.

İslam təfəkkürü və imanı ilə dühasını və istedadını inkişaf etdirən, üfüqlərini genişləndirən müsəlman sənətkarlar kainatda görünən fanilik və çoxluqda əzəli bir bəqa və birlik sezmişlər, minlərlə naxış və surətdən başlayaraq yavaş-yavaş hüsnü-aliyə yüksəlmişlər. Abidələrdə, şeirlərdə, bəstələrdə, xətlərdə elə hey o vəhdət dəryasına qərq olmanın zövqünü və ahəngini əks etdirmişlər, camala olan eşqlərini dilə gətirmişlər [6, s.9].

Tərkib hərf və kəlmələrin təsadüfi bir araya gətirilməsi, üst-üstə yığılması, təqlid etmək surəti ilə rəsm edilməsi deyil, xəttatın estetika və istif qaydalarına uyğun şəkildə ustalıqla qələmini hərəkət etdirməsidir. Əgər kompozisiya, mətnin oxunuş sırasına görə hərf və kəlmələr nizamlı şəkildə, aşağıdan yuxarıya doğru, üsula uyğun olaraq hazırlanmışsa, "təşrifatlı" və ya "təşrifatı yerində"; hərf və kəlmələrin yerləri dəyişmiş, qabağa çıxarılmış, yaxud geridə buraxılmışsa, "təşrifatı pozulmuş" deyilir. Təşrifatsız yazıların oxunması çətin, təşrifatlı istiflərin oxunması isə daha asandır [3, s.87].

Qeyd etmək lazımdır ki, xəttatlar ədəb və ərkandan irəli gələrək ayə və hədislərin oxunmasında xətaya yol verməməyə hər zaman səy göstərmişlər. Məsələn, kompozisiyalarda Allah kəlməsinin üstdə yazılmasına diqqət etmişlər. Əgər mətn Allah kəlməsi ilə başlayırsa, kompozisiya hörmət əlaməti olaraq yuxarıdan aşağıya doğru icra edilmişdir.

Tarix boyunca olduğu kimi, günümüzdə də öz əhəmiyyətini və sirrini qoruyub saxlayan xətt sənəti İslam mədəniyyətində "gözəl yazı yazmaq" mənasını daşıyır.

"Cismani alətlərlə meydana gətirilən ruhani həndəsədir" cümləsi ilə təyin olunan xətt sənəti daha açıq ifadə ilə xəttatların "qamış qələm, ahərli kağız, his mürəkkəbi kimi yazı vəsaitlərinin köməyi və daim gözəllik axtarmaq səyləri ilə ərəb hərflərini şəkilləndirməsi"dir [7, s.59].

Qeyd etmək lazımdır ki, əlyazma əsər yalnız mətn deyildir. O, eyni zamanda orta əsr müsəlman Şərqinin intibahını özündə əks etdirən incəsənət əsəridir. Əlyazma kitabların ərsəyə gəlməsində müəllifdən başqa, bir qrup kitab sənəti ilə bağlı sənətkarların - xəttat, müzəhhib, nəqqaş, mücəllid və s. sənət adamlarının əməyi vardır. Hər bir sənətkar əsərə estetik cəhətdən müəyyən dəyər qatmışdır. Əlyazmanın estetik məziyyətlərindən öndə gələni, daha tez görünəni xəttat işidir. Əli Hərəviyə görə, xəttat olmaq üçün beş şey gərəkdir: diqqəti tab, yazıdan anlamaq, əldə qüvvət, əmək sərf etmək, yazı üçün lazımlı kağız, qələm və mürəkkəbin ən yaxşılarının tapılması.

İslam tarixində məktəb sahibi olmuş xəttatlar özlərindən əvvəlki sənətkarların əsərləri üzərində uzun zaman çalışaraq öz məktəblərini formalaşdırmışlar.

Xətt sənətində dönüş nöqtəsi kimi qəbul edilən hadisə İbn Müqlənin qardaşı Əbu Abdullah Həsən ibn Əli ilə məvzun xətləri (müstədir) təsnifləndirməsi, hərflərin həndəsi ölçü (həndəsətül-huruf) və qaydalarını müəyyən etməsi, "əqləmi sittə"nin ortaya çıxmasına zəmin yaratmasıdır [8, s.22-23]. Əbu Əli Məhəmməd ibn əl-Hüseyn ibn Müqlə əl-Bağdadi məşhur xəttat olmaqla yanaşı, həm də Abbasi vəziri olmuşdur. Hicri 272-ci il şəvval ayının 27-də Bağdadda xəttat ailəsində dünyaya göz açmışdır. O, İbn Müqlə ləqəbi ilə məşhurlaşmışdır. İbn Bəvvaba qədər İbn Müqlənin yazıları xəttatlara nümunə olmuşdur. Məhz bu səbəbdən o, "imamul xəttatin" kimi şöhrət qazanmışdır.

"Töhfəyi-xəttatin" əsərində İbn Müqlədən yazı məşq edərək və ya onun xəttini nümunə götürərək tanınan xəttatların adları qeyd olunmuşdur. Onlardan bəziləri aşağıdakılardır: Əhməd ibn Əban ibn Seyyid (ö.381/991); Əhməd ibn Əhməd ibn Həsən ibn Məhəmməd (ö.371/981); İsmayıl ibn Həmmad (ö. 393/1002); Həsən ibn Abdullah əl-Məhzübani (ö. 368/978); Xələf ibn Süleyman (ö. 398/1007); Abdullah ibn Məhəmməd ibn Əsəd ibn Əli ibn Səid (ö. 375/985); Əli ibn Hətəm, İsa ibn Əli ibn İsa (ö. 391/1000); Küdamə ibn Cəfər (ö. 337/948); Məhəmməd ibn İsmayıl, Yəhya ibn Adiy ibn Həmid (ö. 364/974). İbn Müqlənin tələbələri arasında adı keçən İsmayıl ibn Həmmad Fərab şəhərindəndir. Yaqut əl-Həməvinin təsbitinə görə türk əsillidir. Ona Əbu Nəsr əl-Cevhəri də deyirmişlər. "Sihahi-Cevhəri" adlı lüğətin müəllifidir. Xətt sənətində onun İbn Müqlə səviyyəsində bir xəttat olduğu deyilir [9, s.73].

İbn Müqlə artıq öz dövründə məktəb yaradaraq iz qoymağı bacarmış, kamil xəttat kimi İslam xətt sənəti tarixində mühüm yerə sahib olmuşdur.

İbn Müqlədən sonra ikinci böyük xətt ustası İbn Bəvvab sayılır. İbn Müqlə vəznli xətlər arasında xarakter və xüsusiyyətləri bir-birinə yaxın olanları qruplaşdırmış, hərflərin dairə əsasına görə həndəsi nisbətləri ilə qaydalarını ortaya qoymuş, beləliklə, mənsub xətlərin (əqləmi-sittə) meydana çıxması üçün ilk əhəmiyyətli islahatı etmişdir. İbn Bəvvab isə onun "əqləmi-sittə"də təsbit etdiyi bu estetik qaydaları daha incə həndəsi nisbətlərə bağlayaraq üslubunu gözəlləşdirmişdir. Bənzər üslubların ortaq xüsusiyyətlərini müəyyən edərək təsnifləndirmiş, qələmlərin sayını səkkizə endirmiş, beləliklə də, "əqləmi sittə"nin təşəkkülündə böyük bir yeniliyə imza atmışdır. Xətt sənəti sahəsində ortaya qoyduğu gözəl nümunələr daha sonra yetişən xəttatları öz təsiri altına almış, onun yazı üslubu İslam dünyasında üç əsrə yaxın müddətdə hakim olmuşdur.

İbn Bəvvabın hicri IV əsrin ikinci yarısında doğulduğu təxmin edilir. Həyatının böyük bir hissəsini Bağdadda keçirən İbn Bəvvab dini elmləri İbn Səmundan, qiraəti Übeydullah əl-Mərzübanidən, ədəbi elmləri Əbul Fəth Osman ibn Cinnidən öyrənmişdir. Xətt sənətini Məhəmməd ibn Əsəd və Məhəmməd ibn Simsimanidən (Simsimi) məşq etmişdir. Bağdadda Mənsur məscidində bir müddət vaizlik, həmçinin rəssamlıq, nəqqaşlıq, cildçilik, müzəhhiblik və xəttatlıqla məşğul olaraq yaşayışını təmin edən İbn Bəvvab elə həmin şəhərdə də dünyasını dəyişmişdir. "Babülhərb" məzarlığında Əhməd ibn Hənbəlin türbəsinin yanında dəfn edilmişdir. Bəzi qaynaqlarda ölüm tarixi 423 (1032) olaraq qeyd edilir.

Xətt sənətində ən böyük ustadlardan biri olan İbn Bəvvabın altmış dörd müshəf istinsax etdiyi bildirilir. Bunlardan dövrümüzə gəlib çatan və ona aid olduğu dəqiq olan ən gözəl müshəf Dublində "Chester Beatty" kitabxanasında "nr.1431" şifrəsi altında qorunub saxlanılır. 391-ci ildə

Bağdadda istinsax edilən bu nüsxə 17.7x13.7 ölçülərindədir, 286 vərəqdən ibarətdir və hər səhifədə on beş sətir vardır. Surələr reyhani, surə başları tövqi xətləri ilə yazılmışdır. Ayə sonları mavi rəngli üç nöqtə ilə göstərilmiş, hər beş ayədə bir beş rəqəminin əbcəd qarşılığı olan "hə" hərfini təmsil edən damla şəkli qoyulmuşdur. Hər on ayəni göstərən "aşarə" işarəsi surələrin içində və kənarda medalyon şəklindədir. Fərağ qeydində əlyazmanın müzəhhibi göstərilməsə də, onun İbn Bəvvab tərəfindən təzhibləndiyi ehtimalı yüksəkdir. Çünki yuxarıda qeyd olunduğu kimi, İbn Bəvvab həmçinin müzəhhibliklə də məşğul olmuşdur.

İbn Bəvvabın xətti ilə dövrümüzə qədər gəlib çatan digər bir əsər cahiliyyə dövrünün şairlərindən Səlamə ibn Cəndəlin divanıdır. Bu divan Topqapı Saray Muzeyinin Kitabxanasında, "Bağdad köşkü"ndə "nr. 125" şifrəsi altında mühafizə edilir. Əsərin ölçüsü 42x31 sm-dir. Bu əlyazma otuz dörd ahərli vərəqdən ibarətdir. Divanın kətəbə səhifəsində İbn Bəvvabın imzası vardır. Kətəbə səhifəsi dörd sətir reyhanidən sonra bir sətir süls, daha sonra beş sətir reyhanidən sonra iki sətir tövqi xətti və qızıl mürəkkəblə yazılmış, hərflərin ətrafı qara mürəkkəblə təhrirlənmişdir. Kətəbə qeydindən hicri 408-ci ildə, Ramazan ayında yazıldığı anlaşılan bu divanın cildi və təzhibi də böyük ehtimal ki, elə həmin tarixə aiddir. Baş tərəfində Yavuz Sultan Süleymanın möhürünün olması əlyazmanın sultanın şəxsi kitabxanasına aid bir nüsxə olduğuna dəlalət edir. İbn Bəvvabın yazı üslubu Yaqut əl-Müstəsimiyə qədər xəttatlara nümunə olmuş, bu üslubu təqib və təqlid etməyi bacaranlar böyük sənətkar hesab edilmişlər. Bu sənətkarlardan İbn Xəzin künyəsi ilə tanınan Əbül Fəzi Əhməd ibn Məhəmməd əd-Dinəvəri (ö. 518/1124) daha çox riqa və tövqi yazılarını inkişaf etdirmişdir. Qadın xəttatlardan İbn Bəvvab məktəbini təmsil və davam etdirən böyük sənətkarlar arasında Şühdə əl-Katibə ləqəbi ilə tanınan hədisçi Zeynəb bint Əhməd ibn Əbul Fərəc əl-İbəri əl-Bağdadinin, Əminüddin Yaqut əl-Məvsili əl-Məlikinin, tələbəsi Vəliyüddin ibn Zəngi əl-Əcəminin, musiqişünas Səfiyəddin əl-Ürməvinin adı çəkilir. Yetişdirdiyi tələbələrdən yalnız Məhəmməd ibn Mənsur ibn Əbdülməlikin adı təsbit edilmişdir [10, s.534-535].

İbn Bəvvabdan dərs almış Yaqut əl-Müstəsimi İslam kalliqrafiya tarixində mühüm yer tutan xəttatlardandır. Son Abbasi xəlifəsi əl-Müstəsiminin köləsi olan Cəmaləddin Yaqutun adına ilk dəfə hicrətin 600-cü ilində rast gəlinir. O, Amasyada doğulmuşdur. Özünəməxsus yazı üslubu ilə "Qiblətül-Küttab" (yazı yazanların qibləsi) adını alan Yaqut yazıya düz uclu qələm ilə başlamış, daha sonralar qələmin ucunu əyri kəsərək yazıya yenilik gətirmişdir. Alim, şair və kamil insan olduğu deyilən Yaqutun min bir Quran istinsax etdiyi rəvayət olunur. Ayasofya Muzeyində 654-cü il tarixli, Baxçaqapıda Hamidiyyə türbəsində 622-ci il tarixli iki ədəd Yaqutun üzünü köçürdüyü Quran nüsxəsi vardır. Qahirədə Hidiviyal Muzeyində 689-cu il tarixli bir Qurani-Kərim qorunub saxlanılır. Onun istinsax etdiyi bir Qurani-Kərim də Fransa Milli Kitabxanasındadır.

Rəvayət olunur ki, Yaqut xəlifənin lütfkarlığına nail ola bilmək arzusu ilə mütəmadi yazar və yazdıqlarını xəlifəyə göstərərdi. Xəlifə isə İbn Bəvvabın yazılarını təriflәyər, onun yazılarına üstünlük verərdi. Xəlifəni bu düşüncəsindən daşındırmaq üçün bir gün Yaqut iki sətir yazı yazır. Birinin altında özünün, digərinin altında isə İbn Bəvvabın imzasını qoyur. Xəlifə İbn Bəvvab imzalı yazını bəyənəndə, Yaqut: "Çox şükür, Ya Rəbb! Nəhayət, xəlifə köləsi Yaqutun da yazısını bəyəndi", – deyə qışqırır. Xəlifə aldadıldığını anladıqda çox əsəbiləşir və Yaqutu bir müddət iltifat və lütfkarlıqlarından məhrum edir. Bundan sonra Yaqutun yazısı yavaş-yavaş geriləməyə və gözəlliyini itirməyə başlayır. Yaqut hicri 698-ci ildə Bağdadda vəfat etmiş və özünün yazıları olan

məscidin məzarlığında dəfn olunmuşdur [11, s.15].

Azərbaycanlı xəttat Xacə Mir Əli Təbrizi nəstəliq xəttini tərtib edən şəxs kimi tanınır. Ədəbiyyatda bunu təsdiq edən materiallar sırasında bir şeir də vardır ki, farscadan tərcüməsi belə səslənir: nəstəliq xəttinin istər narın, istərsə də iri yazısını icad edən Xacə Mir Əlidir. Bu adamın vətəni Təbrizin pak torpağı olduğuna görə onun qələmindən şəkər tökülür [12, s.27-29].

Təzkirələrdə Mir Əlinin nəstəliq xəttinin icadı ilə bağlı bir rəvayət də nəql edilir. Bir gecə Mir Əli "Ya Rəbb! Mənə bir xətt ehsan eylə ki, məndən öncə qələmlə rəsm edilməmiş olsun", – deyə Allaha yalvarır. O gecə aləmi-mənada Həzrət Əlini görür və ayaqlarına düşərək muradını söyləyir. Həzrət Əli "Ey mərdi-xüda, qaz dedikləri quşa bax və onun cizgilərindən, gərdənindən başlayaraq, mərkəzə doğru tədricən çuxurlanan şəkillərdən ilham alaraq bir gözəl yazı çıxar" deyə işarət eyləyir. Məhz bu mənəvi işarətdən sonra onun nəstəliq xəttini icad etdiyi rəvayət olunur [9, s.317].

Nihad Boydaş İslam xətt sənətində klassik ənənələrə əsasən "əqləmi-sittə" adlanan böyük yazılar içinə daxil edilə biləcək qədər inkişaf edən təliq yazısının yaranması haqqında tədqiqatların lazımi səviyyədə aparılmadığını, bu yazının ortaya çıxmasını və inkişafını elmi cəhətdən izah edə bilmək üçün yarandığı dövrü, coğrafi bölgəni, dövrə aid ənənələri, siyasi mühiti nəzərdən keçirmək lazım olduğunu söyləyir. Qeyd edir ki, bu yazı növünün icadı bir xəttata aid edilmiş və həmin xəttatın (Mir Əli Təbrizini nəzərdə tutur) həyatı inandırıcı olmayan hekayələrlə bəzədilmişdir [12, s.85]. Daha sonra o, Əkrəm Haqqı Ayverdinin təliq və nəstəliq yazılarının 1417-ci ildə Mir Əli Təbrizi tərəfindən icad edildiyi fikrini qəbul etmədiyini və bu yazının ilk nümunələrinin daha əvvəl meydana gəldiyi, Mir Əlinin bu yazını islah etdiyi qənaətində olduğunu vurğulayır [13, s.89]. Amma qeyd etmək lazımdır ki, xətt və xəttatlar haqqında mötəbər mənbə sayılan "Gülzari-Səvab" əsərində Hüseyn Bayqaranın tələbəsi olan Mir Əli Təbrizinin "nəstəliq" adlı bir yazı icad etdiyi, həmçinin bu zatın övliya olduğu deyilir [14, s.22-23].

Osmanlılarda böyük məktəb sahibi olan xəttat Şeyx Həmdullah Əfəndi (1436-1520) özündən əvvəl məktəb qurmuş xəttat Yaqut əl-Müstəsiminin əsərləri üzərində uzun zaman çalışmış, onlardan bəhrələnmişdir. Başqa bir tədqiqatda isə qeyd olunur ki, o, Yaqut əl-Müstəsiminin tələbəsi olan Abdullah Sayrafinin şagirdi Hayrettin Məraşidən dərs almışdır [15, s.19]. Şeyx Həmdullah Əfəndi İbnu Əş-Şeyx, Qiblətülküttab, Qütbülküttab, Şeyxurramiyan adları ilə də tanınır [16, s.12]. Qaynaqlarda Şeyx Həmdullahın qırx yeddi Qurani-Kərim, çox sayda Quran cüzü istinsax etdiyi keçir [17, s.16] Süleymaniyyə Kitabxanası və İstanbul Universiteti Kitabxanasında onun çox sayda əsərləri vardır. Muzey və kitabxanalarda bu xəttatın imzası olan və ya başqa bir xəttat tərəfindən ona aid olduğu göstərilən otuz Müshəf, çoxlu sayda cüz, 121 mürəqqa və qitə ilə yanaşı, bir çoxu Fatih Sultan Mehmed üçün istinsax edilmiş tibb və hədisə dair səkkiz kitab mövcuddur [9, s.98; 15, s.85]. Qeyd etmək lazımdır ki, Osmanlıların qabaqcıl xəttatlarından olan Hafiz Osman Əfəndi Şeyx Həmdullah Əfəndinin yazıları üzərində uzun müddət çalışaraq öz məktəbini təsis etmişdir [18, s.7].

Xəttatlıq sənətində müəllim-tələbə əlaqələri olduqca vacib hesab edilir. Həzrət Əli: "Gözəl yazı müəllimin öyrətməsində gizlidir, kamilləşməsi çox yazmaqda, davamı da İslam üçün olmasındadır", Həzrət Mövlanə isə: "Sənət ustasız öyrənilməz" - deyərək müəllimin önəminə diqqət çəkmişlər.

Xətt sənətinin böyük ustası olan, Qiblətül-Küttab kimi tanınan Şeyx Həmdullahdan yazıda müvəffəqiyyətin sirrini soruşanda: "Gözlərimi müəllimimin əlinə və qələminə verdim. Bir hərfi ən gözəl şəkildə yazana qədər bezmədən, yorulmadan, usanmadan yazdım, yazdım, yazdım…" –

deyərək müəllimin və çox çalışmağın sənətdə müvəffəqiyyətli olmaq yolunda inkar edilməyəcək iki mühüm amil olduğunu vurğulamışdır [19, s.5].

Xəttatlığın fəlsəfəsindən söz açan Şinasi Acar qeyd edir ki, sənətlərinin ucalığı ruhlarını təmin etdiyindən, təbiətcə təvazökar olan xəttatlar dərvişanə həyat yaşamışlar. Onların əksəriyyəti təsəvvüf fəlsəfəsini mənimsəmiş "sofi-məşrəb" və dəryadil insanlardır. Onlar özlərini Tanrıya həsr etmiş, işini müqəddəs hesab edən, mala-mülkə, vara-yoxa, paraya-pula, məqam və mövqeyə əhəmiyyət verməyən insanlardır [20, s.22-23]. Xəttatlar sənətin zirvəsinə qalxmaq üçün bu sənətin qulu, köləsi olmuş, ömürləri boyu hər gün məşq etmiş, yazı işini ibadət halına gətirmişlər.

Əlyazmaların çoxaldılmasında həyatını əlyazma üzünü köçürməyə həsr edən müstənsixlərin də əhəmiyyətli rolu vardır. Erkən dövrlərdə müstənsixlər nasix, çox geniş yayılmasa da, katib və ya mühərrir adlandırılırdılar.

İbn Nədim İslam tarixində müstəsna yerləri olan ilk müstənsixlər haqqında aşağıdakı məlumatı vermişdir: "İslamın erkən dövrlərində Quranı ilk istinsax edən, yazısının gözəlliyi ilə tanınan Xalid ibn Əbu Həyyacdır. Onun istinsax etdiyi bir Quran nüsxəsini gördüm. Səəd onu Vəlid ibn Abdulməlik üçün (xilafəti 86-96/705-715) Quran, şeir və əxbar yazmaqla vəzifələndirirdi. O, Peyğəmbər məscidinin qiblə divarındakı "və-ş-Şəmsi va dühaha" ayəsindən Quranın sonuna qədər olan qismini qızılla yazmışdır. Rəvayət edildiyinə görə, Ömər ibn Əbdüləziz ondan eyni şəkildə Quran istinsax etməsini istəmiş, Xalid ibn Əbu Həyyac da böyük bir etina ilə gözəl bir Quran nüsxəsi istinsax etmişdir. Ömər bu nüsxəni gördükdə çox bəyənmiş, lakin qiymətini çox bahalı hesab etdiyindən almamışdır". İbn Nədim bu rəvayətdən sonra istinsaxla məşğul olan müstənsixlərin adlarını qeyd etmişdir [19, s.282].

Təbii ki, istinsax edilən kitablar arasında ilk sırada Qurani-Kərim dayanır. Beş yüz, hətta min müshəf üzünü köçürən müstənsixlərin olduğunu [21, s.283] qeyd edən məşhur əlyazmaşünas alim İsmail Erünsal bu mövzu ilə bağlı maraqlı mülahizələr ortaya qoymuşdur. O qeyd edir ki, müshəf istinsaxı müstənsixlər üçün önəmli gəlir qaynağı olmuşdur. Hər nə qədər haqq (əlmuzdu) qarşılığı müshəf yazmağın caiz olmadığına dair fikirlər mövcud olsa da, bir çox alim bu mövzuda haqq almanın məşru olduğuna dair fikirlər ortaya qoymuş və bu, əsrlər boyu belə də davam etmişdir.

Aparılan tədqiqatlar bizə onu deməyə əsas verir ki, İslam tarixi boyunca kalliqraflar – xəttatlar ilə yanaşı, müstənsixlərin də xətt sənətinin inkişafına müəyyən töhfələri olmuşdur. Lakin İslam xəttinin estetik baxımdam mükəmməlləşməsi, inkişaf etməsi, İslam xəttatlığının sənət zirvəsinə ucalmasında məhz xəttatların təkzibedilməz rolu, əməyi olmuşdur. Onlar bu sənətə Allaha ibadət kimi təmiz, qəlbən, mənəvi dəyərləri hifz edərək qulluq etmiş, İslamın etik və estetik anlayışlarını xətt nümunələrində kodlaşdırmış, gələcək nəsillərə ötürmüşlər.

# ƏDƏBİYYAT


1. Zeynəddin Naci. Ərəb xəttinin gözəlliyi. Bağdad: 1972.
2. Koç Turan. İslam Estetiği. İstanbul: İSAM yayınları, mart 2008.
3. Serin Muhittin. Hat Sanatı. İslam Sanatları Tarihi. 6.baskı, Eskişehir: Anadolu Universitesi Yayınları, 2013.
4. Yazır Mahmud Bedreddin. Medeniyyet aleminde yazı ve İslam medeniyyetinde kalem güzeli. Ankara: Ayyıldız matbaası, 1972.
5. The Islamic Manuscript Tradition: Ten Centuries of Book Arts in Indiana University Collections. (Editeted by Christiane Gruber) İndiana University, 2010.
6. Serin Muhittin. Hattat Aziz Efendi. II Baskı, İstanbul: Kubbealtı, 1999.
7. Tüfekçioğlu Abdulhamit. Osmanlı Sanatının Oluşumunda Yazı / Hat ve Tezhip Sanatı. Ankara: T.C. Kültür ve Turizm Bakanlığı Yayınları, 2009.
8. Serin Mühittin. Mushaf-I Şerif hatları // Klasik sanatlar yıllığı: 2013. Ankara: Diyanet İşleri Başkanlığı, 2014.
9. Serin Muhittin. Hat sanatı ve meşhur hattatlar. İstanbul: Kubbealtı neşriyatı, 2003.
10. Serin Muhittin. İbnu`l- Bevvab // İslam Ansiklopedisi. İstanbul: TDV, 1999.
11. Sevgili Turan. İstanbulun güzide hattatları. İstanbul: İstanbul Büyükşehir Belediyesi; Kültür A.Ş., 2017.
12. Darabadi Q.A. Kalliqrafiya. Bakı: ADU nəşriyyatı, 1953.
13. Boydaş Nihat. Talik yazıya plastik değer açısından bir yaklaşım. Ankara: Milli Eğitim Bakanlığı, 1994.
14. Nefes Zade İbrahim. Gülzar-ı savab. İstanbul: Güzel Sanatlar Akedemisi Neşriyatı, 1939.
15. Soylu Sedef. Şeyh Hamdullah ve II Beyazid // Klasik sanatlar yıllığı: 2014. İstanbul: Diyanet İşleri Başkanlığı, 2015.
16. Kubbealtı Ekrem Hakkı Ayverdi Koleksiyonundan Seçme Eserler Sergisi. Sadberk Hanım Müzesi, İstanbul: Sadberk Hanım Müzesi, 2000.
17. Berk Süleyman. İstanbul'un 100 hattatı. İstanbul: İstanbul Büyükşehir Belediyesi Kültür A.Ş., 2010.
18. Berk Süleyman. Devlet-i Aliyye'den Günümüze Hat Sanatı: tarihçe, malzeme ve örnekler. İstanbul: İnkilab yayınları, mart 2013.
19. Gelenekten geleceğe icazetname albümü: Hamid Aytaç'dan 2007'e. Genelen yayın yöneticisi: Hüseyin Kutlu. Çevirenler: İzzet Elitaş, Mustafa Çiçekler. İstanbul: Uygulamalı Türk-İslam Sanatları Kütüphanesi Yayınları, 2007.
20. Acar M. Şinasi. Türk hat sanatı (araç, gereç ve formlar) = Turkish calligraphy (materials, tools and forms). Çeviren: Bilgi Altınok. İstanbul: Antik A.Ş. Kültür Yayınları, 1999.
21. Erünsal İsmail E. Orta Çağ İslam dünyasında kitap ve kütüphane. İstanbul: Timaş Yayınları, 2018.

**Qeydlər:**

* "Xüşu" (Huşu) kəlməsinin anlamı İlhan Ayverdinin "Nümunələrlə Böyük Türkcə Lüğət"ində (Misalli Büyük Türkçe Sözlük) bir neçə variantda verilmişdir: 1.Varlığın fərqində olmayacaq dərəcədə özünü qarşısında olduğu şeyin heybət və cazibəsinə təslim etmək; 2. Təvazökarlıq göstərmək; 3. Din və təsəvvüf. Allahın əzəməti qarşısında bəndənin təvazökar olub, nəfsini xor görməsi, ürəyi ürpərmə və qorxu ilə dolu olaraq Cənabi-Haqqa boyun əyməsi.

** "Xaşyət" (haşyet) sözünün anlamı isə iki variantda təqdim olunur: 1.Hörmətlə qarışıq qorxu, ululuq qarşısında duyulan könül titrəməsi, ürəkdə duyulan ürpərmə, qorxu; 2. Din və təsəvvüf. Allahın böyüklüyünü, əzəmətini idrak edən bəndənin Ona layiqincə təzim edə və qulluğunda dura bilməmək qorxusuyla qəlbində hiss etdiyi ürpərmə, qorxu, Allah qorxusunun üst dərəcəsi. (Ayverdi İlhan. Misalli Büyük Türkçe Sözlük. 2.baskı, İstanbul: Kubbealtı, Kasım, 2011.)

Сабина Нейматзаде, Сабира Нейматзаде

# ИСЛАМСКАЯ КАЛЛИГРАФИЯ И ЗНАМЕНИТЫЕ КАЛЛИГРАФЫ

## РЕЗЮМЕ

Каллиграфия является одной из отраслей изобразительного искусства и означает «красивое письмо». Мусульманская каллиграфия отражает в себе глубокую философию исламского мышления, этические и эстетические взгляды, терпение, верование и любовь к Всевышнему.

На протяжении всей истории ислама были такие знаменитые каллиграфы, которые развивали искусство письма с высокими моральными ценностями, духовной любовью и высоким эстетическим вкусом, богатым мировоззрением. Им удалось сделать арабскую каллиграфию венцом исламского искусства.

Ибн Мукла, известный каллиграф, который считался поворотным моментом в арабской каллиграфии, со своим братом Абу Абдулла Хасан бин Али определили геометрические размеры (Хендасатуль-хуруф) букв и заложили основу для появления «Аклями-Ситта» – шести канонических стилей арабского письма. Ибн Бавваб, учитель Ягута аль-Мустасими, сыгравшего важную роль в истории исламской каллиграфии, считался вторым великим каллиграфом после Ибн Муклы, а азербайджанский каллиграф Мир Али Тебризи был известен, как личность, составивший вид каллиграфического письма «Насталик». Шейх Хамдулла Эфенди, владелец османской школы каллиграфии, стал самым искусным художником своего времени, работая над произведениями каллиграфа Ягута аль-Мустасими.

Sabina Nematzade, Sabira Nematzade

# ISLAMIC CALLIGRAPHY AND FAMOUS CALLIGRAPHERS

## SUMMARY

Calligraphy is one of the branches of the visual arts and means «beautiful writing». Muslim calligraphy reflects the deep philosophy of Islamic thinking, ethical and aesthetic views, patience, belief and love for the Almighty.

Throughout the history of Islam, there have been such famous calligraphers who developed the art of writing with high moral values, spiritual love and high aesthetic taste, and a rich worldview. They managed to make Arabic calligraphy the crown of Islamic art.

Ibn Mugla, a famous calligrapher who was considered a turning point in Arabic calligraphy, with his brother Abu Abdullah Hasan bin Ali determined the geometric dimensions (Handasatul Huruf) of the letters and laid the foundation for the emergence of «Aklami Sitta» - six canonical styles of Arabic writing. Ibn Bawwab, the teacher of Yagut al-Mustasimi, who played an important role in the history of Islamic calligraphy, was considered the second great calligrapher after Ibn Mugla. And the Azerbaijani calligrapher Mir Ali Tabrizi was known as the person who made up the type of calligraphic writing «Nastalik». Sheikh Hamdullah Efendi, owner of the Ottoman school of calligraphy, became the most skilled artist of his time, working on the works of calligrapher Yagut al-Mustasimi.

# KİTABDAN EKRANA: ƏDƏBİYYATIN İRAN KİNO SƏNƏTİNDƏ YERİ

**Rauf QULUZADƏ,**
*Bakı Dövlət Universitetinin*
*Şərqşünaslıq fakültəsinin müəllimi*

***AÇAR SÖZLƏR***: *Farsdilli ədəbiyyat və kino, İran ədibləri və ssenarilər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Персидская литература и кино, иранские писатели и киносценарии.*
***KEY WORDS:*** *Persian literature and cinema, Iranian writers and screenplays.*

Kino sənəti yaranandan, xüsusilə bədii filmlər çəkilməyə başlayandan, onun əsas mövzu qaynağı bədii ədəbiyyat olmuşdur. 1948-ci ildə iranlı kinoşünas Kayhan demişdir: “Film o zaman yaxşı hesab oluna bilər ki, onun ssenarisi məşhur yazıçı tərəfindən yazılsın, ya da film bədii əsər əsasında çəkilsin” [1]. Biz də bu məqalədə İran kino sənətində ədəbiyyat nümunələrinin rolu və İran bədii ədəbiyyat nümunələri əsasında çəkilmiş filmlər haqqında məlumat verməyə çalışacağıq.

Kino ən gənc və kütləvi incəsənət növlərindən biri olaraq, insanların dünyagörüşünün formalaşmasında mühüm rol oynayır, cəmiyyətin inkişafına təsir edir, ölkəni, onun insanlarını, sosial həyatını, mədəniyyətini ölkə hüdudlarından kənarda tanıdır.

İranın ilk kino nümunələri 1900-cü ildə çəkilmişdir, ancaq günümüzə gəlib çatmamışdır. İran kinosu haqqında ilk məqalələr isə 1916-17-ci illərdə Bakıda həftəlik “Hekayət” məcmuəsində dərc olunmuşdur [2].

Asiya-Sakit okean hövzəsi ölkələrinin film mükafatı müsabiqəsinin bədii rəhbəri Maksine Villiamson 35-ci Beynəlxalq Film festivalında demişdir: “İran qədim mədəniyyətə malik ölkədir. İranlıların bədii ədəbiyyat, poeziya və nəsr sahəsində dərin bilikləri, mədəni irslərinə və ədəbiyyata sevgisi filmlərində gözəl əksini tapmış, kino sənətinin inkişafına güclü təsir etmişdir” [3]. Bədii ədəbiyyatda olduğu kimi, mənəvi və humanist prinsiplər üzərində qurulmuş insan münasibətlərinin təsviri İran filmlərinin ən mühüm xüsusiyyətlərindəndir. Sosial realizm fonunda dramatik həyati problemlərin ustalıqla təsviri İran filmlərinin vizual mədəniyyət sahəsində gözəl nümunələr hesab edilməsinin əsas səbəblərindən biridir. İran kinosu ilə bədii ədəbiyyat arasında həmişə əhəmiyyətli dərəcədə sıx əlaqə olmuşdur. Bu əlaqə sonra təsir əks-təsir formasında inkişaf etmişdir.

Keçən əsrin 30-cu illərində İranda ilk səsli kinofilmlərin çəkilişi ilə İran mədəniyyəti tarixində yeni dövr başladı. Həmin illərdə İran Maarif Nazirliyinin sifarişi ilə fars ədəbiyyatının klassik şairlərindən olan Firdovsinin həyatına həsr edilmiş film çəkildi. Filmdə Firdovsi ilə Şah Sultan Qəznəvi arasındakı çəkişmə səhnəsi Rza Şahın narazılığına səbəb olduğundan, film müsadirə edildi. Bu, İran kino tarixində ilk siyasi senzura hadisələrindən biridir [4].

1935-37-ci illərdə dahi şairimiz Nizami Gəncəvinin klassik dünya ədəbiyyatının ən nadidə inciləri hesab olunan “Leyli və Məcnun”, “Fərhad və Şirin” poemaları əsasında İranda “səsli kinonun atası” Əbdülhüsseyn Sepantenin çəkdiyi filmlər farsdilli kino sənəti tarixinə düşmüşdür.

Şərq ədəbiyyatının “Min bir gecə” nağıllarından birinin süjeti əsasında müasir Tehran reallıqlarına

uyğunlaşdırılmış Qaffarinin "Qozbelin gecəsi" filmi 1964-cü ildə Kann Festivalında nümayiş etdirildi. Qaffarinin bu uğuru İranın bir sıra şair və yazıçılarını özlərini kino aləmində sınamağa sövq etdi. Şairlərdən Fereydun Rahnema "Siyavuş Taxt-e Cəmşiddə", Foruh Fərrohzad "Məhkum olmuşların evi", yazıçı Ebrahim Qolestan "Kərpic və güzgü" və digərləri beynəlxalq festivallarda nümayiş etdirilib, xarici mətbuatın müsbət rəylərini almış filmlər çəkdilər.

1979-cu il İslam inqilabından sonra vizual incəsənət poeziyanı əvəz edərək mədəniyyətin dominant formasına çevrilmişdir [5].

Klassik qəzəl poeziyası, sufilik və müasir poeziya ilə kinonun vəhdəti Abbas Kiyarüstəminin filmlərinin özəyində durur. Bəhram Bayzainin Qərb müasirliyinin İran cəmiyyətinə təsirini əks etdirən filmlərində fars poeziyasının humanistik fəlsəfi ideyalarını sezməmək mümkün deyil.

Beləliklə, müasir İran kino sənəti sosial-inqilabi ideyaların carçısı rolunu deyil, hadisələrə humanist münasibətlər müstəvisindən yanaşmanı seçmişdir.

M.R.Qanunpərvər 2016-cı ildə nəşr edilmiş "Fars nəsr ədəbi janrı və İran kinosu" adlı kitabında təcrübəli ədəbiyyat müəllimi və filoloq olaraq, bu iki sənət arasındakı sıx əlaqəni çox gözəl xarakterizə etmişdir: "Şifahi incəsənətin iki qolu olaraq kino və nəsr ümumi mənbəyə malikdir. XIX əsrin sonu ərsəyə gəlmiş fars nəsr janrı və növbəti əsrin 30-cu illərində yaranmış İran kino sənəti müasir dövrə qədər çiyin-çiyinə addımlayır" [6].

Kino sənəti nəqli ədəbi janr kimi üstünlüyü əldə etdiyinə görə, yazıçılar kino sənəti elementlərini öz əsərlərinə müvəffəqiyyətlə daxil edirdilər.

Keçən əsrin 60-cı illəri İran kino sənətində Yeni dalğa dövrü adlanır. Əvvəlki onilliyin sonu 25 film istehsal edildiyi halda, 60-cı illərin sonunda 65 tammetrajlı film çəkilmişdir. Tanınmış yazıçılardan Sadeq Hedayəti, Qolam Hüsseyn Səedi, Sadeq Çubək kimi müəlliflərin əsərləri ekranlaşdırılıb, geniş tamaşaçı kütləsinə təqdim edilmişdir. İran Yeni dalğa studiyası rejissorlarının səciyyəvi xüsusiyyəti siyasi və fəlsəfi mövzuları alleqorik hekayələrlə izah etmə, bəzilərinin poetik dialoqlardan istifadə etmə tərzidir.

1969-cu il o dövrün ən müvəffəqiyyətli ili olmuşdur. Məsud Kimiayinin "Qeysər" dramı və Dariyuş Mehrcuinin "İnək" kriminal dramı İran milli kino sənətinin inkişaf vektorunu dəyişmişdir. Hər iki film 1972 və 1998-ci illər aparılmış sorğuya əsasən kino tənqidşünasları tərəfindən ən yaxşı İran filmləri hesab olunmuşdur.

"İnək" 1971-ci il Venesiya və Çikaqo beynəlxalq kino festivallarında mükafat almış ilk İran filmidir. Bu film tanınmış İran yazıçısı Golam Hoseyn Saedinin eyniadlı povesti əsasında çəkilmişdir [7].

Evli, lakin övladı olmayan Məşt Həsən bütün mehrini öz inəyinə salır. Kəndin yeganə inəyi olduğuna görə Məşt Həsən inəyi göz bəbəyi kimi qoruyur. Bir dəfə Məşt Həsən birgünlük kəndi tərk etməli olur. Həmin gün ikicanlı inək ölür. Kəndlilər inəyi köhnə quyuda basdırıb Məşt Həsən kədərlənməsin deyə, yalandan inəyin qaçdığını deyirlər. Məşt Həsən bu yalana inanmaq istəmir və dəli olur. Ağlını itirmiş kişi tövlədə gizlənib saman yeyir, özünü inək hesab etməyə başlayır. Bir neçə gündən sonra həmkəndliləri Məşt Həsəni zorla şəhər xəstəxanasına aparmaq istəyirlər. Zavallı qaçıb canını qurtarmaq istəyəndə uçuruma yuvarlanır.

Film Ayətullah Xomeyninin xoşuna gəldiyindən onu İslam İnqilabından sonra qadağan etməyə icazə vermədi.

1971-ci il məşhur İran yazıçısı Sadeq Hedayatinin "Üç damla qan" hekayələr toplusundan "Daş Akol" əsasında Məsud Kimiayinin eyniadlı filmi ekranlara çıxmış və böyük müvəffəqiyyət qazanmışdır.

Sadeq Hedayatinin bu əsəri də keçən əsrin 20-ci illərinin sonu və 30-cu illərin ortalarında yazılmış digər əsərləri kimi milli sosial mühiti əks etdirir. "Daş Akol" bir neçə dəfə inglilis dilinə, eləcə də fransız və koreya dillərinə tərcümə edildiyindən xarici oxuculara tanış əsərdir.

Tənqidşünasların rəyinə görə, özlüyündə kiçik şedevr olan hekayənin dialoqları xüsusi məharətlə yazılmış, dilin ən gözəl xüsusiyyətlərini əks etdirən idioma və məsəllərlə zəngindir. Əsərdə iki insan arasındakı düşmənlik və ədavəti bildirən, "Şirazda hər kəs bilirdi ki, Daş Akol və Kəkə Rostəm bir-birinin kölgəsini qılınclayırlar" cümləsində işlənən "kölgə qılınclamaq" ifadəsi kimi xalq dilindən gəlmiş yüzlərlə ifadə var. Onların fikrincə, yazıçı hətta "quru formal sözlərdən" də poetik və romantik cümlələr yarada bilmişdir [8]. Poeziyada olduğu kimi, alleqorik ifadə, deyim və cümlələrin qafiyə ilə yazılması mətndə poetik ritm yaranmasına səbəb olmuşdur.

Hadisələr Şiraz mahalında XX əsrin əvvəllərində baş verir. Daş Akol və Kəkə Rostəm arasında ədavət illərlə davam edir. Daş Akol dəfələrlə Kəkə Rostəmin hücumlarını dəf edib, onu yerində oturtsa da, düşmən ondan əl çəkmir və intiqam almağa fürsət axtarır. Film bu iki nəfər arasında növbəti çəkişmə səhnəsi ilə başlayr. Günlərin bir günü ölüm ayağında olan tacir Hacı Şəmad Daş Akolu yanına çağırır, bütün sərvətini idarə etməyi, ailəsinin ağası olmağı ona vəsiyyət edir və dünyasını dəyişir. Orada Daş Akol böyük bir yükün altına girdiyini, öz-özünə dediyi kimi, "əl-ayağının zəncirləndiyini" anlayır [9].

Dəfn mərasimində Hacının kiçik qızı Mərcan bayılır. Daş Akol onu özünə gətirmək üçün qızın üzünə su çiləyərkən onların baxışları qarşılaşır və Daş Akol sarsılır. Qıza görə yaşlı və eybəcər olduğuna özünü inandıran Daş Akol nə vaxtsa Mərcanla evlənmək fikrindən vaz keçib, bütün fikrini Hacının işləri ilə məşğul olmağa yönəldir. İşləri yoluna qoyub, ailənin gəlirlərini artırır, eyni zamanda Hacının ailəsinin qayğısına qalıb, xərclərini öz boynuna götürür. Ətrafdakıların istehzalarına fikir vermədən, yavaş-yavaş əvvəlki həyatından uzaqlaşır.

Evdə saxladığı qoca tutuquşu Daş Akolun tənha gecələrdə yeganə dostuna çevrilir. "Hər gecə Şirazın əyri-üyrü küçələri yatanda Daş Akol öz arzu və istəklərini utanmadan qılafından çıxarır". O, Mərcana olan sevgisini ilk dəfə tutuquşuya bəyan edir, gecələri qəm içində tutuquşuya məhəbbət şeirləri oxuya-oxuya keçirir. Yazıçının bir sıra hekayələrində yer alan yaşlı adamın gənc və əlçatmaz qıza vurulması süjeti "Daş Akol" əsərində sosial-etik baxımdan təsvir edilmişdir. İşlər beləcə davam edir və bir gün dövlətli bir adam Mərcan üçün elçiliyə gəlir. Cəmiyyətin əxlaq və şərəf kodekslərinə uyğun olaraq, Daş Akol vəzifəsini yerinə yetirir: toy tədarükünə başlamağa qərar verir. Evə yeni sahib gəldiyindən, hamının qarşısında işləri təhvil verərək çıxıb gedir.

Köhnə sığınacağına qayıdan Daş Akol dərdini unutmaq üçün çarəni badə və qəzəllərdə görür, səfil vəziyyətə düşür. Bu vaxt Kəkə Rostəm peyda olur və qisas almaq üçün fürsət axtarır. Köhnə ədavət yenidən qızışır. Təkbətək döyüşdə Daş Akol Kəkə Rostəmi məğlub edir və mərdliyini nümayiş etdirərək xəncərini kənara atır. Namərd Kəkə isə həmin xəncər ilə rəqibini ölümcül yaralayır. Növbəti gün Daş Akol bütün bu illərdə yeganə sirdaşı olan qoca tutuquşunu Mərcana göndərir.

Filmin son səhnəsində Mərcan heyranlıqla tutuquşunu seyr edərkən, quş Daş Akolun həmişə dediyi sözləri təkrarlamağa başlayır: "Mərcan... Mərcan... sən məni ödürdün... Mərcan... bunu kimə deyim? Sənə olan eşqim məni öldürdü..." Mərcanın gözlərindən yaş axmağa başlayır. Elə həmin anlar Daş Akol öz evində son nəfəsini verərək həyata vida edir.

Məsud Kimani Hedayətinin ədəbi dillə təsvir etdiyi mühiti ustalıqla film dilinə çevirmiş və əsrlərin keçidində olan İranın atmosferini tamaşaçıya çatdırmağa nail olmuşdur.

İran İslam İnqilabı və İran-İraq müharibəsi bu ölkədə mədəniyyətin bütün sahələri kimi, ədəbiyyat və kino sənətinə də güclü təsir etdi. Mövzular əksər hallarda bu tarixi hadisələri əhatə edirdi. İrandan mühacirət edən mədəniyyət xadimləri xaricdə fəaliyyətlərini davam etdirdiklərinə görə mühacir ədəbiyyatı və kinomatoqrafiyası yarandı. 1980-90-cı illərdə kino sənəti İranın yeni nəsil yazıçılarının yaradıcılığına təsir etməyə başlamışdı.

İran filmlərinin beynəlxalq səviyyədə tanınmasını BBC Mədəniyyət şöbəsinin tərtib etdiyi 100 ən yaxşı xarici dilli filmlər arasında dörd İran filminin olması təsdiqləyir. Onlardan üçü Abbas Kiyarüstəminin filmləridir. O, dünya miqyasında tanınan və təqdir edilən iranlı rejissor, ssenarist və prodüser olmaqla, İran Yeni Dalğa studiyası rejissorlarından biri idi.

Şair kimi tanınan Abbas Kiyarüstəminin "Dostumun evi hardadır?" filminin adı İran müasir poeziyasının ən görkəmli şairlərindən biri - Söhrab Seheprinin eyniadlı mistik poemasından götürülmüşdür. Film cəmiyyətdə vətəndaşıq borcu, loyallıq və gündəlik qəhrəmanlıq kimi hisslərin metaforu kimi qiymətləndirilir.

Filmin əsas qəhrəmanı Əhməd adlı məktəblidir. Müəllim Əhmədin dostu Nemətzadı ev tapşırıqlarını dəftərdə deyil, vərəqdə yazdığına görə danlayır və bir də təkrar olsa, onu məktəbdən qovmaqla hədələyir. Həmin gün Əhməd səhvən Nemətzadın dəftərini evə gətirdiyini görür. O, dostunu çətin vəziyyətdə qoyduğunu anlayır və dəftəri qaytarmaq qərarına gəlir. Qorxusuna qalib gələrək özbaşına qonşu kəndə gedib dostunun yaşadığı evi axtarmağa başlayır. Nemətzadı tapmayıb, gecə evə qayıtmağa məcbur olur. İşlər elə gətirir ki, Əhməd növbəti dərs ilində həll edilmiş ev tapşırıqları olan dəftəri dostuna qaytarır.

"Dostumun evi hardadır?" filmi İran kinomatoqrafiyasının klassik nümunələri siyahısındadır [10].

Abbas Kiyarüstəminin digər "top 100" siyahısına düşmüş "Albalı dadı" filmi 1997-ci ildə keçirilmiş Kann kino festivalında "Qızıl Palma" mükafatına layiq görülmüşdür.

İntihar etmək istəyən orta yaşlı Bədii onu dəfn edəcək birini axtarır. Qarşısına çıxan iki nəfər Bədiinin təklifindən imtina edirlər. Üçüncü adam özü də keçmişdə intihara cəhd göstərmiş şəxdir. O, kömək etməyə razı olsa da, Bədiini bu fikrindən döndərməyə çalışır: "Allahın öz yaratdıqları üçün etdiklərini heç bir ana öz uşaqları üçün edə bilməz. Siz bunlardan imtina etmək istəyirsiniz?" Filmin sonunda Bədii yuxu dərmanı qəbul edərək, təyin olunmuş yerə gəlir və qazdırdığı qəbrə uzanır. Bu zaman güclü leysan başlayır.

Ötən əsrin 90-cı illərinin ən tanınmış bədii filmi - 1995-ci ildə istehsal olunmuş dünya şöhrətli "Ağ şar" İran kinomatoqrafiyasının növbəti klassik nümunəsidir. Filmin rejissoru və ssenari müəlliflərindən biri İran kinomatoqrafiyasında "yeni dalğa"nın ən məşhur nümayəndəsi, Cənubi Azərbaycanda dünyaya göz açmış Cəfər Pənahidir. Ssenarinin digər müəllifi Abbas Kiyarüstəmidir.

Filmdəki hadisələr İranda Yeni İl - Novruz bayramı ərəfəsində baş verdiyindən, bayram adət-ənənələri gözəl təsvirini tapmışdır. Yeddi yaşlı Raziyə bayram hədiyyəsi kimi anasından qızıl balıq almağı xahiş edir. Balıq satılan mağaza saat yarımdan sonra bir həftəlik bağlanacağına görə Raziyə və qardaşı Əli analarını tələsdirirlər. Ana ailə büdcəsindən son 500 tüməni uşaqlara verir. Yolda uşaqlar iki dəfə pulu itirirlər, pulu ələ keçirmək istəyən adamlardan yaxa qurtarmağa çalışırlar. Son anda küçədə şar satan əfqan oğlan əlində qalmış sonuncu ağ rəngli şarla uşaqlara kömək edir.

Siyasi hadisələrin fonunda Qərb cəmiyyətində İran haqqında məlum və əsasən xoşagəlməz qərəzli stereotiplərin formalaşdırıldığı dövrdə beynəlxalq kino festivallarında "Ağ şar" filmi tamaşaçıların, tənqidçilərin və münsiflər heyətinin təqdir və təriflərini qazanmışdır. Film beynəlxalq müsabiqələrdə

dəfələrlə mükafat almış, 1995-ci il Kann festivalının "Qızıl kamera" mükafatına layiq görülmüşdür. Kann festivalının bəyəndiyi "Ağ şar" filmini "ən yaxşı xarici film" nominasiyası üzrə 68-ci "Oskar" mükafatına namizəd kimi irəli sürülsə də, İranla ABŞ arasındakı siyasi qarşıdurma səbəbindən film bu müsabiqədə iştirak edə bilməmişdir [11]. "The Guardian" filmi bütün dövrlərin ən yaxşı 50 ailə filmi siyahısına daxil etmişdir.

BBC Mədəniyyət şöbəsinin 2018-ci ildə tərtib etdiyi 100 ən yaxşı xarici dilli film arasındakı 4 İran filmindən ən məşhuru Əsgər Fərhadinin "Nadirin Simindən ayrılması" (və ya "Boşanma") filmidir. 2012-ci il "ən yaxşı xarici film nominasiyasında" Oskar mükafatı almış "Boşanma" filmi bu siyahıda 21-ci yerdədir.

Məqalənin əvvəlində Kayhanın çox dəqiq qeyd etdiyi kimi, bir filmin yaxşı hesab olunmasının əsas şərti onun ssenarisinin ədəbi və danışıq dilinin bütün incəliklərini gözəl bilən qələm ustası tərəfindən yazılmasıdır. Film xarici kinoşünaslar tərəfindən "yeni klassika" adlandırılmış və yüksək qiymətləndirilmişdir. Vikram Murthi yazır: "Qısaca desək, Ə.Fərhadi hazırda yaşayan dahi ssenari müəlliflərindən biridir. Onun Çexovsayağı yazıçılıq bacarığı sayəsində biz ciddi mənəvi-əxlaqi məsələlərin təsvirini personajların aldıqları qərarlarda görə bilirik" [12].

Bununla belə, Fərhadinin dərin humanist ideyaları bir hekayəyə sığdırmaq, hər bir personajın düşdüyü vəziyyəti qəlbən duyaraq anlamaq qabiliyyəti daha güclüdür. Fərhadinin adının Avropada "yeni dram" axınının banisi, Norveç şairi, publisist, dramaturq Henri İbsen və amerika yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Yucin Qladstoun O'Nil ilə birgə çəkilməsinin səbəbi var. Onlar öz əsərlərində dramatik hadisələrin girdabına düşən insanların öz istəklərinə qarşı çıxmasını seçmək məcburiyyəti qarşısında qalmaları və təsadüfi anlaşılmazlıqlarla əlaqəli olduğunu göstərirlər. Fərhadi heç bir halda personajları müsbət və ya mənfi qəhrəman olaraq "yaxşı adam" və ya "pis adam" çərçivəsinə salmır. Onlar yalnız çıxılmaz vəziyyətə düşmüş, bir-birindən emosional cəhətdən ayrılmış insanlardır və onları anlamaq lazımdır. Əsərdə insanların öz yaxınlarını manipulyasiya etməsi, aldatması, istəmədiyi nəyəsə məcbur etməsinin səbəblərini bacarıqla təsvir edir. "Boşanma" sırf İran dramı olsa da, filmin oyatdığı hisslərin coğrafi hədd-hüdudu yoxdur [13].

Son onilliklər İranın sərhədlərindən kənarda, xüsusilə də Qərbdə yaşayan bir çox kinosevərlərin İran incəsənətinə marağı siyasi kontekst daşıyırdı. Bu cəhətdən onlar Cəfər Pənahi və Əsgər Fərhadinin filmləri ilə kifayətlənirdilər [14].

"2019-cu ildə yeni nəsil kino rejissorları çəkdikləri filmlərdə incəsənətin lirik və universal tərəflərini ön plana çəkərək, poeziyanın siyasətdən üstünlüyünü qeyd etmək, müasir tamaşaçılara İran kinosunu daha dərindən anlatmaq niyyətindədirlər". Bu sözləri "Müasir İran kinosu: hərəkətdə olan poeziya" həftəsinin təşkilatçılarından Elhum Şakerifar 2019-cu ilin aprelində "London Barbican Cinema"dakı təqdimatında demişdir.

Elə həmin təqdimatda E.Şakerifar rejissor Mani Həqiqidən sitat gətirmişdir: "Daim siyasətə aid suallar eşitmək xoşagəlməzdir. Biz sənət əsəri yaratmışıq. Gəlin unutmayaq ki, ədəbiyyat və incəsənət bizi ayıran maneələri aşmaq üçün universal bir dildir" [15].

# ƏDƏBİYYAT


1. https://www.iranicaonline.org/articles/cinema-i
2. https://en.irna.ir/news/82504642/Iranian-movies-reflection-of-culture-literature-Expert
3. https://ru.wikipedia.org/wiki/%D0%9A%D0%B8%D0%BD%D0%B5%D0%BC%D0%B0%D1%82%D0%BE%D0%B3%D1%80%D0%B0%D1%84_%D0%98%D1%80%D0%B0%D0%BD%D0%B0
4. https://profiles.laps.yorku.ca/projects/iranian-cinema-and-persian-literature/
5. https://en.wikipedia.org/wiki/The_Cow_(1969_film)
6. https://en.wikipedia.org/wiki/Dash_Akol
7. https://www.csmonitor.com/1996/0124/24141.html
8. https://ru.wikipedia.org/wiki/%D0%94%D0%B5%D0%BD%D1%8C_%D0%BA%D0%B8%D0%BD%D0%BE_(%D0%98%D1%80%D0%B0%D0%BD)
9. https://www.indiewire.com/2016/02/new-classic-asghar-farhadis-a-separation-124884/
10. https://www.sensesofcinema.com/2020/cteq/where-is-the-friends-house-abbas-kiyarostami-1987/
11. https://www.jstor.org/stable/4310496?seq=1
12. https://www.bbc.com/culture/article/20181115-the-great-films-that-define-iran
13. https://www.sid.ir/en/journal/ViewPaper.aspx?ID=546249
14. https://www.questia.com/read/1P4-1900111937/iranian-film-and-persian-fiction
15. https://www2.bfi.org.uk/news-opinion/sight-sound-magazine/features/contemporary-iranian-cinema-poetry-in-motion-janbal-dragon-arrives

Рауф Гулузаде

## ОТ КНИГИ НА ЭКРАН: МЕСТО ЛИТЕРАТУРЫ В ИРАНСКОМ КИНЕМАТОГРАФИИ


## РЕЗЮМЕ

С момента появления киноискусства, его основным источником была художественная литература. Как и в художественной литературе, описание человеческих отношений, основанное на моральных и гуманистических принципах, является одной из важнейших особенностей иранских фильмов. В этой статье мы хотим предоставить информацию о роли литературы в иранском кино.


Rauf Guluzada

## FROM THE BOOK TO THE SCREEN: THE PLACE OF LITERATURE IN IRANIAN CINEMATOGRAPHY


## SUMMARY

Since the advent of cinematography, fiction has been its main source. As in fiction, describing human relations based on moral and humanistic principles is one of the most important features of the Iranian films. In this article, we want to provide information on the role of literature in the Iranian cinematography.

# РАСПРОСТРАНЕНИЕ ХРИСТИАНСТВА В КАВКАЗКОЙ АЛБАНИИ

**Тофик ИМАНОВ**,
*Азербайджанский Университет Туризма и Менеджмента, старший преподаватель кафедры «Общественных наук»,*
*ifk006@mail.ru*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Кавказская Албания, христианская религия, албанские храмы, этнические группы, мультикультурализм, толерантность.*
***AÇAR SÖZLƏR:*** *Qafqaz Albaniyası, xristian dini, alban məbədləri, etnik qruplar, multikulturalizm, tolerantlıq.*
***KEY WORDS****: Caucasian Albania, Christian religion, Albanian temples, ethnic groups, multiculturalism, tolerance.*

В географическом отношении на территории современного Азербайджана, Иберии и включая город Дербент, находилось мощное древнее государство – Кавказская Албания. Еще античные авторы давали познавательную, интересную информацию об этой самобытной стране. Например, родоначальник исторической науки, «отец истории», древнегреческий историк Геродот в своем трактате «История» дает размышление о том, что на территории Албании проживают 26 племен. Описывая их, говорит, что они высокорослые, светловолосые. В то же время автор труда «География» Страбон представляет читателям дидактические эпизоды из жизни жителей этой прекрасной страны. В те времена в Албании процветали различные ремесла, культура достигла высокого уровня.

Имеется несколько версий, предположений этимологии топонима названия Албании. Например, А.Бакиханов в своем произведении «Гюлистани Ирем», в котором дается повествование об истории Азербайджана начиная с первобытной общественно-экономической формации заканчивая русско-иранскими войнами, переводит ее как «горная страна».

Албанская церковь одна из самых древних во всем христианском мире. Албания относится к числу тех стран, где христианские общины возникли еще задолго до IV века, до становления христианства как государственной религии.

Албанская традиция в деле распространения христианства различает в своем развитии два основных периода. Первый, так называемый – апостольский период связанный с именем апостолов Фаддея, Варфоломея и ученика апостола Фаддея – Елисея (до IV в.). Второй период (грекофильский) связан с именем Григория Просветителя и албанского царя Урнайра (IV в.). Албанская церковь по происхождению непосредственно связана с Иерусалимом. Христианство впитало в себя традиции мировоззрения, зафиксированного в Библии, затем в Евангелиях [1, с.85].

Красной нитью через его произведение проходит идея апостольского начала албанской церкви. Официальное принятие христианства здесь датируется 313 годом. Проповедь христианской религии Елисея началась в северной части Албании – в крупной и богатой области «Чола», где наблюдалась наиболее этническая пестрота.

В 313 году царь (басилевс) Урнайр объявил христианство государственной религией, с целью объединить разноплеменное государство.

«Албанская церковь на протяжении долгого исторического времени поддерживала тесные отношения с Иерусалимской церковью. По данным Моисея Каланкатуйского, албанские правители из династии Аршакидов вели борьбу с различными языческими верованиями. Преследованию пережитков дохристианских верований посвящены два канона (11, 12) Агуенского собора (V в.)» [2, с.12].

В деле распространения и утверждения христианства большую роль сыграло создание и усовершенствование албанского алфавита и письменности, создание икон, перевод Библии с сирийского и греческого языков на албанский.

Христианская религия с помощью активной деятельности албанских царей Аршакидов становится идеологической основой нового феодального общества, начинает играть значительную роль в общественно-политической и социальной жизни Албании. Феодальный монарх и феодальная знать страны создало материальную базу албанской церкви, к ней перешла значительная часть лучших земельных наделов. В пользу церкви с населения взималась «церковная десятина», соответствующая 1/10 всех сельскохозяйственных доходов албанских жителей, а также другие многочисленные разнообразные натуральные подати и добровольные приношения. Духовенство за службу обеспечивалось земельными наделами называемые – «хостаками».

«Албанские цари проявляли большую заботу об албанской церкви, албанском христианском духовенстве, предоставив ему огромные привилегии. Они пытались уравнять его со светской властью (азатами), создав наряду с дворцовым судом – церковный суд, инстанциями которого были суд священника и суд епископа» [3, с.125].

В начальный период христианства (IV-V вв.) албанское духовенство, экономически и политически было слабым. Даже в решении вопросов церкви албанский клир не играл в обществе ведущей роли. Условия канонов и правил албанских церковных соборов разрабатывались в присутствии царя, светской знатью и духовенством.

Но юридическую силу они получили после утверждения их печатями светской знати и царя. Власть албанского католикоса была условной. Албанские цари назначали епископов, созывали соборы, то что должно было входить в компетенцию церкви.

«Такое положение албанского духовенства объяснялось как слабостью идеологических позиций церкви среди местного населения, так и наличием в стране централизованной власти» [4, с.116].

В VI-VII вв. в период правления албанских великих князей Михранидов, экономические и политические позиции албанской церкви усилились, что наглядно видно при изучении канонов двух албанских соборов – 488 г. и 705 г. Если согласно канонам 488 года албанское духовенство только отстаивала свои права перед светской властью – азатами, пыталось с ней

уравняться в правах, то согласно канонам 705 года духовенство вступает в борьбу с азатами, ограничивает их произвол и категорически запрещает им вмешиваться в дела церкви.

«В VII веке инициатива созыва албанского собора принадлежала албанскому католикосу, который возглавлял церковь и стоял во главе законодательного собора» [5, с.195].

К концу IV века в Албании уже сложилась необходимая церковная иерархия с присущей ей субординацией. Таким образом к 340 году албанская церковь была автокефальной. По постановлению Никейского собора 325 года посвящение в епископы совершалось с согласия всех епископов данной епархии.

«Фактически положение албанской церкви было юридически узаконено после IV Вселенского собора, созванного в 451 году в Халкидоне. В Албании было семь церковных чинов. Патриархи албанского католикосата с 551 года носили титул «Католикос Албании, Лпинии и Чола». Центром албанской церкви в IV веке была столица Кабала, а с V века столица Партав (Барда)» [6, с.218].

В Албании территория епископства совпадала с территорией области. В 1836 году по указу царского правительства албанский католикосат был упразднен.

Вообще о древних корнях христианской религии в нашей республике, свидетельствует наглядно тот факт, что недалеко от символа всех времен – «Девичьей башни» находятся фрагменты часовни святого апостола Варфоломея.

В период «нефтяного бума» рубежа XIX-XX столетий в Баку было возведено немало православных храмов, в том числе величественная соборная церковь Александра Невского. Свой достойный вклад в строительство «Гызыл килься», как ее называли в народе, внес меценат и благотворитель, «отец нации» - Гаджи Зейналабдин Тагиев.

А в поселке Нидж Габалинского района до нашего времени сохранилась автокефальная церковь «Чотари», которая датируется XVIII веком. Необходимо непременно упомянуть об албанском храме, который расположился в селе Киш Шекинского района. Названная церковь является самой старинной на Кавказе. Ее образно называют «матерью церквей», датируемой ранним средневековьем. Многие албанские храмы на территории Азербайджана имеют своеобразный архитектурный стиль «базилики».

Все эти конкретные факты, очевидно свидетельствуют о том, что территория Азербайджана исстари была гостеприимным пространством мультикультуральных ценностей и толерантности, т.е. веротерпимости.

Таким образом, на примере Кавказской Албании на территории которой распространилось и утвердилась христианская религия, наглядно можно убедиться, что древняя земля Азербайджана на протяжении продолжительного исторического периода являлась пространством, где благодаря выгодному географическому местоположению, гармонично, в мире и согласии проживали и в настоящее время проживают представители различных этнических групп и религий.

Культовые сооружения различных религий на современном этапе охраняются и в случае необходимости реконструируются, со стороны государства. В нашей республике систематически на самом высоком уровне проходят гуманитарные и межрелигиозные мероприятия.

Мультикультуральные ценности и толерантность, то есть веротерпимость всегда были свойственные нашему гостеприимному народу. Мультикультурализм в Азербайджанской Республике является, не только государственной политикой, но и повседневным образом жизни.

# ЛИТЕРАТУРА

1. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qos. Alban salnaməsi. Bakı: 2006.
2. Mübariz C. Xəlilov. Albaniyanın tarixi, etno-mədəni hüdudları: Qərb istiqaməti. Bakı: 2017.
3. Tofiq Məmmədov. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: 2006.
4. Кемал Алиев. Античная Кавказская Албания. Баку: 2015.
5. Фазиль Османов. История и культура Кавказской Албании. Баку: 2006.
6. Фарида Мамедова. Политическая история и историческая география Кавказской Албании. Баку: 1986.

Tofiq İmanov

## QAFQAZ ALBANİYASINDA XRİSTİANLIĞIN YAYILMASI

### XÜLASƏ

Məqalədə Azərbaycanın ən inkişaf etmiş qədim dövlətlərindən biri olan Qafqaz Albaniyasında Xristianlığın yayılması təhlil edilir. Göstərilir ki, burada Xristianlığın yayılması və formalaşması bir neçə ardıcıl inkişaf mərhələsindən keçmişdir. Qafqaz Albaniyasının timsalında əlverişli coğrafi mövqeyinə görə qədim Azərbaycan ərazisində məskunlaşmış müxtəlif xalqların və inancların nümayəndələrinin sülh və harmoniya içərisində ahəngdar bir şəkildə yaşadıqları aydın olur.

Bu gün də multikulturalizm və onun əxlaqi-etik və mənəvi dəyərləri Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Müasir dövrdə multikulturalizm nəinki dövlət siyasəti, həmçinin həyat tərzi sayılır.

Tofig Imanov

## THE SPREAD OF CHRISTIANITY IN CAUCASIAN ALBANIA

### SUMMARY

The article analyzes the spread of Christianity in Caucasian Albania, one of the most developed ancient states of Azerbaijan. It is shown here that the spread and formation of Christianity has gone through several successive stages of development. In the example of Caucasian Albania, it becomes clear that due to its favourable geographical position, representatives of different peoples and faiths settled in the territory of ancient Azerbaijan live in peace and harmony.

Today, multiculturalism and its ethical and moral values are one of the priorities of the state policy of the Republic of Azerbaijan. In modern times, multiculturalism is considered not only a state policy, but also a way of life.